Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 06 (6148) 13 fevral 2026-cı il | Qiyməti 40 qəpik

# DTX Ramiz Mehdiyevlə bağlı məlumat yaydı

## Siyahıda kimlərin adı var?



**Xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranmışdır.**

Bax:səh-2

## Azərbaycanla ABŞ strateji tərəfdaş oldu



**Azərbaycanla ABŞ arasında fevralın 10-da Strateji Tərəfdaşlıq Xartiyası imzalanıb.**

Adalet.az-ın məlumatına görə, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nı Azərbaycan tərəfindən Prezident İlham Əliyev, ABŞ tərəfindən isə vitse-prezident Cey Di Vens imzalayıblar.

## Azərbaycan-Türkiyə əlaqələri müzakirə edildi

**Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanda səfərdə olan Türkiyə Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Cənubi Qafqaz Baş İdarəsinin rəisi, səfir Mehmet Samsarla görüşüb.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin Azərbaycandakı səfirliyindən bildirilib.

Görüşdə Türkiyə səfiri Birol Akgün də iştirak edib.

Görüş zamanı ikitərəfli əlaqələr və regional məsələlər müzakirə olunub.

## *Azərbaycanda bu tarixlərdə iş olmayacaq*



**Azərbaycanda 3 gün ardıcıl qeyri-iş günü olacaq.**

Adalet.az xəbər verir ki, 8 Mart - Beynəlxalq Qadınlar Günü bu il bazar gününə təsadüf etdiyindən növbəti gün - 9 mart da qeyri-iş günü hesab olunacaq.

Beləliklə, 7 mart tarixinin şənbə gününə təsadüf etməsi ilə əlaqədar ölkədə 3 gün ardıcıl qeyri-iş günü olacaq.

## ABŞ İran tankerlərinə hücum planı hazırlayır



**The Wall Street Jornal qəzetinin məlumatlna görə, ABŞ prezidenti administrasiyası İran sahillərindən neft daşıyan tankerlərin saxlanılması məsələsinə baxır.**

Qəzet qeyd edir ki, Vaşinqton Tehranı nüvə proqramı razılaşmasını qəbul etmək üçün təyziq etməyə hazırlaşır. ABŞ "İranın qaçılmaz intiqam" planından və dünya neft bazarına təsir edə biləcəyindən ehtiyat edir. Tramp administrasiyasından bildirilir ki, İranla danışıqlarda razılaşma əldə olunmayacağı təqdirdə, prezident Trampın masasının üstündə bir neçə variantda neft tankerlərinə hücum planları var.

## *Pezeşkian Azərbaycana təşəkkür etdi*



**"İran qırmızı xətləri qorumaq şərti ilə dünya ilə dialoqa hazırdır".**

Adalet.az xəbər verir ki, bunu İran Prezidenti Məsud Pezeşkian hökumətin iclasında deyib.

Dövlət başçısı rəhbərlik etdiyi hökumətin qonşu ölkələrlə səmimi və qardaşlıq münasibətləri yaratmaq üzərində işlədiyini vurğulayıb.

"Türkiyə Prezidenti və xarici İşlər naziri, həmçinin Azərbaycan, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Səudiyyə Ərəbistanı və Misir hökumətlərinə diplomatik səylər və İrana dəstək bəyanatlarına görə təşəkkür edirik", - Məsud Pezeşkian əlavə edib.

***Əbülfət MƏDƏTOĞLU***
***madatoglua@mail.ru***

# Burnumun ucunu göynədən kitab



## Aqil Abbasın yeni kitabı işıq üzü gördü

**Mənə görə kitab, qəzet, bütövlükdə özündə fikri yazılı şəkildə çatdıran hər bir nümunə həm də müəllifin, yeni yazı sahibinin müəyyən hissəsidir. Təbii ki, söhbət ruh, hiss, duyğu və ürəkdən gedir. Bu mənada oxuduğum hər bir yazı nümunəsini müəlliflə söhbətim, dialoqum, təmasım kimi qəbul edirəm. Deyə bilərsiniz ki, axı, həmişə söhbət alınmır. Haqlısınız, sizinlə razıyam. Amma... Gəlin etiraf edək ki, alınmayan söhbətlərin də içərisində bəzən elə nüanslar olur ki, uzun zaman unutmursan, yanından keçib gedə bilmirsən. Çünki əvvəldə dediyim kimi, məsələnin mahiyyəti yazıdan, onun yaratdığı auradan, etdiyi təsirdən ibarət olur. Və bu da adamı tutub saxlayır. O yerdə ki, orda işıqlı nəsə var.**

Bax:səh-8

## *GÜNÜN LƏTİFƏSİ*



Zakir Fəxrini 15 sutka həbs edirlər.

Kamera olanlardan biri soruşur ki, "səni nə üstə həbs ediblər?"

Zakir Fəxri:

**- Qu quşlarına çörək atdığıma görə.**

Kamera yoldaşı təəcüblə:

**- Quşlara çörək atmağa görə də adamı həbs edərlər?**

Zakir Fəxri:

**- Əşi mən Opera Balet teatrında "Qu gölü" baletindəki quşlara çörək atırdım.**

# İlham Əliyev: “Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq”



**Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib.

Dövlət başçısı Azərbaycanda yaradılmış əlverişli investisiya mühitindən bəhs edib, ölkəsinin Avropanın enerji təhlükəsizliyində oynadığı roldan danışaraq deyib:

”Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm. Mən şirkətlərin siyahısına baxdım və dediyim kimi, bizimlə uzun illər çalışan şirkətləri gördüm. Onlar, həmçinin bunu öz çıxışlarında qeyd etdilər. Məsələn, ”Apple”, ”Baker Hughes”, ”Boeing”, bp, ”Coca-Cola”, ”Ericsson”, ”Exxon”, ”J.P. Morgan”, ”Honeywell”, ”Marriott”, ”Mastercard”, ”Visa” və mənim üçün bəzi digər yeni adlar da var. Beləliklə, düşünürəm ki, mövcud əməkdaşlığı artırmaq üçün yaxşı tərkib var. Ölkəmizə ilk dəfə səfər edən şirkətlər üçün isə Azərbaycanda işgüzar fəaliyyət aparmaq üçün bu görüş yaxşı istinaddır. Ümumiyyətlə, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur.

Biz nəhəng sərmayələri cəlb etmişik. Əgər ölkənin ölçüsünə və əhalinin sayına baxsanız, son iki onillik ərzində 350 milyardlıq sərmayə həqiqətən çox böyük rəqəmdir. Hamımızın bildiyi kimi, sərmayələr istənilən ölkənin inkişafında əsas aparıcı qüvvədir. Biz və qanunvericiliyimiz hər zaman xarici sərmayələrə açıq olub. O cümlədən 30 il əvvəl imzalanmış pay bölgüsü sazişlərinə gəldikdə, heç bir söz belə dəyişməyib”.

İlham Əliyev deyib ki, bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var:

”Bilirəm ki, belə hal dünyanın hər yerində olmur. Bəzən siz danışıqlar aparmaq, müəyyən güzəştlərə getmək və sonra isə şərtlərə yenidən baxmaq istəyirsiniz. Burada heç zaman elə hal olmayıb, çünki biz tam əminik ki, xüsusi olaraq, dediyim kimi, 1990-cı illərin əvvəlində yoxsul vəziyyətdə olmuş ölkəyə etimad qurulmalı idi. Siz etimadı illər boyu qurmalısınız və yalnız bir səhv addım həmin etimadı poza bilər. Bir sözlə, biz həmin səhv addımı atmamışıq. Əksinə, bu gün, bizimlə işləyən şirkətlərin sayı artır. Beynəlxalq əlaqələrimizin coğrafiyası da genişlənir. Bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var.

Ölkələrdən bəziləri bir-biri ilə yaxşı münasibətdə deyil. Lakin mən hər zaman demişəm ki, Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq. Hər kəs üçün kifayət qədər imkan olacaq və əlbəttə, ölkənin inkişaf gündəliyi göstərir ki, biz düz yoldayıq. Bu gün dediyim kimi, Birləşmiş Ştatlarla münasibətlər yeni, tamamilə əla dövrə qədəm qoyur. Biz çox həvəsliyik və şirkətlərimiz arasında birbaşa əlaqələri qurmaq üçün həmin böyük fürsətdən istifadə etmək istəyirik”.

# “Dövlət xidmətləri “mygov” üzərindən həyata keçirilməlidir”

**Dövlət xidmətləri ”mygov” üzərindən həyata keçirilməlidir - yəni vahid mərkəzdən.**

Bu sözləri Prezident İlham Əliyev ”Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə deyib.

Dövlətimizin başçısı deyib ki, hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir.

# DTX Ramiz Mehdiyevlə bağlı məlumat yaydı

## Siyahıda kimlərin adı var?

**Xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranmışdır.**

DTX-dən ”Unikal”a bildirilib ki, cinayət işi üzrə təqsiryəndələrinin qanuni tələblərinə tabe olunmaması, ictimai qaydanın, nəqliyyat, müəssisə, idarə və təşkilatların işinin pozulması istiqamətində fəaliyyət göstərmiş, həmçinin bu məqsədlə respublikanın müxtəlif rayonlarından insanların cəlb edilməsi üçün AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul etdikləri 933.828,40 manat məbləğində pul vəsaitini, o cümlədən Ramiz Mehdiyev və Abbas Abbasovdan əldə edilən maddi vəsaitləri qeyd olunan əməllərin törədilməsinə yönəltmişlər.

Cinayət işinin materiallarına əlavə edilmiş texniki sübutlara əsasən, ”Milyarderlər İttifaqı” adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici məsi üçün müraciət etmiş, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyini konkret detallar sadalamaqla vəd etmiş, eləcə də tərəflər Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşmışlar.

Eyni zamanda ittihama əsasən, Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu ”Şərq-Qərb” ASC-nin əməkdaşları vasitəsilə göndərmiş, qeyd olunan göndəriş texniki olaraq fiksə edilmişdir.

Bu əməlləri ilə Ramiz Mehdiyev dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyi ilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmiş, xarici dövlətin nümayəndələrinə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət etmişdir. Bundan əlavə, Ramiz Mehdiyev 13 oktyabr



ləndirilən şəxslərə elan edilmiş ittihama əsasən, xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə yaradılaraq 4 iyul 2012-ci ildə xarici ölkədə ”Rusiya Azərbaycan Təşkilatları İttifaqı” adı altında qeydiyyatdan keçirilmiş və ”Milyarderlər İttifaqı” adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşmişlər.

Belə ki, onlar 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində xarici ölkə vətəndaşı Rüstəm İbrahimbəyovun namizədliyini irəli sürən ”Demokratik Qüvvələrin Milli Şurası” (Milli Şura) adlı təşkilat yaratdıqdan sonra xarici xüsusi xidmət orqanlarının maddi yardımı və digər formalarda təşkilati dəstəyi ilə dövlət hakimiyyətinin zorla ələ keçirilməsi üçün kütləvi iğtişaşların törədilməsi, hakimiyyət nümaölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə Prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumları və yaxınlarını cəlb edərək, xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilmişdir.

Məlum olmuşdur ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, ”Milli Şura”nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda ”şura”nın fəaliyyətinin dəstəklənməsi xahiş edilmiş, həmin ölkədə aparılan ”islahatlar”ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilmişdir.

Qeyd olunan ittihama əsasən, Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparmış, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilləri 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və ”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar vermişdir.

Bundan başqa, Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən ”Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər” başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 27 sentyabr 2025-ci il tarixində Əli Kərimliyə təqdim etmiş, 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olun2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17.000.000 manatdan artıq pul vəsaitini leqallaşdırmışdır.

Sadalanan cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilmişdir.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilmişdir.

**Cinayət işi üzrə araşdırmalar davam etdirilir.**

# Politoloq: “ABŞ Cənubi Qafqaz siyasətini prioritet elan edib”

**”ABŞ Cənubi Qafqaz siyasətində strateji mərhələyə keçib. Ötən ilin avqustun 8-də Azərbaycan və Ermənistan arasında Vaşinqtonda sülh paraflanmasının imzalanması, həmçinin TRİP layihəsi ilə bağlı üçtərəfli razılaşmanın əldə edilməsi bu prosesin əsası qoyuldu”.**




Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloq bildirib ki, ABŞ Cənubi Qafqaz və Mərkəzi Asiyada öz geosiyasi mövqelərini möhkəmləndirmək istiqamətində ardıcıl siyasət aparacaq: ”Yeni dünya siyasi nizamında hər iki regionun Rusiyanın tam təsir zonasından çıxarılması Vaşinqtonun əsas strateji hədəflərindən biridir. Cənubi Qafqazda Gürcüstanla bağlı məsələlər də gündəmdədir. Ötən həftə ABŞ Konqresindən nümayəndə heyətinin Gürcüstana səfəri bunu bir daha təsdiqlədi. Qeyd edim ki, ABŞ vitse-prezidenti D.Venzin Azərbaycan və Ermənistana səfəri yekun sülh müqaviləsinin tezləşdirilməsi, TRİP layihəsi üzrə praktiki işlərə başlanması və hər iki ölkəyə siyasi dəstəyin verilməsi məqsədi daşıyır”.

Onun sözlərinə görə, ABŞ bu addımlarla Rusiyaya açıq şəkildə Azərbaycan və Ermənistan arasında əsas sülhün qarantının özü olduğunu nümayiş etdirdi: ”ABŞ vitse-prezidentinin Ermənistandan sonra Azərbaycana səfəri iki ölkə arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətlidir. Strateji xarakterli sənədin imzalanması da istisna edilmir. Cənubi Qafqaz regionu yeni siyasi və iqtisadi mərhələyə qədəm qoyur. Bu mərhələdə ABŞ-nin tam siyasi dəstəyi açıq şəkildə hiss olunur. Vaxtilə Azərbaycanın enerji daşıyıcılarının dünya bazarlarına çıxarılmasına verilən siyasi dəstək bu gün müxtəlif sahələr üzrə davam etdirilir. Faktiki olaraq, ABŞ TRİP layihəsi vasitəsilə regionda institusional şəkildə mövcud olacaq. Bütün bu proseslərin əsas müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir. İkinci Qarabağ müharibəsindən sonra regionda siyasi və iqtisadi transformasiya məqsədilə ardıcıl, praqmatik və məntiqli siyasət həyata keçirilib. Cənubi Qafqaz və Mərkəzi Asiyanın eyni marşrut üzrə birləşdirilməsi region ölkələrinin təhlükəsizliyi və dayanıqlı inkişafı üçün mühüm faktora çevrilir. Rusiyanın regionda baş verən proseslərə münasibəti birmənalı deyil. Moskvanın təzyiq cəhdlərinə baxmayaraq, bunun müsbət nəticə verəcəyi real görünmür”.

**Vasif ƏLİHÜSEYN**

# DİN-dən müraciət: İnsan alverinin qurbanına çevrilməmək üçün diqqətli ol!

**Yüksək maaş, sərfəli şərtlər, sürətli sənədləşmə prosesi İlk baxışdan bu təkliflər cəlbedici görünsə də, araşdırmalar onu göstərir ki, son dövrlər sosial şəbəkələrdə xaricdə iş və təhsil adı altında saxta elanlara rast gəlinir.**

DİN-in Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, saxta elanlara inanaraq xarici ölkələrə səfər edən bəzi vətəndaşların sənədləri əllərindən alınır, onlar məcburi əməyə, cinsi istismara məruz qalır və sonda insan alverinin qurbanına çevrilirlər. Bəs bu kimi hallardan qorunmaq üçün nə etməliyik?




**1.** Xaricdə yüksək məvacibli iş və təhsillə bağlı onlayn təklif aldıqda DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin ”152” Qaynar Xəttinə müraciət edərək konfidensiallıq təmin edilməklə ödənişsiz məsləhət ala;

**2.** Getmək istədiyiniz ölkədə akkreditasiya olunmuş Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya Konsulluğu ilə əlaqə saxlayıb elanın həqiqiliyini dəqiqləşdirə;

**3.** İş və təhsil təklif edən şirkətin, eləcə də fiziki şəxsin xüsusi icazəsini, yəni lisenziyasını tələb edə;

**4.** Bağlanacaq əmək müqaviləsinin surətini istəyə bilərsiniz.

Ehtiyat tədbirləri bununla da bitmir.

Ölkə hüdudlarını tərk etdikdən sonra da diqqətli olmalı, şəxsiyyətinizi təsdiq edən sənədləri heç kimə etibar etməməlisiniz.

Əmək fəaliyyəti ilə məşğul olarkən əmək müqaviləsi bağlamalı, sizə qarşı edilən istənilən qanunazidd əməl barədə dərhal yerli polis orqanına, eləcə də həmin ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliyimizə və ya Konsulluğa müraciət etməlisiniz.

**İnsan alveri haqqında məlumatlı ol, qurbana çevrilmə!**

# ABŞ ilə strateji tərəfdaşlıq Azərbaycana nə vəd edir?

**”Bakıda ”Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanma mərasimi keçirildi. Xartiyanın imzalanması Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açır”.**

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, siyasi və strateji əməkdaşlıqla yanaşı, Azərbaycan-ABŞ münasibətləri enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, süni intellekt və rəqəmsal infrastrukturu ehtiva edən iqtisadi sərmayə istiqamətində də inkişaf etdiriləcək:

”2025-ci ilin ilk 11 ayında ABŞ ilə Azərbaycan arasındakı ticarət dövriyyəsi 1 milyard 365 milyon dollar olub. Həmin müddətdə Azərbaycan Birləşmiş Ştatlara 54 milyon 491 min dollarlıq qeyri neft-qaz məhsulları ixrac edib. Strateji əməkdaşlığın gücləndirilməsinin Azərbaycanın ABŞ ilə qeyri neft-ixrac dövriyyəsinin daha da artmasına gətirib çıxaracağı gözlənilir. 16 ölkəyə təbii qaz nəql edən Azərbaycan ABŞ-nin Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyinin güclənməsinə xüsusi töhfə verir. ABŞ ilə strateji əməkdaşlıq qeyri-neft sektoruna daha çox texnologiya və innovasiyaların cəlb edilməsinə imkan yaradacaq. Bu, Azərbaycanda iqtisadi diversifikasiya ilə bağlı hədəflərin reallaşmasına dəstək olacaq. Bu kontekstdə ABŞ-Azərbaycan strateji tərəfdaşlığı ABŞ texnologiyasının və sərmayəsinin ölkəmizə gəlməsi, ABŞ-ın iqtisadi fəallığı deməkdir”.

Deputat Ceyhun Məmmədov qeyd edib ki, Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri iki ölkə münasibətlərində yeni və mühüm mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir.

Onun sözlərinə görə, bu səfər təkcə diplomatik görüş deyil, həm də Azərbaycan-ABŞ strateji dialoqunun möhkəmlənməsi, qarşılıqlı etimadın artması və əməkdaşlığın dərinləşməsi baxımından əlamətdar hadisədir.

”Azərbaycan regionda sülhün, sabitliyin və əməkdaşlığın təşəbbüskarı kimi postmüharibə dövründə yeni reallıqların formalaşmasında mühüm rol oynayır. ABŞ tərəfinin bu səfəri həmin reallıqların tanınması və Cənubi Qafqazda sülhün bərqərar olmasına verilən siyasi dəstəyin göstəricisidir. Xüsusilə, ”Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanması iki ölkə arasında uzunmüddətli tərəfdaşlığın hüquqi-siyasi əsaslarını daha da gücləndirir. Bu sənəd qarşılıqlı maraqlara, suverenliyə, hörmətə və qlobal sabitliyə xidmət edən dəyərlər üzərində qurulub.

Bu gün münasibətlərimiz enerji, təhlükəsizlik, iqtisadiyyat, innovasiya və humanitar sahələrdə yeni bir dövrə qədəm qoyur. Azərbaycan həm regionun enerji təhlükəsizliyinin təminatçısı, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi öz mövqeyini daha da möhkəmləndirir. İnanıram ki, bu səfər və imzalanan sənədlər Azərbaycan-ABŞ əməkdaşlığını daha da dərinləşdirəcək, xalqlarımız arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan əlaqələrin yeni mərhələsinə yol açacaq”.

**Sübhan**

*Rüstəm Hacıyev*

# Başqasının gözündə tir axtaranlar



**KTMT-nin qərargah rəisləri təşkilatının rəisi Andrey Serdyukov bəyan edib ki, Qərb ölkələrinin hərəkətləri, Ukrayna müharibəsinin uzanmasına yönəlib.**

**”Regionda vəziyyətin qeyri-stabil qalması, Qərb dövlətlərinin Ukrayna müharibəsinin uzanmasına yönəlmiş siyasətini nəticəsidir”- deyə Serdyukov keçirdiyi brifinqdə bəyan edib.**

**Rusiyanın təbliğat maşını həmişə olduğu kimi, yenə də, günahı özlərində deyil, kənarda axtarmağa yönəlib. Yəni, bütün dünya, hətta imperiya ambisiyalarından qurtula bilməyən Rusiya Federasiyasının prezidenti Vladimir Putində bilir ki, bu savaşın bitməsi də, ən azından tərəflər arasında danışıqlara başlanması üçün atəşkəs elan olunmasıda birbaşa Kremlin-Vladimir Putinin qərarlarından asılıdır.**

**Kreml və Putin hesab edirlər ki, Avropa, koalisiya hərbi qüvvələrini Rusiya sərhədlərinin yaxınlığına toplamaqla, açıq şəkildə Rusiya ilə müharibə etməyə hazırlaşır. Avropa ölkələri isə əksinə, düşünürlər ki, ruslar Ukraynanı işğal etdikdən sonra, növbəti hədəf onlar ola bilərlər.**

**Rusiya tərəfinin fikirincə, Avropa ölkələri, Fransa və Böyük Britaniya başda olmaqla antirysiya kursu aparırlar.**

**Kreml düşünür ki, Avropa rəsmi etiraf etməsədə, Ukraynaya hərbi dəstək gpstərməklə faktiki olaraq Rusiya ilə müharibə vəziyyətindədir.**

**Daily Mail qəzeti diqqəti, Böyük Briraniyanın hərbi qüvvələrinin Koupxill-Daun poliqonunda keçirilən təlkmlərə yönəldir və bunu Rusiya ilə müharibəyə hazırlıq kimi qiymətləndirir.**

**Məlum məsələdir ki, Qərb və Rusiya arasında kimin kimə hücum etmək niyyətinin olması bəhanələrundə Ukrayna qurban seçilib.**

**Vladimir Putin hskimiyyətə gəldiyi gündən imperiyanı bərpa etməklə I Pyotr kimi Rusiya tarixinə düşmək niyyətlərini gizlətmir. İlk vaxtlar bunu müəyyən mənada dinc yolla- Avroasiya iqtisadi birliyi, kollektiv müdafiə təşkilatları və s. kimi, mənasız qurumlar yaratmaqla etməyə çalışsa da, sonradan bunun nəticəsiz qaldığını görüb, Ukraynanın timsalında güc tədbiq etmək yolunu tutdu. Bu isə, ABŞ başda olmaqla Qərb Rusiyanın imperiyanı bərpa etmək və bununlada hərbi gücünü artırmaq niyyətləri kimi qəbul etdi və bundsn ehtiyat edərək, təhlükəsizliklərini qorumaq bəhanəsi ilə fiziki olmasada, faktiki olaraq Rusiya ilə Ukraynada müharibəyə qoşuldu.**

**Hazlrda qarşıduran tərəflərin özlərini müharibənin dayandırılması təraftarı olmalarını bəyan etmələri inandırıcı görünmür. Çünki, istəsələr elə bu gün atəşgah elan edər, Rusiya işğal etdikləri ərazilərdən geri çəkilər, Qərb NATO qüvvələrinin Rusiya sərhədlərinə doğru irəliləməsini dayandırar və məsələ həllini tapar. Lakin təəssüf ki, bu o qədər də belə asanlıqla həll oluna biləcək məsələ deyil.**

**Maraqlı tərəflər hələ ki, bir-birilərinin gözündə tir axtarmaqla məşğuldular. Ortada isə kimsəni maraqlandırmayan suveren bir dövlətin məhv olmaq təhlükəsi var. Görünən odur ki, ”maraqlar” Ukraynanın varlığından daha üstündür...**

# *“Paşinyan referendumda dəyişiklik edib prezidentlik postunu önə çəkəcək”*

**Ermənistanda konstitusiya dəyişiklikləri gündəmdədir. Bu il ölkədə konstitusiya üzrə referendumun keçirilməsi gözlənilir.**

Bəs görəsən, Nikol Paşinyanın prezident postunu tutma ehtimalı varmı?

Mövzunu Adalet.az-a şərh edən politoloq Samir Hümbətov bildirdi ki, Ermənistanda bu referendumda təkcə Qarabağ məsələsi deyil, bir sıra dəyişikliklər edəcəklər:

”Böyük ehtimalla Nikol Paşinyan ikinci beş ilini tamam etməyə yaxınlaşdığı üçün ona görə də referendumda dəyişiklik edib prezidentlik postunu önə çəkəcək. Yəni artıq baş nazir idarəetməsindən prezident idarəetməsinə keçid edə bilər.

Ondan sonra o, cəmiyyətin onu dəstəklədiyinə tam əmin olandan sonra prezident postu uğrunda mübarizə apara bilər. Bu ehtimal daha çox görünür. Çünki Paşinyanın bütün addımları daha çox ona hesablanır. Düşünürəm ki, referendumda bu maddə əlavə edilərsə, buna heç də təəccüblənmək lazım deyil”.

**Vasif**



Səxavət Məmməd

## Xameneiyə qarşı «Maduro əməliyyatı»: Mümkündürmü?

*Son zamanlar həm Azərbaycanda, həm də regionda bir çox "ekspertlər" ABŞ-ın Venesuelada Maduroya qarşı keçirdiyi hərbi əməliyyatın bənzərini Tehranda Xameneiyə qarşı keçirə biləcəyi fikrini tirajlayırlar. Lakin hərbi strategiya arzulardan deyil, coğrafiya, logistika və texniki imkanlardan ibarətdir. Gəlin, bu "arzunun" niyə hərbi baxımdan "intihar missiyası" sayıldığını analiz edək.*

*Texniki Cəhətdən Mümkündürmü? (Yanacaq və Məsafə Problemi)*

*Karakas əməliyyatında əsas yükü ABŞ-ın məşhur 160-cı Xüsusi Əməliyyatlar Aviasiya Alayı (Night Stalkers) daşıyırdı. İstifadə olunan MH-47 Chinook və MH-60 Black Hawk helikopterlərinin uçuş mənzili orta hesabla 600-650 km-dir.*

*Fars körfəzindən Tehrana qədər olan məsafə isə 800-1000 km arasındadır. Bu o deməkdir ki, helikopterin daxili yanacağı bu yolu gedib-qayıtmağa imkan vermir. Bəli, MC-130J Commando II tanker təyyarələri ilə havada yanacaq doldurmaq mümkündür. Ancaq düşmən ərazisinin dərinliklərində, hər tərəfi radarlarla əhatə olunmuş bir məkanda nəhəng tanker təyyarəsini gizlətmək praktiki olaraq qeyri-mümkündür.*

*Coğrafi Maneə: Dağlar və HHM Sistemləri*

*Karakasın dəniz sahilində olması ABŞ-a aviadaşıyıcılardan sürətli hücum imkanı verirdi. Tehran isə təbii bir qala kimidir. Şəhər uca dağlarla əhatə olunub. İranın paytaxtı S-300 və yerli "Bavar-373" kimi güclü Hava Hücumundan Müdafiə (HHM) sistemləri ilə qorunur. Karakasda ABŞ elektron müharibə vasitələri ilə radarları kor edə bilsə də, Tehranın mürəkkəb müdafiə şəbəkəsini bu qədər uzun məsafədən tamamilə sıradan çıxarmaq "tarixi qumar" sayılar.*

*Tarixi Dərslər: "Qartal Pəncəsi" (1980)*

*1980-ci ildə Tehrandakı ABŞ səfirliyini xilas etmək üçün keçirilən "Qartal pəncəsi" (Eagle Claw) əməliyyatı hələ də yaddaşlardadır. O zaman da problem məhz yanacaq doldurmaqla bağlı idi. Səhrada yanacaq doldurarkən qalxan qum fırtınası nəticəsində helikopterin təyyarə ilə toqquşması 8 əsgərin ölümü və əməliyyatın iflası ilə nəticələndi. Bu hadisə sübut etdi ki, texnologiya nə qədər mükəmməl olsa da, təbiət hadisələri və koordinasiya xətaları hər şeyi məhv edə bilər.*

*Ən böyük risk: İnsan amili və "Black Hawk Down"*

*Hərbi doktrinalar dəyişsə də, insan amili dəyişməz qalır. 1993-cü ildə Moqadişuda yaşanan "Qara Şahin qəzası" buna ən yaxşı nümunədir.*

*Somali döyüşçüləri Black Hawk helikopterlərinin ən zəif nöqtəsini - quyruq pərlərini RPG ilə vurmağı öyrənmişdilər. Nəticədə modern texnologiya bir pulemyot və ya RPG qarşısında aciz qaldı, 1 saatlıq əməliyyat günlərlə çəkən qanlı şəhər döyüşünə çevrildi.*

*Nəticə: Realizm yoxsa populizm?*

*Bəli, ABŞ helikopterləri bu gün "ağac boyu" (3-5 metr hündürlükdə) uça bilir, səssiz motorlara və mükəmməl gecəgörmə cihazlarına malikdir. Lakin 1000 km-lik məsafəni bir neçə helikopterlə, heç bir itki vermədən və görünmədən qət edib, Tehranın mərkəzindən hədəfi götürüb qayıtmaq ssenarisi reallıqdan daha çox Hollivud filminə bənzəyir.*

*Hərbi əməliyyatlar arzular üzərində deyil, hesablamalar üzərində qurulur. Bugünkü hesablamalar göstərir ki, Tehran Karakas deyil.*

## "Dövlətimizi elə qoruyurlar ki, sizin fitnə metodlarınızın heç bir əhəmiyyəti yoxdur..."

**"Qanlı və ölümcül münaqişələrə son. Azərbaycan Prezidenti İlham Əliyevin, "Zayed İnsan Qardaşlığı" Mükafatı təqdim olunarkən etdiyi çıxışda, "ölümcül münaqişə" ifadəsi tarixin bütün qanlı, vəhşi və acımasız münaqişələrinə aiddir. Çünki insan dəyərlərinə hörmət və insan haqlarına sayğı, bütün siyasi etikaya malik liderlərin ilk növbədə əməl etməli olduğu vəzifədir".**

Adalet.az xəbər verir ki, bunu "Yeni Xətt" siyasi tədqiqatlar mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, İlham Əliyevin böyük siyasi etikası və müasir dünya düşüncələrinin incə mexanizmlərini mükəmməl izləməsi və onun böyük intellekt sahibi olması bu münaqişəyə ədalətli şəkildə son qoyaraq dünyanın ədalət fəlsəfəsinə yenilik gətirdi:

"Çünki əvvəlki dövrlərdə münaqişə bir neçə beynəlxalq təşkilatın fəaliyyət proqramında olsa da, nəticə əldə olunmamışdı. Lakin ədaləti Azərbaycan xalqı, ordusu və diplomatiyası bərpa etdi.



İnsanlarımızın yüz illərlə tapdanmış, işğal olunmuş hüquqlarını azad etdik. Bu, bizim ən şərəfli tariximizdir və bu tarixi yazanlarla fəxr edirik. Siyasi etikanın əsasını dövlətin mövcudluğu və suverenliyi təşkil edir. Dövlətçilik bizim qırmızı xəttimizdir. Biz siyasətçinin, diplomatın, liderin, sərkərdənin dövlətə, soykökə, millətin milli kimliyinə və siyasi şəxsiyyətinə ehtiramını qazandığımız uğurlarla gördük. Bu baxımdan bizim üçün İlham Əliyev dünyanın bütün mükafatlarına layiq oldu".

R.Hüseynov deyib ki, ancaq əsas məsələ onun xalqın qəlbində qazandığı mükafatdır: "O mükafat, xalqımızın öz torpağına münasibətindən, dövlətinə bağlılığından və vətəninə sevgisindən yaranan Azadlıq mükafatıdır. İlham Əliyev məhz bu mükafatı qazandı.Bütün bu sadalananlar, ölkə başçısının atdığı qürurlu addımlar nəticəsində beynəlxalq tribunalarda böyük sayğı ilə qarşılanmasının yaratdığı baxış bucaqlarıdır. Dövlət bizim, vətən bizim, qürur bizim, liderimiz bizimdir.Uğurların bol olsun, Azərbaycan! Müstəqil Azərbaycan dövlətinin siyasi etikası dünya ölkələrinin bir çox dövlət başçıları üçün nümunə oldu və biz bunun şahidi olmuşuq. Bu gün bəzi gəvəziyənlər, xəyanət edənlər və dövləti satanlar əslində özlərini satıblar. Dövlətimizi elə qoruyurlar ki, sizin fitnə metodlarınızın heç bir əhəmiyyəti yoxdur".

**Vasif ƏLİHÜSEYN**

## "Ermənistanın sağlam qüvvələri anlayırlar ki, onların tarixi fəlakəti..."

**"Bakıda erməni separatçılarıyla bağlı aparılan və uzun sürən məhkəmənin yekunlaşması və qərarların elan olunması, yəni Azərbaycana qarşı cinayətdə fəal iştirak edən dörd nəfərin ömürlük həbs cəzasına, yerdə qalanlarının isə 20 il azadlıqdan məhrum edilməsi cəzası əlbəttə ki, Azərbaycanda hər kəsin ürəyindən xəbər verir. Yəni bu birinci növbədə ədalətin qələbəsidir. Əlbəttə, şəxsən mən arzulayardım ki, belə hallarda nə qədər qeyri-insani yanaşma olsa da onlar daha ağır cəzaya məhkum edilsin, ölüm hökmü kəsilsin. Çünki bunlar yüzlərlə, minlərlə azərbaycanlının ölümünə bais olublar, bunların əli yüzlərlə soydaşımızın qanına bulaşıb".**



Bunu Adalet.az-a açıqlamasında siyasi şərhçi Qulu Məhərrəmli deyib.

O, bildirib ki, bunların ən ağır cəzaya, güllələnməyə məhkum olunması belə çox ədalətli olardı:

"Amma indi dünya reallıqları şəraitində verilən qərar da hər kəs üçün qəbul olunandır. Azərbaycanın Qarabağ məsələsini bu şəkildə çox ağıllı, ehtiyatlı, düşünülmüş, addım-addım, həm diplomatiyanın gücündən, həm hərbi gücdən istifadə etməsi bir nümunədir. Düzdü, indi Ermənistanda da Rusiyanın əlaltıları Qarabağ bayatısı oxuyurlar, "Artsax" haqqında danışırlar və hesab edirəm ki, bunlar hamısı cəfəngiyyatdır. Artıq Baş nazir Nikol Paşinyan başda olmaqla Ermənistanın sağlam qüvvələri anlayırlar ki, ermənilərin tarixi fəlakəti Rusiyanın əlində vasitə olmasıdır. Ermənistan Türkiyə və Azərbaycana qarşı qoyulmasıdır. Bölgədə qarışıqlıq yaratmaq üçün ermənilərdən istifadə olunmasıdır. Yəni bunu başa düşəndən sonra artıq erməni rəhbərliyi də düzgün nəticələr çıxarır".

Q.Məhərrəmli deyib ki, bu gün Paşinyanın yürütdüyü siyasət ermənilərin xilas olunmasına, onların üzərindəki tarixi ləkəni götürməyə yönəlib: "Bax ona görə bu məhkəmə də Köçəryanlar, Sarkisyanlar üçün bir tarixin dərsidir. Əlbəttə, məhkəməyə cəlb olunmalı adamlar yenə də var.

Xocalı faciəsi, Başlıbel və digər yerlərimizdə soyqırım törədənlərin hamısı əlbəttə ki, ağır cəzaya məhkum olmalıdırlar. İndi real imkan bundan ibarət oldu və bu da əslində bütün o cinayətkarlar üçün dərs olacaq bir məhkəmədir və nə yaxşı ki, Azərbaycan prosesi bu şəkildə sona yetirə bildi. Əlbəttə ki, biz bilirik məhbuslar ətrafında siyasi oyunlar da, siyasi alver söhbətləri də olacaq. Yəni bunların hamısından da hesab edirəm ki, Azərbaycan çox uduşlu bir vəziyyətdə çıxa biləcək".

**Vasif**

## "Yas məclisi təsəlli, səbr, dua və sosiallaşma, həmdərd olmaq üçündür..."



**"Artıq israfçılıqla müşayiət olunan dəbdəbəli yas mərasimlərinin qarşısının alınması üçün din xadimlərinin də çağırışlarına rast gəlirik. Bu müsbət haldır. Daha çox camaat içində olduqları üçün onların da bu məsələ ilə əlaqədar təbliğatına ehtiyac var". Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.**

O, bildirib ki, sağlam düşüncəli, millətini, xalqını, dövlətini sevən din xadimlərimiz var:

"Yas məclislərində bahalı menyuların təqdim olunması, ciddi israfa yol verilməsi, yas sahibinin borca düşməsi kimi hallar eyni zamanda maddi - sosial vəziyyəti ağırlaşdırır. Mənəvi dəyərlərimiz yönündən də doğru sayılmır. Yas məclisi təsəlli, səbr, dua və sosiallaşma, həmdərd olmaq üçündür. Qarın doldurmaq yeri deyil. Əksinə yas sahbinə yemək, ərzaq aparmaq, bir işin qulpundan tutmaq yeridir. Ümid edirəm ki, din xadimlərinin də bu yöndə maarifləndirmə və çağırışları faydalı olacaqdır. Bu sahədə sağlam təbliğat aparan din xadimlərinə şəxsən təşəkkür edirəm".

**Eldar**

## «Tokio Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanskiyalara qoşulub...»

**"Yaponiyada parlament seçkilərində baş nazir Sanae Takaiçinin rəhbərlik etdiyi hakim blok qələbə əldə edib. Hakim Liberal Demokrat Partiyası (LDP) parlamentdə 224 mandat, koalisiya tərəfdaşı olan "Yaponiyanın Yenilənməsi Cəmiyyəti" Partiyası isə 23 mandat qazanıb. Takaiçi seçki nəticələri açıqlandıqdan sonra seçki kampaniyası zamanı verdiyi vədlərin yerinə yetiriləcəyini bildirib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, bu ilk növbədə Yaponiya iqtisadiyyatının üzləşdiyi problemlərin həlliylə bağlıdır:

"Sanae Takaiçini ilk təbrik edən müttəfiqi ABŞ Prezidenti Donald Tramp olub. Ağ Ev sahibi sosial media hesabında paylaşım edərək Sanae Takaiçi və onun koalisiyasını çox vacib seçkilərdə böyük qələbə münasibətilə təbrik edib. Tramp qələbə qazanan Liberal Demokrat Partiyasının İkinci Dünya Müharibəsindən bəri ilk dəfə tarixi üçdə iki səs çoxluğuna malik olduğunu xatırladıb".

O, bildirib ki, Sanae Takaiçi növbəti mərhələdə Yaponiyanın təhlükəsizlik sahəsində üzləşdiyi problemlərin həlli ilə məşğul olacaq:

"Bunlardan ən başlıçası bölgədə hərbi gücünü artıran Çinlə münasibətlərdir. Çinin patrul gəmiləri tez-tez Şərqi-Çin dənizində yerləşən mübahisəli Senkaku adaları zonasına yaxınlaşırlar. Həmin adalar Yaponiyaya məxsus olsa da, Çinin də həmin ərazilərə iddiası var. Bundan başqa Çinlə Rusiyanın bölgədə keçirdiyi birgə hərbi təlimlər Tokionu ciddi narahat edir. Sanae Takaiçinin bir müddət əvvəl Tayvan barədə açıqlaması Pekində narahatlıq doğurmuşdu. Takaiçi Çinin Tayvana hücum edəcəyi təqdirdə Yaponiyanın müdaxilə edəcəyini bildirmişdi. Bu açıqlamadan sonra Çin Yaponiyadan dəniz məhsullarının idxalını, vətəndaşlarının Yaponiyaya turist səfərlərini, o cümlədən Yaponiyaya vacib mineralların ixracını məhdudlaşdırmışdı".

E.Şahinoğlu deyib ki, Yaponiyanın Rusiya ilə münasibətlərində də gərginlik var:

"Tokio Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanskiyalara qoşulub. Bundan başqa Yaponiya ilə Rusiya arasında sülh sazişinin bu vaxta qədər imzalanmaması ikitərəfli münasibətlərdə əlavə gərginlik mənbəyidir. Buna baxmayaraq, Sanae Takaiçi Rusiya ilə münasibətləri mürəkkəb qiymətləndirsə də, Tokionun Moskva ilə sülh müqaviləsi imzalamağa ümidini itirmədiyini vurğulayıb. Halbuki, Moskva Yaponiyanın iddia etdiyi Kuril adalarını güzəştə getmək fikrində deyil. Adalar Yaponiyaya qaytarılmadan isə iki ölkə arasında sülh sazişinin imzalanması problematikdir.Bu arada, Yaponiyanın Mərkəzi Asiyaya marağı artıb. ABŞ və Avropa İttifaqı Mərkəzi Asiya ölkələri ilə 5+1 formatında zirvə görüşləri keçirdikdən sonra oxşar sammit Tokioda keçirildi. Yaponiya hökuməti Mərkəzi Asiyanın resursları uğrunda mübarizəyə qoşulub. Tokio bu məqsədlə Mərkəzi Asiyada müxtəlif layihələrə yatırımlar qoyacaq. Tokionun Mərkəzi Asiyaya marağı Cənubi Qafqaz bölgəsinə də marağının artmasına şərait yaradır. Cənubi Qafqazda sülh və sablitliyin formalaşması, nəqliyyat xətlərinin Mərkəzi Asiyaya uzanması da buna dəlalət edir".

**Sübhan**

## *Pensiya artımları kimlərə şamil olunacaq?*



**"Prezident İlham Əliyev bu gün "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Sənədlə 2026-cı il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən, 2025-cü il üzrə orta aylıq əməkhaqqının illik artımına uyğun olaraq 9,3 faiz indeksləşdirilməklə bu ilin 1 yanvar tarixindən artırılır".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, Əmək pensiyalarının indeksləşdirilməsi "Əmək Pensiyaları" haqqına Qanuna əsasən həyata keçirilir. Sözügedən qanuna əsasən, bütün növ əmək pensiyaları əvvəlki ildə ölkə üzrə orta aylıq maaşdakı artım faizinə indeksasiya olunaraq artırılır:

"İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa onun pensiya məbləğinə artım hesablanacaq. Qanunvericiliyə əsasən, indeksləşdirmə əvvəlki ilin göstəricisinə uyğunlaşdırıldığına görə 2025-ci ilin dekabrın 31-i daxil olmaqla ötən il pensiya hüququ qazanan bütün vətəndaşların pensiyaları artırılacaq. Artımlar 1 milyon 100 min vətəndaşımıza şamil olunacaq".

## *"Məsud Pezeşkian Azərbaycanla həm siyasi, həm də hərbi əməkdaşlıqda maraqlıdır"*

**"İranın müdafiə naziri Azərbaycana səfər edib və Prezident İlham Əliyev tərəfindən qəbul olunub. Bu səfər İran böhranı fonunda mühüm əhəmiyyət kəsb edir. Qeyd edim ki, İranın müdafiə naziri islahatçı qanada mənsub olan prezident Məsud Pezeşkianla koordinasiyalı şəkildə fəaliyyət göstərir. İranda güc strukturları daxilində əsas söz sahibi isə SEPAH - İslam İnqilabı Keşikçiləri Qvardiyasıdır. SEPAH birbaşa Ali dini rəhbər Əli Xameneiyə tabedir və ölkənin təhlükəsizlik və regional siyasətində həlledici rol oynayır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Prezident Məsud Pezeşkian Azərbaycanla həm siyasi, həm də hərbi əməkdaşlıqda maraqlıdır:

"Səfər çərçivəsində İran Silahlı Qüvvələri ilə Azərbaycan Silahlı Qüvvələri arasında mümkün birgə əməkdaşlıq məsələləri müzakirə edilib. Bu, rəsmi Tehran daxilində Azərbaycanla əlaqələrin inkişafına yönəlik müəyyən siyasi iradənin mövcud olduğunu göstərir.

Prezident İlham Əliyev İranla bağlı mövqeyini ifadə edərək, siyasi müstəvidə mövcud böhranın aradan qaldırılması üçün vasitəçilik yerinə yetirməyə hazır olduğunu bildirib. Bu yanaşma Azərbaycanın İran siyasətində praqmatik xəttə sadiq qaldığını və hərbi eskalasiyanın əleyhinə olduğunu nümayiş etdirir.

Lakin İran müdafiə nazirinin səfərinin müsbət istiqamətdə inkişaf etməsinin qarşısını SEPAH-ın alması mümkündür. SEPAH-a nəzarət edən media resursları və ona yaxın yüksək rütbəli hərbi şəxslər mütəmadi olaraq anti-Azərbaycan mövqeyi sərgiləyir ki, bu da ikitərəfli münasibətlərin dərinləşməsi üçün ciddi maneə yaradır".

## *"Qərb ölkələrində sən demə qadınları istismar edib uşaq əti yeyirmişlər..."*

**"Epşteyn hadisəsi Qərbin əxlaqi, mənəvi, insani dəyərlərdən hələ çox uzaq olduğunu və canavar xislətini ifşa etdi. Bu günə qədər "Avropa dəyərləri", "Qərb mədəniyyəti", "insan hüquqları", "demokratiya", "qadın azadlığı" şüarları ilə Şərqə müəllimlik iddiasında olan Qərb əslində sözdə və üzdə bu adları qalxan edib, əslində isə işğal, istismar, təcavüz, vəhşilik və qaniçənliklə məşğul olub".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

"Qalstuklu, kostyumlu, yeməyi çəngəl - bıçaqla yeyən, ictimai yerlərdə mədəni davranan adamlar sən demə arxaya keçəndə canavara, quduz itə, şeytana çevrilirmiş. Uşaqların, qadınların guya hüquqların müdafiə etmək üçün Şərq ölkələrinə qarşı təziq edən, müxtəlif adlarda təşkilatlar yaradan ABŞ və digər Qərb ölkələrində sən demə qadınları istismar edib uşaq əti yeyirmişlər", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

**İradə Rizazadə,**
**Binəqədi Rayon İcra Hakimiyyəti yanında**
**İctimai Şuranın sədri, Tərəqqi medalı təltifçisi**



# "Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir"

**10 fevral 2026-cı il tarixində ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vens Azərbaycana səfər etdi.Bildiyiniz kimi, ABŞ-nin prezidenti Donald Tramp administrasiyasının əsas fiqurlarından biri olan Vensinregiona səfəri 2025-ci ilin avqustunda Vaşinqtondaəldə olunmuş sülh prinsiplərinin artıq konkret iqtisadiləyihələr və siyasi zəmanətlərlə möhkəmləndirilməsiməqsədi daşıyır.**

Vensin səfəri Cənubi Qafqaza səfəri, Vaşinqtonun region ölkələri ilə əməkdaşlığın genişləndirilməsinə, eləcə də sülh və sabitliyin möhkəmləndirilməsinə dair ortaq öhdəliyinin növbəti təsdiqidir.

Bu prosesdə ABŞ-nin Azərbaycanı təkcə enerji tərəfdaşı deyil, regionun əsas güc mərkəzi və strateji sabitlik qütbü kimi qəbul etməsi iki ölkə arasındakı etimadın ən yüksək səviyyəyə çatdığını göstərir.

Səfəri zamanı iki ölkə arasında münasibətlərdə vacib geopolitik mərhələnin başlanğıcını qoyan qərarlar imzalanıb. Təbii ki, səfərin əsas gündəm mövzularından biri regional sülh və təhlükəsizlik məsələləri olmuşdur. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində son dövrlərdə atılan addımlar fonunda ABŞ-ın bu prosesə siyasi dəstək vermək niyyəti aydın görünür. Vaşinqtonun sülh gündəminə yüksək səviyyədə qoşulması tərəflər arasında etimadın möhkəmlənməsinə və əldə olunmuş razılaşmaların davamlılığının təmin edilməsinə töhfə verə bilər. Bu, həm də ABŞ-nin regionda vasitəçi yox, təşviqedici faktor rolunu önə çıxarmaq istədiyini göstərir.

Səfər proqramının əsas gündəm mövzularından biri də TRİPP marşrutunun tam işlək vəziyyətə gətirilməsi üzrə növbəti addımların müzakirəsi oldu. ABŞ administrasiyasının regionda ticarət və kommunikasiya dəhlizlərinin açılmasını dəstəkləməsi Azərbaycanın strateji nəqliyyat qovşağı kimi rolunu daha da gücləndirə bilər. Bu kontekstdə TRIPP təşəbbüsü xüsusi əhəmiyyət daşıyır. Layihə region ölkələri arasında nəqliyyat, logistika və ticarət əlaqələrinin genişləndirilməsini, eyni zamanda iqtisadi inteqrasiya vasitəsilə dayanıqlı sülhün təşviqini hədəfləyir. Xüsusilə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları çərçivəsində Azərbaycanın iştirak etdiyi layihələr TRIPP təşəbbüsünün praktik icrası baxımından mühüm potensiala malikdir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkə kimi ABŞ tərəfindən də strateji tərəfdaş qismində qiymətləndirilir. Bu kontekstdə enerji layihələrinin davamlılığı, yaşıl enerji sahəsində əməkdaşlıq və regional enerji sabitliyi məsələlərinin müzakirəsi ikitərəfli münasibətlərin daha da dərinləşməsinə xidmət edə bilər.

Bununla yanaşı, səfər çərçivəsində süni intellekt və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlıq perspektivlərinin də müzakirəsi gözləniləndir. Bu, texnologiya sahəsində birgə layihələr, informasiya təhlükəsizliyi və innovasiya mübadiləsinin gücləndirilməsi istiqamətində əlavə əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasına şərait yarada bilər, beləliklə iqtisadi əlaqələrin yalnız ənənəvi sahələrdən çıxaraq rəqəmsal iqtisadiyyat üzrə də genişlənməsinə imkan yaradır.

Eyni zamanda Vensin səfəri ABŞ-Azərbaycan münasibətlərinin strateji dialoq səviyyəsinə keçidi baxımından əhəmiyyətlidir. Təhlükəsizlik, siyasi məsləhətləşmələr və beynəlxalq platformalarda koordinasiya məsələləri bu dialoqun əsas sütunlarını təşkil edə bilər. ABŞ-ın Azərbaycanla münasibətlərdə praqmatik və qarşılıqlı maraqlara əsaslanan yanaşma sərgiləməsi regional güclər arasında balansın qorunmasına da müsbət təsir göstərə bilər.

Bütün bu amilləri nəzərə alsaq, ABŞ-Azərbaycan-Cənubi Qafqaz münasibətlərində faktiki olaraq tamamilə yeni bir mərhələnin başlandığını demək olar. Bu yeni mərhələ ideoloji, siyasi və iqtisadi aspektlərdən təhlil edildikdə, Cey Di Vensin səfərinin nə qədər mühüm və strateji xarakter daşıdığı aydın görünür. Məhz buna görə də bu səfəriin Cənubi Qafqazda sabitliyin möhkəmlənməsinə real töhfələr yaradacaq.

**Bir sözlə, vitse-prezidentin 30 il münaqişə şəraitində olmuş, 2020-ci ilin sentyabrında başlayan və 44 gün sonra Azərbaycanın qələbəsi ilə başa çatan II Qarabağ müharibəsindən sonra sülhə doğru addımlayan Ermənistan və Azərbaycana səfəri mühüm siyasi hadisə kimi qiymətləndirilməlidir.**

# Zeynəb Əyyubova: "Məktəblərdə psixoloji xidmətlər formal xarakter daşıyır..."

**"Son vaxtlar məktəblərdə və yeniyetmələr arasında baş verən zorakılıq halları təsadüfi deyil. Müəllimin güllələnməsi, şagirdlərin birləşərək sinif yoldaşını döyməsi və ya azyaşlının bıçaqlanması - bunlar ayrı-ayrı hadisələr yox, eyni problemin fərqli formalarıdır. Bu hadisələr bizə göstərir ki, uşaqların və yeniyetmələrin emosional vəziyyəti uzun müddətdir nəzarətsiz qalıb".**



Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Əyyubova deyib.

Psixoloq bildirib ki, cəmiyyətdə hələ də belə bir yanaşma var ki, uşaq sakit olmalıdır, sözə baxmalıdır, hisslərini ifadə etməməlidir:

"Amma emosiyalar ifadə olunmayanda yox olmur, yığılır. Vaxtında dinlənilməyən, başa düşülməyən uşaq bir müddət sonra qəzəbini aqressiya ilə göstərir. Şiddət burada səbəb deyil, nəticədir. Məktəblərdə psixoloji xidmətlər formal xarakter daşıyır. Psixoloq yalnız problem böyüyəndə xatırlanır. Halbuki aqressiv davranış ilk dəfə ortaya çıxanda bu artıq bir siqnaldır və müdaxilə olunmalıdır. Biz çox vaxt "uşaqdır, keçər" deyirik, amma keçmir, dərinləşir".

Z.Əyyubovanın sözlərinə görə, digər tərəfdən ailə-məktəb-uşaq arasında ciddi boşluq var: "Valideyn məsuliyyəti məktəbin üzərinə atır, məktəb ailədən çəkinir, nəticədə uşaq tək qalır. Evdə zorakılıq görən, küçədə aqressiya müşahidə edən, sosial mediada şiddəti normallaşmış şəkildə izləyən uşaq bunu problem həlli yolu kimi qəbul edir. Bu cür ağır hadisələrdə yalnız günahkar axtarmaq problemi həll etmir. Burada sistemli yanaşmaya ehtiyac var. Məktəblərdə emosional savadlılıq artırılmalı, uşaqlara hisslərini tanımaq və ifadə etmək öyrədilməlidir. Aqressiv uşaq "pis uşaq" kimi yox, köməyə ehtiyacı olan uşaq kimi görülməlidir. Əgər biz bu gün bu siqnalları ciddiyə almasaq, sabah daha ağır nəticələrlə qarşılaşacağıq. Problemi ört-basdır etmək yox, vaxtında görmək və müdaxilə etmək əsas məsələdir".

**Sübhan**

# *"Əgər bir xalqı məhv etməyə çalışan qüvvələr varsa..."*

**"Kütlələrə, xalqa təsir edən sistem özəl ola bilməz. Bu, dünyanın hansısa mərkəzlərindən idarə olunan qüvvələrdir. Ona görə də bunlar dövlət nəzninə keçirilməlidir. Dövlət nəzarəti, senzura olmalıdır və başqa çıxış yolu yoxdur, ola da bilməz. Bu çox təhlükəli, ciddi prosesdir və biz bunun hara getdiyini görürük. Dəyərlərimiz, mənəviyyatımız, ailə sistemimiz gözümünüz qabağında məhv olur".**

Bunu Adalet.az-a açıqlamasında Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı deyib.

O, bildirib ki, bunların hamısı təhlükədir: "Artıq 20 ildir deyirik, izah edirik, amma təəssüf ki, heç bir reaksiya yoxdur. Bununla bağlı nə deputatlarımız, nə də ziyalılarımız narahat olur. Ümumiyyətlə, Azərbaycanda ziyalı yoxdur, mən görməmişəm. Ziyalı Azərbaycan xalqının milli-mənəvi dəyərlərini müdafiə edən, onun üçün xalqı ayıltmağa çalışan insanlardır.

Yəni bir xalqın ki, bu məsələlərinə səsini çıxarmır, izah etmir, əksinə zərər verəcək çıxışlar edirlərsə, onları ziyalı adlandırmaq olmaz. Bu baxımdan dediyim kimi vəziyyət çox təhlükəlidir. Əgər bir xalqı məhv etməyə çalışan qüvvələr varsa, dövlətin borcu o xalqı müdafiə etməkdir.

Ümumiyyətlə, dövlətin tək bir vəzifəsi var, həmin ərazidə yaşayan xalqın fiziki və mənəvi sağlamlığını qorumaq. Vəssalam!

Dövlətin vəzifəsi bundan ibarətdir. Bizi həm fiziki, həm də mənəvi cəhətdən məhv etməyə çalışan qüvvələr varsa, dövlət ən sərt tədbirlərə əl atmalıdır".

**Ömər**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# ...DÖRD NƏFƏR ÖLÜR...

**Sükan arxasında əyləşmək, avtomobil idarə eləmək hamının arzusudur. Amma arzu, istək hələ hər şey demək deyil. Ən azından ona görə ki, sükan arxasında oturursansa, yol hərəkəti qaydalarını mükəmməl bilməlisən. Yəni sükan arxasında özünü rahat hiss eləməli, səbrli olmalı, digər nəqliyyat vasitələri üçün qəza şəraiti, təhlükə yaratmamalısan! Amma biz çox vaxt bunun əksini görürük. Görürük ki, bəzi sürücülər sükan arxasında olarkən məsuliyyətsizlik edir, dönərkən sağ və sol arxa işıqları yandırmır, bir çoxları yandıranada işıqları söndürmür.**

**Belə olanda da arxadan avtomobilin sürücüsü karxır və qəza şəraiti yaradır. Əksər sürücülər qadınların maşın sürərkən yol hərəkət qaydalarını pozduqlarından gileylənir. Bu fikirlərdə də müəyyən mənada həqiqət var. Belə ki, bir neçə yol-nəqliyyat hadisələri xanım sürücülərin qaydaları pozması nəticəsində baş verib. Onlar bir çox hallarda yolda tez-tez manevr edir, dönərkən arxa işıqları yandırmır, ara məsafəsi saxlamır, hava şəraitinə uyğun sürət həddi seçmirlər. Təbii ki, bu da qəzaların baş verməsinə münbit şərait yaradır. Amma o demək deyil ki, kişi sürücülərin hamısı yol hərəkəti qaydalarına riayət edir! Heç mən qadın sürücülərin "avtoş" luq elədiyini görməmişəm...**

**Və ən çox gənclərin və orta yaşlı kişilərin avtoxuliqanlıq elədiyini şahidi olmuşam! Şahidi olmuşam ki, keçirilən reyd zamanı yol polisinin dəfələrlə etdiyi "dayan" xəbərdarlığına baxmayaraq, həmin sürücülər hərəkəti davam etdirib, maşını ikitəkəri üstə sürüb, ziqzaq hərəkətlər edib və axırda da çətinliklə də olsa, yol polisi müxtəlif formalardan istifadə edərək onlar saxlayıb.**

**Təbii ki, belə sürücülər avtoxuliqanlıq eləməklə, cəmiyyətə hörmətsizlik göstərməklə yol hərəkəti qaydalarını kobud surətdə pozur, qəza şəraiti yaradır və hərəkət iştirakçılarına qorxulu anlar yaradırlar! Aydındır ki, avtoxuliqanlıq edənlər inzibati məsuliyyət daşıyırlar. Və onlar haqqında inzabatı həbs tədbirləri seçilir! Nə isə... Sükan arxasında əyləşirsənsə, hər şeyi dərindən düşünməlisən. Həkimin səhvindən bir nəfər ölə bilər, hakimin səhvindən bir insan ağır cəza alar, amma sürücünün səhvindən 4-5 nəfər ölər. Ona görə də hörmətli sürücülər, bu səhvləri eləməyin!!!**

## Avtomobil idarəetmədən çıxaraq aşır...

**Belə hallarla son çox tez-tez rastlaşırıq. Bəs görəsən, avtomobillərin idarəetmədən çıxmasına əsas səbəb nədir? Təbii ki, bunun bir çox səbəbləri var! Və həmişə də nədənsə, elə bu səbəblər üzündən avtomobillərin idarəetmədən çıxması nəticəsində ağır qəzalar baş verir, ölüm və ağır xəsarət alma halları olur.**

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı polis baş leytenantı Elvin Hacıyev deyir ki, nəqliyyat vasitələrinin idarəetmədən çıxmasının bir neçə



səbəbləri var.Bu səbəblər bunlardır; sürücünün sükan arxasında yuxulaması, nəqliyyat vasitələrinin texniki nasazlığı, yüksək sürət, sərt döngələrdə sürət həddinə əməl edilməməsi. Aydındır ki, belə vəziyyətlərdə qəzalar qaçılmaz olur.

Çünki idarəetmədən çıxan avtomobil ya dərəyə yuvarlanır, ya su kanalına düşür, ya da ağaca çırpırır! Belə qəzalarda heç şübhəsiz ki, ölüm və ağır xəsarət alma halları olur. Ona görə də, bir daha sürücülərə tövsiyə edirik ki, sükan arxasında diqqətli olsunlar, yol hərəkəti qaydalarına əməl etsinlər və avtomobillərin texniki sazlığına diqqət yetirsinlər! Xüsusilə də, qarlı, buz bağlamış yollarda mövcud qaydalara əməl etmək vacib şərtlərdəndir. Bir sözlə, əgər təhlükəsiz mənzil başına çatmaq istəyirsinizsə, tövsiyələrimizə əməl edin!!!

**Emil FAİQOĞLU**

## Kənd yumurtası niyə bahalaşıb?



**Bir qayda olaraq qış aylarında kənd yumurtası bahalaşır. Bunun da bir çox səbəbləri var! Və səbəblərə görə də, bir qayda olaraq qış aylarında kənd yumurtasının qiyməti qalxır!**

Amma insanlar buna baxmayaraq, kənd yumurtasına böyük maraq göstərir. Ən azından ona görə ki, broyler toyuqlarının yumurtası ilə müqayisədə kənd yumartası daha dadlıdır.Yumurtanın qışda baha olmasına səbəb kənd toyuqlarının az yumurtamasıdır. Havaların soyuq keçməsi və yem ehtiyatlarının azalması təbii ki, qiymətin bahalaşmasına səbəb olur.İndi demək olar ki, bazarlarda , marketlərdə kənd yumurtası 40- 50 qəpik arasında satılır.

Ancaq bu yumurtanın bir ədədinin kənddə 30 qəpiyə də almaq olar.Qiymətin baha olmasına baxmayaraq, yenə çox adam kənd yumurtası almaq istəyir. Çünki kənd yumurtası broyler toyuqlarının yumurtasından daha dadlıdır. ?stəlik də bu yumurtalar müxtəlif vitaminlərlə zəngindir. Bax elə buna görə də, camaat bu yumurtaları daha çox xoşlayır!!!

## Əvvəllər onu çox adam yemirdi



**Deyilənə görə boranı qədər insana xeyir verən məhsul o qədər də çox deyil. Amma 30- 40 il bundan əvvəl boranılar bazarlarda qalırdı, daha doğrusu, satılmırdı. Mən bir rəhmətlik qohumum var idi.**

Bostanında həmişə çoxlu boranı yetişdirirdı.Ancaq özündən başqa ailədə heç kim boranı yemirdi.Ona görə də, boranının böyük hissəsi bostanda qalırdı. Qonum- qonşular da boranıya yaxın durmurdu.Qohumum deyirdi ki, bircə Hidayət həkim boranını çox sevirdi, onun qutabından tutmuş, aşına, qızarmasına qədər yeyərdi. Və bildirirdi ki, heç bir dava- dərman onun yerini verə bilməz.Çünki boranı mədənin və bağırsağın əsl dərmanıdır.

Onu yeyən adam soyuqdəyməsi olsa, tez sağalar. Bax o vaxtdan 50 il keçir.İndisə çox adam boranı yeyir.Əvvəllər bir kilosu 20 qəpiyə olan boranını bu gün 1 manata satırlar. An azından ona görə ki, boranı çox xəstəliklərin dərmanıdır. Həkim- qastroloq Afət Əliyeva deyir ki,boranı mədəaltı vəzin dərmanıdır. Ondan mövsüm vaxtı gen- bol istifadə edilməlidir. Bir sözlə, bu məhsul əsl sağlamlıq mənbəyidir!!!

## Bu manısların əlindən



**Bu gün ölkəmizdə hansı özəl televiziya kanallarını açırsan orada manısları görmək olar. Elə bil ki, bu ölkəmin heç bir problemimi yoxdur. Elə bircə bir dərdimiz var, o da manıslardan ibarətdir.**

Səhər manıslar, günorta manıslar,axşam yenə manıslar! Tay televiziyaya baxmağa peşmansan. Kənddə - kəsəkdə toy müğənnisi qalmadı.Pulunu alıb,saatlarla onlara efir vaxtıverirlər. Onlar da ağıllarına gəlini yox, ağızlarına gələni oxuyurlar. Nə mahnılar yönnüdü, nə sözləri,nə də ifaları! Amma neynirsən,onlar efirdən düşmürlər.Artıq tamaşaçılar böyük sənətkarları yaddan çıxarıb.

Soruşsan İslam Rzayev kimdir, tanımazlar.Amma Kəmalə Güneşlini çoxları tanıyır. Çünki klassik muğam ifaçıları təbliğ olunmur, ara müğənniləri, daha doğrusu, toy müğənniləri təbliğ edilir. Özəl televiziya kanallarının Azərbaycan mədəniyyətinə vurduğu ziyanı heç ermənilər vurmayıb. Bir- iki ziyalıdan başqa cəmiyyət susur.

Mədəniyyət Nazirliyi və Yazıçılar Biliyi özəl televiziya kanallarının bu hərəkətinə qarşı heç bir tədbir görmür. Cəmiyyətin susmasından və əlaqədar qurumların laqeyd münasibətdən istifadə edən özəl televiziya kanalları milli- mənəvi dəyərlərimizi məhv etməkdə davam edir!!!

## Deyirlər ki, bal şəkərə ziyan deyil

**Müxtəlif xəstəliklərə düçar olumuş adamlar ilk növbədə müalicə almaqla yanaşı, müəyyən mənada pəhriz də saxlamalıdır. Bunu biz demirik ey, həkimlər deyir.**

Xüsusilə də şəkər , ürək- damar, xərçəng xəstələri deyilən pəhrizə daha ciddi əməl etməlidir.Pəhrizə əməl etməyənlər bir müddət keçəndən sonra səhhətlərində ağırlaşma hiss edir və yenidən həkimin yanına gedir.Deyiər ki, balın hər şeyə xeyirli var.Çünki o, min bir dərdin dərmanıdır. Üstəlik də balın tərkibi vitaminlərlə çox zəngindir! Ondan hamı yeyə bilər, hətta şəkər xəstələri belə! Amma bir şərtlə ki, təmiz bal olsun. Endkroloq Şəmsiyyə Məmmədova deyir ki, bal çox gözəl nemətdir. Amma ondan



şəkər xəstələri çox ehtiyatla istifadə eləməlidir. Və bir də hələ bilmək olmur ki, o yiyilən bal təmizdir, ya yox! Təmizdirsə, ən yaxşı halda şəkər xəstələri bir çay qaşığı yemək olar. Bundan artıq istehlak etmək həmin xəstələri mürəkkəb duruma sala bilər. Ona görə də , diabet xəstələrinə tövsiyə edirik ki, bal yeyərkən daha diqqətli olsunlar. Artıq bal qəbulu qaş düzəltmək əvəzinə, vurub göz çıxarar.Yeni şəkəri həddindən artıq yüksəldə bilər!

## Qəza aradan qaldırıldı...



**Qış aylarında hamı istəyir ki, mənzili isti olsun.Mənzil isti olmayanda birmənalı olaraq insanlar çox əziyyət çəkirlər! Bizim mənzimizə də , baş vermiş qəzaya görə istilik gəlmirdi.**

" Azəristiliktəchizat" isə çalışır ki, hər bir mənzili normal istiliklə təchiz etsin! Onu da qeyd edək ki, son vaxtlar məlum qurumun qazanxanaları ən müasir avadanlıqla təmin edilib və bu da əhaliyə daha yaxşı istilik verilməsinə əlverişli şərait yaradır. İndi bir çox abonentlər bu xidmətdən razılıq edirlər! " Azəristiliktəchizat" ın Yeni Güneşlideki xidmət sahəsi sözün həqiqi mənasında öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Sahə rəisi Məhəmməd müəllim və onun əməkdaşları binamızda yaranmıs qəzanı vaxtında aradan qaldırdılar. Onlar səhər və gecə saatlarında bu ağır işin öhdəsindən peşəkarlıqla gəlməyi bacardılar və bizi soyuq havada çətin vəziyyətdə qoymadılar.

Zirzəmidəki istilik xətləri 35 il bundan əvvəl istismara verilib. Ona görə də, burada belə qəzalar tez- tez baş verir. Günün qaranlıq saatlarında isə zirzəmidə təmir işləri aparmaq çox çətindir. Amma buna baxmayaraq , Məhəmməd müəllim və onun əməkdaşları bu işin öhdəsindən gəlməyi bacardılar. Bu xidmətə görə bizim blokda yaşayan sakinlər Məhəmməd müəllim başda olmaqla əməkdaşlaran öz təşəkkürünü bildirir.Mənzillərimiz soyuq havalarda isti olanda biz də özümüzü yaxşı hiss edir və soyuqdan xəstələnmirik!!!

## Kəndin adı qalıb...



**Biz kənddə təmiz hava görmüşük, təmiz su görmüşük, mal- qoyun, toyuq -cücə görmüşük. 40-50 il bundan əvvəl kəndi belə görmüşük...Bu yaxınlarda kəndimizə getdim və dediklərimin əksini gördüm.**

Və gördüm ki, kəndimiz.40- 50 il bundan əvvəlki kənd deyil! Nə havası həmin havadı, nə suyu həmin sudu, nə də barı- bərəkəti həmin bardır.Elə bil ki,kəndin bütün gözəlliyi, bütün şirinliyi çıxıb gedib göyün yeddinci qatına! Nə isə... Qanım lap qaraldı... Çünki əvvəllər hər həyətdən, hər evdən qoyun- quzu, toyuq- cücə səsi gələrdi, amma indi gəlmir. Bilirsiniz , niyə?! Belə ki, o heyvanları saxlamağa onların otlaq sahələri,örüşləri var idi.

Nə yemə pul verirdilər, nə də digər xərcləri çıxırdı. Kəndə gedəndə qohum- əqrəba sənə , toyuqdan,ətdən,yağdan ,pendirdən ,baldan pay qoyardılar. Hələ bir az da imkanlı qohum quzu kəsib qoyardı.Bütün bunlar ötən illərdə,ötən günlərdə qalıdı!!! Belə ki, hər adamın otlaq sahəsi yoxdur ki, mal- qoyun saxlasın. Camaat mal- qoyunu ona məxsus təsərrüfatlarda saxlayır. İmkanı olmayanlar, otlaq sahəsi olmayanlar mal-qoyunu satdılar.

**Ona görə də , bu gün ölkəmizdə mal və qoyun ətininin qiyməti kəllə- çarxa qalxıb.Əgər əvvələr kəndimizdə min evin həyətində mal- qoyun var idisə, 500 evin həyətində mal- qoyun saxlanılır. Bu, kəndinin artıq tükənməsi və ruzisinin azalması deməkdir. Kəndimizin çox həyət- bacasından mal- qoyun, toyuq -cücə səsi gəlmir. Ona görə də, kənd öz gözəlliyin, kolaritin yavaş- yavaş itirir... Və ətin də qiyməti get- gedə daha da bahalaşacaq.Kəndlərimiz öz əvvəlki görkəminə qayıtmasa, biz dəyərlərimizi bir müddətdən sonra itirəcəyik. Gəlin, kəndlərimizi solmağa və sönməyə qoymayaq!!!**

**Emil FAİQOĞLU**



# MƏNİM SÜRREALİST KAMİKADZEM

## "İstanbulda İstanbul həsrəti"ndən bir hissə



*Məzahir ƏHMƏDOĞLU*

(ixtisarla)

**Bu, müəyyən qədər tərəddüdlərlə başladığım işin - yazının üçüncü hissəsidir. Münasibət bildirənlər, xoş sözlərlə ruhlandıranlar, hətta səhvlərə diqqət yönəldənlər, ərkyana məsləhət verənlər varsa, deməli oxuyanlar da az deyil, normaldır. Özü də məhz arzulanan təbəqələrdən. Elə bilirdim ki, yayın bu cırhacırında qəzet oxuyan təkcə özüməm.**

Üç fərqli, amma məntiqi baxımdan oxşar münasibət.

Birincisi: "Siz nəyə görə təsvir və əhvalatları bu dərəcədə yığcamlaşdırırsınız, bir qədər geniş verməli yaxşı olmazdımı?"

İkincisi: "Bəzi səhvlər var. Ancaq mən bilirəm ki, əgər açıqlayırsınızsa, siz bir şəxsin 6 dil bilməsini "poliqlot" kimi nəzərə çatdırarsınız..."

Üçüncüsü: "Əvvəlki hissələrin dərc olunduğu sayları göstərmirsiniz, bunun bir səbəbi varmı?"

...Bütün bunları nəzərə ala bilsəm, düşündüyüm kimi yazmağı bacarsam, əlbətdə ki, yaxşı olardı. Yoxsa mən təxminən 20-25 vərəqlik hekayəmi bir abzasda "xərcləyib əritməzdim" də. Yüksək səviyyədə yazmaq çətindir axı.

...Aqil Abbas ertəsi gün zəng vurub ümumi vəziyyətlə bir daha maraqlandı, nə etdiyimi, nə edəcəyimi soruşdu. Hesabatım onu tam qane etmədi deyəsən. Ümidləri doğrultmağa çalışmalıyam.

Bir qədər sonra Azər Abdullanın çağırışına cavab verirəm. Qısa haləhvaldan sonra deyir ki, bu gün eşitmişəm Türkiyədə olmağını.

Azər Abdulla məndən 10-11 yaş böyükdür. Bənzərsiz jurnalist, böyük qardaş, böyük dost və bütün mənalarda tam bir əxlaq məktəbi olan Azərin narahatlığını anlayıram. Elə bilir ki, xəstəxanada yatıram, ya nəsə xoşagəlməz bir şey baş verib. Deyirəm narahat olma, indiyədək başıma nələr gəlməyib ki, elə-belə müayinədir, gəzib dolaşıram gözəlim İstanbulu.

Hər halda sağollaşanda ürək sözlərini məhz belə ifadə edərək məni kövrəldir: "Məzahir, neçə illərdir ki, mən hər səhər sənə və Vaqifə (Vaqif Bayatlı Odəri deyir) görə Allaha dualar edirəm, oğlum üçün də..."

Azər Abdulla hələ "Qobustan" jurnalında işlədiyi, məşhurlaşdığı vaxtlardan Vaqiflə mənim çox qayğımı çəkib, bizə böyük qardaşlıq edib. Azər bəy ömründə bir dəfə də olsun kimsənin xətrinə dəyməyən nadir insanlardandır.

Bu arada Tofiq Abdini düşünürəm. Bir zamanlar "Qobustan"ı oxuyanlar, hər yeni nömrəsini səbirsizliklə gözləyib "görüşən kimi" bağrına basanlar, bilirlər ki, Azər Abdulla ilə Tofiq Abdin jurnalın aparıcı yazarları olublar. Bu yaradıcı tandem publisistikaya yeni üslub və nəfəs gətirmişdilər.

Tofiq Abdini tanıyan hər kəs İstanbulda olarkən mümkün deyil ki, onu xatırlamasın. Böyük Şəhərin hansı səmtinə yön alsan bir zamanlar Tofiq Abdinin bu yerlərdə olduğunu, buralardan keçdiyini düşünərsən. Abi İstanbulda on ilə yaxın yaşayıb da. Bəlkə indi də yaşayır. Ruhu buralardadır bəlkə...

Əvvəlcədən bildirmişdim ki, klinika-həkim-müayinə əhvalatlarından bəhs etməyəcəyik. Ancaq nə vaxtsa tək bir faktı yazının ana xəttinə uyğun olaraq qısaca ortaya çıxarmaq istisnası var. Özünü sığortalamaq kimi olmasın, bunu diqqətdə saxlayaq.

Nəhəng şəhərdə Bəyoğlunu, Üsküdarı, Fatihi, ayrıca olaraq Eminönünü, Beşiktaşı, Eyyubu, Kadıköyü, Bayrampaşanı, Qazi Osmanpaşanı, Beykozu... tamam gəzib başa vurmaq üçün aylarla vaxt lazımdır. Ancaq mən Ayaz həkimlə birlikdə "sərbəst proqram üzrə" buna hər halda cəhd edirəm. Bir neçə muzeyə də vaxt ayırırıq. Ayrıca olaraq Topxana Sarayı muzeyinə.

İstanbulda əsl may havasıdır. Yağışlar kəsib gün çıxsa da, mülayimlik və oksigen bolluğu var. Saat







11-ə qala Topxana Sarayının qapısı qarşısında sıx növbədir. Elə bilet kassalarında da. O biri muzeylərdə belə axın görmədik. Düşünürəm ki, bu bəlkə də "Möhtəşəm yüz il"in xidmətləridir. Çünki muzeyə tamaşa etməyə gələnlərin elə yarısı türkiyəlilərin özləridir. Hətta məktəbliləri də gətirirlər. İlk okulun beşinci-altıncı siniflərində oxuyan bir dəstə uşaq Ayazı gözlədiyim yerdə guya sıraya düzülürlər. Ancaq onları gətirən iki gənc müəlliminin gözünü oğurlayan kimi dəcəllik edir, itələşir, Osmanlı dövründən bəhs edən filmlərin epizodlarını öz təxəyyülləri ilə obrazlaşdırırlar. Çox nadinc və araxayın uşaqlardır. Nə qədər aralı dursam da, xeyri olmur, itələşən uşaqlardan biri ayağımı tapdalayıb üstümə yıxılır. Müəllimə uşaqlara yüngülcə acıqlanıb mənə yaxınlaşır və ingilis dilində üzr istəyir. Allah, Allah! Nədən hamı mütləq ingilis olmalı və ya ingiliscə danışmalıdır? Mənim geyimimdən başqa haram ingilisə, avropalıya oxşaya bilər? Mən bu uşaqların hərəkətlərini də təbəssümlə seyr edirəm axı. Belədə gənc xanıma üz tutub təbii ki, bir qədər zarafatyana tərzdə soruşuram:

"Öyrətmənim, bu çocuklar yeni bir Hababam sınfımı?"

Hər iki müəllimə olayın belə bir dönüşünə təəccüblənir. Ancaq sualım xoş sözlərlə cavablanır. Ayaz gəldikdən sonra biz öz Şirvan ləhcəmizdə danışaraq buraxılış məhəccərinə yaxınlaşdıqda isə bir qədər çaşqın görünürlər. Ancaq əvvəlki xoş təbəssümlə...

İçəridə nələr var, siz də yaxşı bilirsiniz. Burada hər şey mənə nə qədər tanış görünsə də, yenə diqqətlə seyr edir, Osmanlı imperatorluğuna tarixi ekskursumdan zövq alıram.

Türkiyəlilər üçün Taksim nə qədər önəm daşısa da, mənə görə adi bir məkandır. Ancaq o meydandan İstiqlal caadəsinə düşüb başa-baş gəzmək olduqca xoşdur.

Minik kimi əsasən metro və tramvaydan istifadə etsək də hərdən taksiyə də əyləşirik. Bahadır, ancaq əlac da yoxdur. Bizdə əsasən çayxana və bərbərxanalarda olan "siyasi söhbətlər" İstanbulda taksilərdə baş verir. Təbii ki, sürücülərin fəallığı və əsasən də monoloqları ilə. Biri Ərdoğan hökümətini pisləyir, digəri müxalifəti, bir başqası isə hər ikisini. Və yaxud tam əksinə. Türkiyəni hər cəhətdən güclü və qüdrətli ölkə olmasını arzulayan taksi sürücüsü yazar olduğumu bildikdə mənə Azərbaycanı izlədiyini söyləyir. Deyir sizdə sürətli inkişaf gedir, sizin prezidentiniz ölkəni qüdrətləndirir. "Belə yaxşıdır, abi, güclü olun, atom bombası (!!!) əldə edin, hamı, ən güclü ölkələr də sizinlə hesablaşacaq onda..." deyə məni xeyli təəccübləndirir və heyrətə gətirir. Bəlkə də bu münasibətin və "təhrikin" çox dərin qatlarında məntiqin kiçik bir yuvası göründüyü üçün. Başqa heç nə...

...Soma faciəsi bizi də sarsıdır. Biz də ümumölkə hüznünə qoşulub yas saxlayırıq. Televizorda yalnız Türkiyə kanallarını izləyir, davranışımızı bütünlüklə bu ağır hadisəyə uyğunlaşdırırıq. Ayaz xoşladığı Efes pivəsindən də imtina edir həmin günlərdə. İstanbul isə bu faciəni bütünlüklə yaşamır. Əsas səbəblərdən biri, təbii ki, əcnəbi turistlərin çoxluq təşkil etməsidir.

Axşamlar mütləq Gülhanəyə gedirik, Gülhanə parkına. Hər dəfə o "ceviz ağacını - mavi gözlü divi" axtarır və uzaq xəyallara dalıram. Qəfildən ağlımdan bir şey keçir: görəsən parkdakı bu qədər insanların içərisində məndən başqa o dahiyanə misraları və böyük Nazim Hikməti düşünən varmı? Bu da polis - biri qadın, ikisi kişi. Onlar bizim və ayrıca mənim xəyallarımın "yanından" saymazyana ötüb keçirlər. Düz, 57 il bundan əvvəlki kimi...

Söz Gülhanədən, Nazimdən, şeirdən düşmüşkən bir məqamın sevincini bölüşmək istəyirəm. Bundan əvvəlki hissənin sonluğunu Rayner Maria Rilkenin şeiri ilə bitirmişdim axı. Yazı üslubum imkan verməmişdi həmin şeirin tərcüməçisini yada salam. O gözəl şair, o gözəl tərcüməçi zəng vurub yazıya və yazının ruhuna uyğun seçilən şeirə görə məni təbrik etdi. Elə mən düşündüyüm kimi onu da bildirdi ki, düz eləyib tərcüməçinin kimliyini göstərməmisən, belə daha yaxşı alınır. Bu bir təvazökarlıq jesti deyildi. Onun bütün varlığı belədir - dupduru, tər-təmiz...

...Həkimlər qanımı qaraldırlar. Bəlkə elə bu üzdən qarışıq yuxular görürəm. Atam gəlir yuxuma. Ancaq çox uzaqdan keçir, hara gedir görəsən? Heç mənə tərəf baxmır da. Cavandır, hündürboyludur, yarı əsgər, yarı mülki geyimdədir. Elə hey yol gedir. Bircə dəfə dönüb məni görsəydi...

Ayılanda yuxumu xatırlayıram. On doqquz yaşında Böyük Vətən Müharibəsinə yollanıb Reyxstaqa qədər döyüş yolu keçən atamı düşünürəm. Və qəfil yadıma düşür ki, başqa günlər bir yana, hər il 9 Mayda onun məzarı üstünə gedib xeyli "söhbət" edirəm. Bu dəfə məhz həmin gün Türkiyəyə gəldiyimdən borcumu yerinə yetirməmişəm...

Bu gün hava bütün mənalarda əlverişlidir. Mənim təklifimlə körfəzə gəzintiyə çıxmağı qərarlaşdırırıq. Eləcə "İstanbul boğazı"na. Bəzən adama elə gəlir ki, İstanbul heç də böyük şəhər deyil. Yəqin göydələnlərin çox olmaması belə qənaət yaradır. Əslində bu gözəlliyə göydələnlər heç yaraşmır da. Səmadan və çox maraqlıdır ki, dənizdən baxanda İstanbulun nəhəngliyini büsbütün hiss edirsən. Boğazda olarkən hər iki sahilin qeyri-adi gözəlliyi də adama çox şeyləri unutdurur.

Göyərtədəki turistlərin danışıqlarından və geyimlərindən haradan gəldiklərini təxmin etmək mümkündür. Yaxınlıqda 4-5 hindlidən ikisi milli geyimdədir. Həmin o milli geyimli kişi həmvətənlərini başına toplayıb elə həzin oxuyur ki... Belə səs və belə oxumaq hind filmlərindəki mahnılara bənzəmir.

Arada çay içmək üçün aşağı düşürük. Burada çay nədənsə baha deyil, əksinə ucuzdur - stəkanı bir lirəyə.

Yanımızda əyləşən 75-76 yaş verə bildiyimiz almaniyalı ər-arvad tez-tez bir-birlərinin şəklini çəkir, arada Ayazdan xahiş edib qoşalaşır, bu yaşda da xoşbəxt olduqlarını, həyatdan zövq aldıqlarını sanki bütün dünyaya sübut etmək istəyirlər.

Uzun masanın bir başında əyləşib şirə içən gülümsər çöhrəli gənc bir xanımın tez-tez bizə tərəf baxdığını hiss etsəm də, bir elə fərqinə varmıram. Daha çox çölü - sahilləri seyr edirəm. 5-6 dəqiqə sonra göyərtəyə qalxmağı planlaşdırmışam.

...Gözlənilməyən, bəlkə də gözlənilən bir hadisə baş verir. Həmin o gözəl xanım əlində çanta və xəritə bizə yaxınlaşır. Mənimlə ərəb dilində salamlaşıb nəsə deyir. Mən ərəb dilini bilirəm? İngilis dilində 3-4 kiçik və standart cümlə, 5-10 kəlmə, vəssalam! Bu özü də əslində elə sıfıra bərabərdir. Həyatımda ən gülməli hadisələrdən biri də indi baş verir. Ərəbcə müraciətə çaşıb rusca cavab verirəm. Belədə bu müasir geyimli, hətta çöl-bayır üçün gözlənilməz aksessuarlı ərəb xanımı onun özü üçün də asan olmayan ingilis dilinə keçid edir. Təbii ki, yenə mənlik deyil. Ayaz həkim bu dildə az-maz başını dolandıra bilir. Çətinliklə də olsa xanımın söylədiklərini mənə tərcümə edir.

İndi mən bir qədər aydın yazım, siz də fikir verin bu əhvalatın "adi" qəribəliyinə.

Bu gənc xanım Əlcəzairdəndir. Gözə gəlimliyi, şirinliyi bəs deyilmiş, hələ bir saçlarına da gül düzüb. Deyir ki, keçən il elə bu vaxtlar, ya bəlkə də bir az irəli-geri günlərin birində biz Kabataş deyilən yerdə təsadüfən tanış olmuşuq. Mən ona harasa getməyə kömək etmişəm. Elə əynimdəki bu kətan kostyum da həminkidir. Ərəb dilində də az-maz başa düşür, danışa bilirəmmiş. Təbii ki, onun yanıldığını, həmin adam olmadığımı anladıram. Deyir "o" da Bakıdan idi, siz də Bakıdan... Necə ola bilər axı, həm də sizin kimi ağ saçlı idi - deyir. O andaca mən yalnız bir nəfər haqqında fikirləşib (ağ saçlı, kətan kostyumlu və ...qəfil baxanda müəyyən bir duyumda cüzi oxşarlıq), tez də indiki reallığa qayıdıram. Ancaq bu əlcəzairli qızın da kölnünü qırmıram.

Gəmi sahilə yan alarkən yenə rastlaşırıq və bu dəfə Ayaz həkim xanıma köməklik göstərir - iri əl çantasını və əlindəki digər bağlamasını çıxışa qədər aparır.

Sağollaşıb ayrılırıq. Ayazdan soruşuram ki, sən bütün danışıqları mənə düzmü tərcümə edirdin? Hə, deyir.

Şəhərin günorta izdihamında əlcəzairli qızı gözdən itiririk. Ya bəlkə o özü elə itib yoxa çıxır. Ayaz zarafata salıb söyləyir ki, qızın bağlamasından şübhələndim, terrorçu olar, bilmərik.

Əlbətdə bu zarafat idi. Ancaq mənimlə belə zarafat etmək də mümkün deyil. Çünki onda mənim xəyal düşüncələrim işıq sürətini də ötüb keçir.

Əlcəzairli qız... 15-16 yaşlarımda ilk dəfə tamaşa etdiyim ərəb filmində Əlcəzairin Fransa müstəmləkəçiliyinə qarşı mübarizəsindən bəhs olunurdu. Filmin qəhrəmanı Cəmilə adında gənc bir qız idi. O vaxtlar düşmən içinə girib bomba partlatmaq kimi fövqəladə cəsur intiharları adətən kişilər həyata keçirərdi. Bu filmdə isə Cəmilə vətəni uğrunda belə bir aksiya törədir. "Kamikadze" sözü sonralar populyarlaşdı. Həm də bu cür şərəfli intiharlar...

...Və Malik Həddadı da xatırlayıram. Əlcəzairin və ərəb dünyasının böyük yazıçısı Malik Həddadı. Onun "Çevrilmiş səhifə" romanında Əlcəzair xalqının Fransa müstəmləkəçiləri ilə ölüm-dirim savaşını da.

**...Və əlcəzairli Zinəddin Zidanın Fransaya dünya çempionu adını qazandırmasını...**

**2015**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Burnumun ucunu göynədən kitab

## Aqil Abbasın yeni kitabı işıq üzü gördü

**Mənə görə kitab, qəzet, bütövlükdə özündə fikri yazılı şəkildə çatdıran hər bir nümunə həm də müəllifin, yəni yazı sahibinin müəyyən hissəsidir. Təbii ki, söhbət ruh, hiss, duyğu və ürəkdən gedir. Bu mənada oxuduğum hər bir yazı nümunəsini müəlliflə söhbətim, dialoqum, təmasım kimi qəbul edirəm. Deyə bilərsiniz ki, axı, həmişə söhbət alınmır. Haqlısınız, sizinlə razıyam. Amma...**

**Gəlin etiraf edək ki, alınmayan söhbətlərin də içərisində bəzən elə nüanslar olur ki, uzun zaman unutmursan, yanından keçib gedə bilmirsən. Çünki əvvəldə dediyim kimi, məsələnin mahiyyəti yazıdan, onun yaratdığı auradan, etdiyi təsirdən ibarət olur. Və bu da adamı tutub saxlayır. O yerdə ki, orda işıqlı nəsə var.**

**Sizinlə həmsöhbət olmağa hazırlaşdığım bu məqamda masamın üzərindən bir kitab baxır mənə tərəf. Onun canından hələ mətbəə qoxusu "pırr" edib heç uçmayıb da. Zənnimcə, o kitaba ilk toxunan da mənəm. Özü də sevgiylə, istəklə, maraqla. Çünki bu kitabın içərisində yer almış bir-birindən maraqlı povest və hekayələrin demək olar ki, hamısının dünyaya gəlişinin də şahidi olmuşam, mətbəəyə yola düşməyinin də. Ona görə də bu iki prosesin yekunu olan çapın ifadə etdiyi kitab formasını görməkdən məmnunam. Hətta mən adətimə uyğun olaraq, qarşılaşdığım hər təzə kitabı az qala ordudan qalib gələn əsgər səviyyəsində, ona bərabər səmimiyyətdə qarşılayıram. Çünki kitab artıq bütövlükdür, duyğuların, hisslərin böyük silsiləsinin toplusudur.**

**"Burnumun ucunu göynədən günlər" adlı bu kitab mənə görə, Qarabağın, xüsusilə, Ağdamın sözə hopmuş ovqatıdır. Kitabdakı povest və hekayələr oxucunu yaxasından tutub əyləşdiyi yerə, divanamı, stolamı, lap elə döşəmənin üstünə elə otuzdurur ki, tərpənə bilmirsən. Səni az qala nəfəs almağa da qoymur. Sonuncu nöqtəyə gəlib çıxana qədər içində bir söz acgözlüyü at oynadır. Hadisələrin, dialoqların, təhkiyə və portretlərin içində hələk olursan. Özünə bir növ hər şeyi, hətta nöqtə-vergülü də köçürmək istəyirsən. Bilirsiniz niyə?**

**Gəlin, bu sualın cavabını birbaşa deyim sizə:**

**-Ona görə bu halı yaşayırsan ki, bu hissləri keçirirsən ki, sən oxucu olaraq Ağdamı, Qarabağı görürsən. Onun özünü dinləyirsən, səsini, sözünü eşidirsən, zarafatlarını, atmacalarını, hətta söz içində söz yedirtməyini də yaşayırsan!..**

**Bax, dediyim bu səbəblər şəxsən bir oxucu kimi məni kitabın nə hekayələrindən, nə də povestdən ayrılmağa imkan vermir. Özü də əvvəldə vurğuladığım kimi, mən bu kitabın içində yer alan həmin o povest və hekayələri "Ədalət" qəzetinin səhifələrində təkrar-təkrar oxumuşam.**

**Azərbaycan oxucusu yazıçı-publisist Aqil Abbasın qələminə bələddir. Onun zamanında işıq üzü görmüş "Ən xoşbəxt adam", "Batmanqılınc" əsərlərini oxuyublar. Bu kitablar Sovet dönəmində dünyaya gəlmişdi. Sonra "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Dolu", "Qiyamət gecəsi" və digərləri böyük söz dünyasında öz yerini tutdu. Və "Ən xoşbəxt adam"la "Batmanqılınc" bizi, şəxsən məni daha çox Sovet dövrünün nostaljisini və bir də tariximizin ağrılı bir məqamını yaşamağa kökləmişdisə, müstəqillik illərində yazılan hekayə, povest və romanlar isə Vətəndə vətənsizliyimi, çadır həyatını, Birinci və İkinci Qarabağ savaşını, bir sözlə, ömrümün 35 ilini mənə həm təkrar yaşatdı, həm də ömrümə təkrar hopdurdu.**







**Oxucuların yadında olar, hətta bəzilərinizə görüşlərimizdə zarafatla da bu kitabın adını xatırlatmısınız mənə. Söhbət "Camış bağa girdi, gəl" povestindən gedir.**

**O povestdəki həyat əslində gerçəkliyin bədii təsviridir. Çünki onun qəhrəmanlarının hamısını qarabağlılar, xüsusilə, ağdamlılar yaxşı tanıyırlar. O povesti oxuduqca özünü Ağdamda, Qarqar çayının kənarında olan yeməkxanaların birində oturub söhbət edən ağdamlılardan biri hesab edirsən. Yaxud Ağdamdan Şuşaya gedən, Ağcabədiyə üz tutan adamlardan biri olursan. Və ətrafında da tanıdığın, az qala bütün nəsil-nəcabətini əzbər bildiyin adamlar...**

**Bu kitabdakı "Bazar, ağdam bazarı", "Səsinizi kəsin, görək bu it uşağı bura niyə gəlib?!" hekayələrini xüsusi ayırmaq istəyirəm. Çünki hər iki hekayənin təkcə məzmunu yox, həm də oxucu ilə birbaşa üz-üzə duran lövhələri o qədər reallığa yaxındır ki, sanki hər iki hekayədəki danışıq da, hərəkət də kiminsə tərəfindən lentə köçürülüb və nümayiş etdirilir. Oxucu da oturub özünün də iştirakçısı olduğu səhnələri izləyir. Bu, bir yazıçı kimi Aqil Abbasın yaradıcılıq imkanının nə qədər qolbudaqlı olduğunu göstərir, eyni zamanda müəllifin hadisələrin, coğrafiyanın içərisinə nə qədər bələd olduğunu, onun qatlarına enmək məharətini, qabiliyyətini nümayiş etdirir. Doğrusunu deyim ki, belə məqamlarda mənə elə gəlir ki, müəllif bütün yazdıqlarını hansısa bir zaman kəsiyində heç kimə demədən, heç kimə bildirmədən lentə köçürüb. Və indi həmin lent yazısını kitab edib povest, hekayə şəklində qaytarır bizə.**

**Bu kitabdakı "Göz yaşlarımla sulayacam səni, gilas ağacı" hekayəsi mənim özümün də yaşadığım hissləri, əyilib öpdüyüm qara daşı... və həmin o anımın bütün cizgilərini bir daha qoydu gözümün qarşısına.**

**44 günlük Böyük Zəfərimizdən sonra doğulduğum Tuğ kəndinə etdiyim ilk səfər, evimizin yerində qalmış güllə yaralı qara daş, kol-kos basmış həyət mənə çox şeylər dedi, çox şeylər xatırlatdı. Yazıçı-publisist Aqil Abbas da qələbədən sonra Ağdama ilk səfərində həmin o mənə hökm edən, varlığımı alt-üst edən, için-için ağladan hissləri daha artıq bir səviyyədə, yəni öz ürəyinin tutumu qədər yaşatdı. Aqil Abbas da üzünü gilas ağacına tutub dizini yerə atıb içindəkiləri gilas ağacına, yox, təkcə gilas ağacına yox, duymaq, eşitmək qabiliyyəti olan bütün insanlara tutub öncə pıçıltıyla, sonra isə hayqıraraq deyib.**

**Bildirib ki, daha səni qurumağa qoymayacam, gilas ağacı! Çünki mən qayıtmışam, biz qayıtmışıq, Ağdam qayıdıb, ağdamlılar qayıdıb! Sən sahibsiz deyilsən!**

**"Burnumun ucunu göynədən günlər" adlı kitab 9 hekayə və 1 povestdən ibarətdir. Mən onların hər biri haqqında ayrı-ayrılıqda fikir bildirib, oxucularımı kitabı tam şəkildə oxumaq marağından uzaq salmaq istəmirəm. Bilirəm ki, bu kitabın oxucuları var və tapıb oxuyacaqlar. Oxumayanlara da oxuyanlara çatdıracaq. Ona görə ki, bu kitab adi söz yığınından, mətbəə qoxulu vərəqlərdən ibarət deyil. Bu kitab Ağdamdandır, Qarabağdandır... Və bir də bu kitabı oxuyanda oxucu biləcək ki, Əzrayıl erkəkdi, yoxsa dişi?**

**Və son olaraq... Mən sözün oxucuya nə verib, nə almaq gücündə olduğunu təkrar deyim ki, "Burnumun ucunu göynədən günlər"də gördüm.**

***P.S. "Gənclik" nəşriyyatında tanınmış yazıçı-publisist İradə Tuncayın redaktorluğu ilə işıq üzü görmüş kitab üç gündür ki, dünyamıza gəlib.***

## *Azərbaycanda əlavə təhsil hər kəs üçün ödənişli olacaq*



**Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin Azərbaycan Respublikasının təhsil müəssisələrində ödənişli əsaslarla təhsil (əlavə təhsil istisna olmaqla) aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirə edilən "Təhsil haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Qanun layihəsində qeyd edilir ki, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsinə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" Qaydasının 8.2-ci bəndinə əsasən yenidənhazırlanma təhsili, təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili yalnız ödənişli əsaslarla həyata keçirilir və müvafiq maliyyə xərcləri kadrın çalışdığı təşkilat və yaxud kadrın özü tərəfindən ödənilir. Belə ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün də əlavə təhsil ödənişlidir və onların təhsilinə dövlət büdcəsindən vəsait ayrılmır.

Bu xüsusda, sözügedən məsələ ilə bağlı yuxarıda qeyd olunan normativ hüquqi aktlar arasında ziddiyyətin aradan qaldırılması məqsədilə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 14.8-1-ci maddəsində dəqiqləşdirmə xarakterli müvafiq dəyişikliklərin təsbit olunması təklif edilir.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq I oxunuşda qəbul edilib.

## *Kiberdələduzların toruna düşməməyin 2 yolu*



**İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsallaşmanın miqyasının genişlənməsi kibertəhlükəsizlik məsələsini ölkəmizdə əsas gündəm mövzusuna çevirib. Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) icraçı direktoru Rauf Cabarov bildirir ki, kibertəhdidlər daha çox rəqəmsallaşmanın vüsət aldığı sahələri hədəf alır.**

Onun sözlərinə görə, kiberfırıldaqçıların diqqəti ən çox maliyyə sektorundadır. Hazırda bu sahədə kartlardan vəsaitlərin oğurlanması ilə bağlı milyonlarla manatlıq itkilər qeydə alınır. Mütəxəssis vurğulayır ki, Mərkəzi Bank keçən il maliyyə təşkilatları üçün informasiya təhlükəsizliyi tələblərini sərtləşdirib:

- Maliyyə qurumları mütəmadi olaraq yoxlamalar keçirməli və aşkar olunan boşluqları dərhal aradan qaldırmalıdırlar;

- Bəzi qurumlarda boşluqların yaranma səbəbi köhnə texnologiyaların istifadə edilməsidir. İnfrastrukturun yenilənməməsi və lisenziyaların vaxtında alınmaması kiberhücumlar üçün münbit şərait yaradır. Təcrübə göstərir ki, kiberhücumların əksəriyyəti texniki xətadan deyil, məhz istifadəçilərin məlumatsızlığından baş tutur. R.Cabarov vətəndaşlara bir neçə vacib məsləhət verib:

- Məlumatlarınızı gizli saxlayın: şəxsi və xüsusən kontakt məlumatlarınızı internet üzərindən paylaşmaqdan çəkinin;

- Təkliflərə şübhə ilə yanaşın: "Heç kim heç nədən heç nə vermir". Əsassız və həddən artıq cəlbedici görünən təkliflərə dərhal "yox" deməyi bacarmalısınız.

# Gəlib keçən bir ömür...

**Həyatımda elə insanlar olub ki və bu gün də var. Mən onlar barəsində keçmiş zamanda danışa bilmirəm. Onların xatirə olduğuna inanmıram. Çünki onlarla təmasım ürəyin, ruhun təması olubdu. Anlayışın, düşüncənin, həyata baxışın təması olubdur. Bu mənada bu gün barəsində düşündüklərimin kiçik bir hissəsini qələmə almaq istədiyim unutmadığım bir ADAM var. Sözün həqiqi mənasında UNUTMADIĞIM!**

Bəli, gəlin etiraf edək ki, bəzən düşündüklərimizi, xəyalımızdan keçirdiklərimizi başqasının hərəkətində, fəaliyyətində, yazısında, hətta söhbətində dilə gətirildiyini, təqdim edildiyini görəndə, eşidəndə bir az çaş-baş qalırıq. Axı bu necə ola bilir? Məsələn, mən indi barəsində yazacağım adam haqqında son bir həftədir ki, özümdən asılı olmadan düşünürəm, kitablarını vərəqləyirəm və bu bir həftənin içərisində də həmin ADAM barəsində mətbuatda da, sosial şəbəkələrdə də, eləcə də həmsöhbət olduğum insanlarla, müzakirə etdiyim mövzularda da qarşılaşmışam və hər dəfə də təəccüblənmişəm. İndi isə bütün bu təəccüblərə, təsadüflərə baxmayaraq, özüm üçün qətiləşdirdiyim bir məqama toxunum. Yəni mən artıq bilirəm ki, barəsində düşündüyüm ADAM təkcə mənim üçün deyil, hamı üçün, yəni onu tanıyan hər kəs üçün unudulmazdır, yadda qalandır. Elə ona görə də fikirlərimiz, düşüncələrimiz həm paralel, həm də kəsişən bir xətt üzrə hərəkətdədir. Və...

Əlimdə tutduğum kitaba qəribə bir avtoqraf yazılıb:

- Sevgili Qarabağımızın sarı simi Mədətoğlu Əbülfət bəyə müəllifdən. Ramiz Məmmədzadə, 25 yanvar, 2022-ci il.

Bəli, mənə bağışlanan kitabın adı "Bir ömürdü, o da keçdi beləcə..." adlanır. Kitab dəyərli yazıçımız Mustafa Çəmənlinin redaktorluğu ilə işıq üzü görüb. Və maraqlıdı ki, bu kitabda həm Ramiz Məmmədzadənin şeirləri, publisist yazıları,esseləri, məktubları, həm də onun barəsində yazılmış dost sözləri yer alıbdır. Mən böyük qürur hissi ilə vurğulamaq istəyirəm ki, kitabda əməkdar elm xadimi, professor Nizaməddin Şəmsizadə, şair əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadə və bir də mənim - şair, əməkdar jurnalist Əbülfət Mədətoğlunun məqaləsi yer alıbdır. Təkrar vurğulayıram ki, bu mənim üçün son dərəcə qürurvericidi.

Ramiz Məmmədzadə şair, publisist olmaqla yanaşı, həm də ictimai-siyasi xadim olub, dövlət vəzifələrində çalışıb. Amma hansı vəzifəni icra etməsindən asılı olmayaraq, həmişə sözün, ədəbiyyatın yanında olub. Ona görə də onun tutduğu dövlət vəzifələri həmişə ikinci planda qalıb. Bunu hər kəs etiraf edə bilər və bir də yəqin ki, hər kəs Ramiz Məmmədzadənin söz adamlarına diqqətini də, qayğısını da xatırlatmaqda çətinlik çəkməz. Və yeri gəlmişkən onu da qeyd edim ki, Ramiz Məmmədzadə (mən dəfələrlə şahidi olmuşam - Ə.M) söz adamlarının xahişini, problemini çözmək üçün ərki keçən məmurlara zəng etməyi də heç vaxt özünə qüsur saymayıb. Əksinə, bunu ürəklə, sayqı ilə yerinə yetirib. Elə edib ki, gördüyü iş kiməsə minnətli olmasın. Bax, bütün bunları xatırlaya-xatırlaya mən əlimdə tutduğum kitabı vərəqləyirəm. Bu kitabdakı şeirlərin yazılma tarixi 2010-cu ildən 2020-ci ilə qədər olan zaman kəsiyidir. Və mənim üçün burda bir məqam da önəmlidir ki, kitabdakı şeirlərin demək olar ki, hamısını dövrü mətbuatda, o cümlədən "Ədalət" qəzetində ilk oxucusu olmuşam. Ramiz müəllimin




özünəməxsus bir qəribəliyi var idi. Redaksiyaya yazılarını göndərməmişdən öncə telefonla əlaqə saxlayardı. Çap olunmaq imkanını, şəraiti öyrənərdi. Və sonra çox mehriban bir şəkildə deyərdi:

- Əbülfət, şeirlərimi göndərirəm. Əvvəlcə oxuyarsan, sonra telefonda danışarıq. Sənin fikirlərin mənim üçün maraqlıdı. Nə xoşuna gəlmədisə və yaxud anlaşılmaz oldusa, mənə de. Birlikdə müzakirə edək. İstəmirəm ki, xoşun gəlməyən, nöqsanlı şeirim çap olunsun...

Bəli, Ramiz Məmmədzadə redaksiyamıza göndərdiyi bütün yazılardan öncə mütləq bu zəngi edirdi. Mən də böyük həvəslə onun şeirlərini və yaxud publisist yazılarını oxuyurdum. Üstəlik, onu da çox gözəl bilirdim ki, Ramiz müəllimdə "Ədalət"dəki bütün yazıları birmənalı olaraq gözdən keçirir və telefon zəngimizdə mənə də yazılarımız barəsində çox açıq bir münasibət bildirir. Bu da etiraf edim ki, mənim məsuliyyətimi artırırdı. İndi isə...

"Bir ömürdü, o da keçdi beləcə..." kitabındakı şeirlərin ovqatına üz tuturam. Bu şeirlərin xeyli hissəsi Qarabağa, xüsusilə Ağdama həsr olunub. Ramiz müəllim canından da çox sevdiyi Ağdama yazmaqdan, Ağdamı tərənnüm etməkdən, Ağdamı şeirə gətirməkdən yorulmurdu, doymurdu. Hətta onun şeirlərinin qəhrəmanı olan Ağdam və ağdamlılar o qədər obrazlı şəkildə təqdir və tərənnüm edilirdi ki, bəzən şeirdəki mənzərənin bugünümüzün özü olduğuna, gerçəklik olduğuna inanırdım. Unudurdum ki, Ağdam işğal altındadır, unudurdum ki, həmin qəhrəmanlar dünyasını çoxdan dəyişib. Bunu mənə Ramiz Məmmədzadənin Ağdam sevgisi sübut edirdi. Məsələn o:

***Bir payız səhəri***
***ova gedib***
***Evinə qayıtmayan...***
***İtib-batan,***
***yoxa çıxan***
***Faytonçu Çərkəz kişinin***
***Atlarını yuxuda gördüm***
***dünən gecə...***
***Özü də necə?***
***Atlar kişniyə-kişniyə***
***qaçırdılar,***
***Üz tutmuşdular meşəyə, dağa...***
***Gedirdilər***
***Çərkəz kişini axtarmağa...***

Və yaxud "Ağdam Cümə məscidi" şeirində yazdığı kimi:

***Rəhmətlik Molla Mürşüd babamın***
***and yeri, iman yeri.***
***Çiçək nənəm Gözəlin***
***ümid yeri, güman yeri***
***Ağdam Cümə məscidi.***
***Əliqurumuşlar***
***Sənə əl uzatdılar***
***Onlar bəşər deyil,***
***ayrı kafir zaddılar...***
***Diddilər, yedilər səni...***

Bir parçasını təqdim etdiyim bu şeirin özündə də təkcə Ağdam Cümə məscidinə deyil, bütünlükdə dinimizə, inancımıza, müqəddəs kitabımıza böyük sayqı, milləti Zəfərə aparan sərkərdəyə güvənc, bir şair səmimiyyəti ilə qələmə alınıbdır. Ona görə də Ramiz müəllimin istər Milli qəhrəman Allahverdi Bağırova, istər professor Rafiq Əliyevə, lap elə birbaşa Ağdamın özünə etdiyi müraciətlərdə də həmin səmimiyyət, həmin inam və inanc həmişə qabarıq bir şəkildə özünü göstərir. Yəni şeiri oxuyanda ilk nəzərə çarpan məhz həmin o səmimiyyətdi, inamdı. Ona görə də mən bir oxucu olaraq Ramiz Məmmədzadənin poeziyasında bu cizgiləri daha çox müşahidə etmişəm, daha çox görmüşəm. Tutaq ki, onun "Ağdam haqqı, gəlirik eyy!" şeirinə nəzər salanda təkcə başlığın özü, yəni ad artıq səni həmin dediyim o duyğulara kökləyir. Başlıqdakı tam sadə, səmimi, qəti fikir şeirin bütün məzmununu üzə çıxardır:

***Ağdam, mənim varlığımsan,***
***Həyatımın əzəlisən!***
***Sən bizim Xan Qarabağın***
***Sevgili ağ gözəlisən!***

***Ağdam, sənə salam olsun***
***Türkün böyük əllərindən!***
***Gözlə, gəlib öpəcəyəm***
***Güllə dəymiş əllərindən!***
***Bu döyüşlər - taleyimiz!***
***Cəngdə pələng balasıyıq!***
***Allah haqqı!***
***Ağdam haqqı!***
***Ağdam! Sənin***
***Qisasını alasıyıq!***
***Ağdam!***
***Ağdam!***
***Allah haqqı, Adın haqqı***
***Gəlirik eyy!!!***

Bəli, müəyyən hissələrini sizə təqdim etdiyim bu şeirin yaratdığı ovqatı hər kəsin öz ixtiyarına buraxıram. Yəni siz necə qəbul etdinizsə, özünüz bilərsiz. Amma mən bu andın səmimiyyətinə, bu çağırışın, bu bəyanatın gerçəkliyinə inanmışam və bu gün də inanıram. Və mənə görə hardasa, böyük qələbəmizdə bu və bu tipli çağırışların rolu danılmazdır.

Mən Ramiz müəllimlə bağlı fikirlərimi bilgisayara diktə edəndə yadıma bir xatirə də düşdü. Deməli, 1994-cü ilin yayı idi. Görüşdük. Təbii ki, əsas mövzumuz olan Qarabağdan, qaçqınçılıqdan, sonra da yazı-pozudan danışdıq. Sözarası Ramiz müəllim dedi ki, Biləsuvar çadır şəhərciyində sənin dostun ilə qarşılaşdım. Çadırında bir stəkan çay da içdik. Xeyli söhbət etdik. Çox maraqlı adamdı...

Diqqətlə üzünə baxdım. Ramiz müəllim özünəməxsus təbəssümlə fikrini tamamladı:

- Vahid Əlifoğlu çox maraqlı şairdi. Şeirləri də əladı. Özünə də dedim. Yazsın, yazılan qalacaq!

Bəli, mən indi həmin xatirəni yaddaşımda təzələyəndə onu da qeyd etməliyəm ki, rəhmətlik unudulmaz şair dostum Vahid Əlifoğlu da Ramiz müəllimlə bağlı isti bir təəssürat bölüşmüşdü mənimlə. İndi hər ikisi cənnətdə olan şair dostlarımın, qardaşlarımın yaddaşımda qalan, ömrümə hopan xatirələrini, söhbətlərini göz önündən keçirə-keçirə bir əminliyimi ifadə etmək istəyirəm. Həqiqətən yazılan qalır, həqiqətən yazılan yaşadır. Ona görə də Ramiz Məmmədzadənin bir şeirində dediyi kimi:

***Məndən bir gün qaçasıymış bu ömür,***
***Harda olsam, onu gəzdim, hayladım.***
***Sən demə, od parçasıymış bu ömür,***
***Zərrə-zərrə, gilə-gilə payladım.***
***Bir ömürdü,***
***o da keçdi beləcə...***

***Yox, sən demə, bu dünyanın yolunu,***
***Necə tutsan əvvəl-axır bir imiş...***
***Bu qismətdi, mənim ömür qələmi***
***Öz bəxtimin yarpaqları bürümüş...***
***Bir taleydi,***
***bir ömürdü beləcə...***

Bu yazının bu gün üçün, bu an üçün sonuna gəlib çıxdım... Və bu sonluğa gəlib çatana qədər anladım ki, bu da elə bir ömürdü beləcə. Xatirələrlə, xəyallarla, gerçəkliklə və bir də şeirlə keçən bir ömür...

**ƏBÜLFƏT MƏDƏTOĞLU**

# Elektron işə qəbul şəffaflığı necə təmin edir?

**"İşə qəbul" altsisteminin tətbiqi yalnız texnoloji yenilik deyil, eyni zamanda dövlət səhiyyə sistemində uzun illər mövcud olmuş bir sıra fundamental problemlərin həllinə yönəlmiş strateji islahatdır. Sistemin səmərəli tətbiqini təmin etmək məqsədilə Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) müvafiq qurumlarının məsul əməkdaşları üçün genişmiqyaslı təlimlər təşkil edilib.**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan "Sağlam radio"da Rəqəmsal Səhiyyə Mərkəzinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Sevinc Məhərrəmova deyib.

Onun sözlərinə görə, yeni rəqəmsal platformanın tətbiqi nəticəsində işə qəbul prosesində yalnız namizədlərlə müsahibə mərhələsi fiziki olaraq müvafiq tibb müəssisəsinin inzibati binasında həyata keçirilir:

"Vakansiyanın elan olunması, namizədlərin müraciətlərinin qəbulu, ilkin və yekun seçim mərhələləri, eləcə də nəticələrin açıqlanmasına qədər bütün proseslər tam şəkildə elektron mühit üzərindən icra olunur. Bu yanaşma işə qəbul prosesinin hər bir mərhələsində şəffaflığın, obyektivliyin və bərabər imkanların təmin edilməsinə xidmət edir. Müraciətlərin qəbulu, sənədlərin yoxlanılması və mərhələlərin idarə olunmasının tam avtomatlaşdırılması




subyektiv qərarvermə risklərini aradan qaldırıb, bütün namizədlərə vahid və bərabər meyarların tətbiqi olunmasını təmin edib. Bununla da seçim prosesində obyektivlik və ədalətlilik əhəmiyyətli dərəcədə gücləndirilib".

S.Məhərrəmova bildirib ki, proseslərin rəqəmsal mühitdə aparılması kağız daşıyıcılardan istifadənin minimuma endirilməsinə, kağız əsaslı əməliyyatların isə tamamilə aradan qaldırılmasına səbəb olub:

"Bu, həm resurslara qənaət, həm də prosedurların operativliyinin artırılması baxımından mühüm üstünlüklər yaradıb.

Elektron Səhiyyə platforması üzərindən müvafiq elektron xidmətə keçid etməklə namizədlər öz təhsil və peşəkar təcrübələrinə uyğun aktual vakansiyalarla tanış olmaq və müraciət etmək imkanı əldə edirlər. Ənənəvi üsullardan fərqli olaraq, rəqəmsal sistem bütün müraciətləri, yoxlama mərhələlərini və qəbul edilən qərarları real vaxt rejimində qeydiyyata alaraq tam izləniləbilənlik təmin edir.

Bu isə hesabatlılığın yüksəldilməsinə və proseslərin effektiv idarə olunmasına şərait yaradır. Nəticə etibarilə, həyata keçirilən bu islahatlar dövlət səhiyyə sisteminə ictimai etimadın artırılmasına xidmət edir və gələcək rəqəmsal təşəbbüslər üçün dayanıqlı institusional zəmin formalaşdırır".

Kamalə ABIYEVA

# HAMININ TANIDIĞI NAZİR

## və ya gələcəyə atılan güllə



**Müəllim illərdi müzakirə, tənqid və təhqir obyektinə çevrilib. Və illərdir bunun yaxşı nəticələr verməyəcəyini çıxışlarımda, yazılarımda vurğulayıram. İllərdir müəllim bir şagirdin, bir valideynin sözü, şikayəti ilə cəzalanır, işdən çıxarılır. Açıqca həmin müəllimin, məktəbin, başqa şagirdlərin hüququ pozulur. İlk dəfə belə xəbərləri eşidəndə diksindim. Qorxdum. Nəhayət, şagird məktəbə silahla gəldi, müəllimə güllə atdı. Müəllim ölmədi. Yaralandı. Gələn dəfə öləcək. Çünki yara üstünə yara aldı. İndi şagird araşdırılır. Amma bunu elə ilk dəfədən etmək lazım idi. O şikayət edən, hay-həşir salan ailələr, onların övladı araşdırmalı idi. Elə müəllim də. Müəllim həmişə haqlı olmadığı kimi, valideyn də həmişə haqlı ola bilməz. Və ailələr, eləcə də şagirdlər vəzifələri olduğunu anlamalıdır. Məktəb bu işdə günahkardır. Hamının məktəbin vəzifələrindən danışdığı bir vaxtda susur, ”sənin də vəzifələrin var” demirdi. Nəyin təsirindən, yəni səbəbindən asılı olmayaraq uşağın məktəbə silahla gəlməsi qorxuncdur. Bu təkcə müəllimə atılan güllə deyil. Bu müəllim peşəsinə, məktəbə, təhsil sisteminə, cəmiyyətə-gələcəyə atılan güllədi. Ara-sıra bir çox problemlərdən söz açırdım, çətin olacağını, yəni xaos olacağını hiss edirdim, amma bu qədərini gözləmirdim.**

Müəllimin nüfuzunun qorunduğu, müqəddəs olduğunu aşılayan bir ideoloji cəmiyyətimiz vardı. Birdən- birə müəllim tam hüquqsuz biri kimi təqdim olunduğu cəmiyyətə düşdü. Bircə şagirdin, valideynin sözü ilə cəzalandı, işdən qovuldu. Hələ də heyrətdəyəm ki, bir valideynin şikayəti ilə müəllimi necə cəzalandırmaq olar. ”Müəllimin nə ixtiyarı var uşağıma söz desin, əl qaldırsın? Gedib başına bir oyun açaram ki” kimi ifadələr yarışa çıxdı. Müəllimi müzakirəyə çıxarmaq olmazdı.

Mənim dibçəkdə gül böyütmək bacarığım yoxdur. Xatirə adlı bir qohumun var, evdə elə gözəl güllər bəsləyir ki. Kimsə dibçəkgülü yetişdirmək istəsə, məndən yox, ondan məsləhət alar. Yəni burda da təcrübə, praktik bilik əsasdı. Biz nə etdik? MM-də, müxtəlif vəzifələrdə yaşı 75-dən çox olanlar arxayınca oturduğu halda 65 yaşı olar-olmaz müəllimi işdən çıxardıq. Bunu bilən müəllim elə hesab edin ki, son illərini elə-belə başa vurur. Deməm ki, 65 yaşa çatanların hamısı yaxşıdı.Yox! Qətiyyən belə deyil. Amma aralarında bütün məktəbi ayaqda saxlaya bilənlər var. Onlar qalmalıdır. Bu direktorun vicdan məsələsidir. Belə müəllimlərin qalmasında israrlı olmalıdırlar. Amma TN direktorlara inanmır. Bilir ki, direktora səlahiyyət versə, rüşvət alacaq kiməsə saxlamaq üçün. Yaşlı nəsil getdikcə məktəblərdə vəziyyət yaxşılaşmadı ki... Cavan ol, istəyirsən sinifdə oynaya-oynaya, oxuya-oxuya, nə bilim başqa necəsə dərs keç, bu əsas deyil. Sözünün, hətta baxışının kəsəri olmalıdır müəllimin. O isə yoxdur. Aşağı sinifləri yola verək olur, 9-11-ci siniflərdə iş müşgülə dönür. Şagirdin ”Mən”i formalaşan çətin dövrdür. Hər müəllim, hər valideyn o Məni görə bilmir. Nəticə göz önündədir.



Məsələ bəlkə bütün dəhşəti ilə aydın deyil. Amma bir məktəbdə bir şagirdin əlində silah, məktəbə getməsi həlli mümkünsüz olan bir məsələdir. Nə qədər qınasaq da, kimi qınasaq da bu hadisə 12-13 yaşdan yuxarı bütün yeniyetmələrin yaddaşına iz saldı. Bu izi silmək çətin olacaq. Məsələ burdadı ki, dələduzluqda ittiham olunan, dərsliklərdə düşmən mövqeyinə görə, çox ciddi etik olmayan davranışlarına görə təhsil sistemindən kənarlaşdırılanlar, müəllim işləməyənlər, kənardan seyrçi olanlar, valideynlər, məktəbi yalnız şagird kimi tanıyanlar, təhsil prosesindən ciddi xəbərləri olmayanlar, bir sözlə hamı münasibət bildirir. Sual olunur: təhsili, məktəbin, müəllimin işini hamı belə bilirsə, niyə bu qədər nöqsan var? Deyəcəksiz TN günahkardı. Amma yox, təhsilə, məktəbə münasibət hər kəsin özündən başlayır. Bir, iki, üç uşağının tərbiyəsinə, dərsinə nəzarət edə bilməyənlər daim gileylənir, şikayət edir, günahkar axtarır. Və təhqiredici münasibət sərgiləyir sosial şəbəkədə.

Normal, yəni intizamlı, dərs oxuyan, məsuliyyətli şagirdin valideynləri məktəbi, müəllimi qınamır, dava-dalaş salmır. Hətta nizam-intizamlı, məsuliyyətli, çalışqan, amma zəif oxuyan şagirdlərin valideynləri də anlayışlıdır, uşaqlarının zəif oxuduğunu bilirlər, müəllimi qınamırlar. Belə şagirdlərin, ailələrin çox nadir hallarda müəllimlə problemi olur. Hətta müəllimlər belə şagirdlərə daim güzəştə gedirlər. İlk növbədə hər bir ailə, hər bir vətəndaş özünün məktəb, müəllim, təhsil sistemi qarşısında vəzifəsini başa düşməlidir. Axı, hər kəsin ağlı, düşüncəsi, tərbiyəsi və s. qarşı tərəfdən asılı deyil.. bu öz içdünyandı, öz ağlındı.

Ən gözardı etdiyimiz məsələlərdən biri valideynlərin münasibətidir. Hər valideyn məktəbə-müəllimə öz ağlından, uşağının psixolojisindən, ona olan münasibətdən baxır: Mənim uşağım zəif oxuyursa müəllim günahkardır. Dərsə getmirsə müəllim günahkardır. Müəllim şagirdə irad bildirdisə, günahkardır və s... Niyə? Hər məktəbdə yüzlərlə şagird oxuyur. Bir müəllim bir-neçə şagirdin xoşuna gəlməyə bilər. Təbiidir. Bu müəllimin dəyər ölçüsü olmamalıdır. ”Mənim uşağım bəyənmirsə, pis müəllimdir” deyə bir dəyər vahidi yoxdur. Övladına dərs deyən müəllimlər haqda məlumatın olmalıdır. Məlumatın olmalıdır ki, övladınla müəllimləri arasındakı münasibətə düzgün, obyektiv yanaşa biləsən. Müəllimin iradına diqqət yetirəsən, xahiş edəsən ki, uşağımın nöqsanlarını ört-basdır eləmə...

TN-nin də səhvi onda oldu ki, hər vidosu yayılan, bir valideynin narazı olduğu müəllimi cəzalandırdı. Təhsil nazirinin son günlərdəki çıxışına baxdım. Jurnalistlərə irad bildirir. Düzgün də edir. Amma mən illərdi bunu deyirəm, yazılarımda vurğulayıram. Yəqin səsimi eşitdilər. İndi mən deyəni deyir. Düşünürəm ki, nazir hətta bir az sərt olmalıdır. Məktəblərdə olan hadisələri icazəsiz paylaşmaq olmaz-deməlidir. Şişirdilmiş, doğru olmayan, tanışlıqla hansı məktəbi gözdən salmaq istəyən valideynlərin verdiyi xəbərləri yayımlayan jurnalistlərdən, saytlardan, heç olmasa MŞ-na şikayət verməlidir.

***P.S. Mən TN Emin Əmrullayevin müəllimi deyiləm, təqaüddəyəm. Onun haqqında deyilən mənfi fikirlərin çoxuna qatılmıram. Çünki kiminsə haqqında xoşagəlməz fikir söyləməyi ilk növbədə öz ağlıma, düşüncəmə yaraşdırmıram. Siz də bir düşünün. Amma bəyənsək də, bəyənməsək də hadisələrə münasibət bildirir. Nələrsə etməyə çalışır. Gördüyüm o ki, cəmiyyətə daha açıqdır, daha şəffafdır. Hamımızın görən kimi tanıdığı yeganə nazirdir. Biz heç nazirlərin çoxunu tanımırıq.***

**Xüsusi qeyd: TN-nə tanışlıqla, xahişlə kimisə işə götürmək olmaz. (Əslində heç yerə olmaz!). Ən azı 12-15 il müəllim təcrübəsi olanlar işləməlidir TN-də. Bu ciddi məsələdir.**



İlqar RƏSUL

# GİTARA

Hekayə

Hər şey gözlənilmədən oldu. Qəfildən yeni. Ovaxtadək alan bir yana, heç mənə baxan da yox idi...

O qədər laqeyd idi ki, bu məmləkətdə hamı mənə, hərdən düşünürdüm, axı mən burada nə gəzirəm? Kim gətirib çıxardıb məni bura? O qədər öyrəşmişdim ki, lazımsızlığıma, dükana təşrif gətirən olanda, o biri alətlər kimi, içimdə qurcalanıb gələni təpədən-dırnağa süzməyə də həvəsim qalmamışdı. Bilirdim ki, başqasına görə gəlib. Elə də olurdu. Hər kəs içəri girən kimi keçirdi öz istədiklərinin qarşısına, baxırdı, seçirdi, sövdələşib götürürdü, gedirdi. O saat da digərlərinin pıçapıçı başlayırdı: nə olsun bizə baxmadı, bizi seçmədi, gün hələ yenicə başlayıb, bizim də sahibimiz gəlib çıxar.

Elə də olurdu, axşamacan kimlərsə gəlir, nələrisə seçib götürür, alıb aparırdılar. Gedənlər qalanlara tezliklə yaxşı sənətkara qismət olmağı arzulayırdılar. Gün ərzində ən azı dörd-beş belə vidalaşma olurdu. Mənsə bütün bunlara seyrici qalırdım. Nə dükana gələnlərdən ümidverici bir baxış görür, nə də gedənlərdən xoş arzu eşidirdim. Bir gün O gəldi. Hündür boyu, az qala çiyninə düşən qara, dağınıq saçları, səliqəsiz görkəmi ilə qapıdan içəri girən kimi, düz üstümə yeridi. Qarşımda dayanıb diqqətlə mənə baxdı, baxdı, qəfil gəldiyi kimi də, çıxıb getdi. Davranışından, baxışından ağıllı-başlı adama oxşamırdı. Biz az da dəliləri xatırladırdı. O gedən kimi pıçhapıç başladı: bu kim idi belə, heç bizə sarı baxmadı da. Dəlidi əşşi, fikir verməyin...



Düzü, pıçhapıçlardan pis olmuşdum. ”Min ilin başında kimsə gəlib sənə baxsın, o da belə, dəlinin biri”- düşünürdüm. Amma içimdə bir sevinc də gizlənirdi: İlahi, necə məhəbbətlə, ehtirasla baxırdı mənə. Sanki əlinə keçsəm, bağrına basb sümüklərimi sındıracaqmış kimi.

Bir həftə sonra yenə gəldi. Yenə də keçəndəfəki kimi. Nə ona yaxınlaşıb bir istəyi olub-olmadığını soruşan sahibimizə məhəl qoydu, nə də başqalarına baxdı. Düz gəlib qarşımda dayandı, sanki gözlərini mənə yox, hansısa məbədə dikibmiş kimi heyran-heyran baxdı, baxdı, əlini uzadıb barmaqları ilə xəfifcə simlərimə toxundu. Barmaqlarının təması içimdən sehrli bir səs keçirtdi. Məndə elə səs olduğunu heç bilmirdim. Sanki min ilin doğmasının sığalı keçdi üzərimdən. Sığalladı, qoxulayırmış kimi üzünü lap yaxınıma tutdu, tutdu, aralanıb kənardan yenə baxdı, çıxıb getdi. Əslində istəmirdim o cür hərəkətlər eləsin. Bilirdim ki, kənardakılar onun hər hərəkətinə fikir verirlər. Gedən kimi yenə başlayacaqlar - dəlidi, hiss olunur ki, pulu da yoxu - deyib, pıçıldaşmağa. Elə də elədilər, bir neçə gün mövzu ancaq o oldu. Xətrimə dəyirdi, istəmirdim onun haqqında elə desinlər, amma dillənə də bilmirdim, çünki adam doğrudan da bura gələnlərin heç birinə oxşamırdı. Pulunun olmadığını mən də hiss etmişdim düzü, amma yenə də çox ümidləndirmişdi məni...

Ta bir də gəlmədi. Yavaş-yavaş unuduldu. Yenə hər şey əvvəlki məcrasına qayıtdı. Yenə mən gəlmələrə, getmələrə, vidalaşmalara, arzulaşmalara seyrici oldum. İçimdə yaranan xırdaca ümid də yox olub getdi.

Qışın son günləri idi. Bayırda gözəl hava vardı. Pəncərələrdən içəri dolan günəş bizi əməllicə isidirdi. Nahar vaxtı idi deyə hamı mürgüləyirdi. Bilirdik ki, günün bu vaxtı qapıda ”nahar fasiləsi” adlı lövhə asılır və o götürülməyincə heç kim dükana təşrif gətirmir. Birdən qapı döyüldü. Sahibimiz ”axı nahar fasiləsidir” deyib, gileylənə-gileylənə qapıya getdi. Belə hal çox az-az olsa da, arada yaşanırdı. Və sahibimiz gedib qapını açır, ”saat ikidən sonra gəlin” deyib yenə bağlayırdı. Bu dəfə nədənsə, elə demədi, əksinə, qapını açan kimi ayrıca canfəşanlıqla, ”nə xoş təsadüf, buyurun maestro, keçin içəri” deyib, kənara çəkildi. İçəridəkilərin yuxusu qaçdı, hamımız həvəslə qapıya diqqət kəsildik. Bir anın içində anlamışdıq ki, gələn kimdirsə, çox mötəbər adamdır. Dükana uca boylu, parıldayan qara saçları arxaya daranmış, şıx geyimli ahıl bir kişi daxil oldu. Hamı içində qurcalanırdı. Belə birinin hansımızısa alıb aparması, hər birimizin xəyal etdiyi xoşbəxtlik olacaqdı onunla gedən üçün. Hamı ona zillənib qalmıdı ki, gözlənilmədən arxasınca həmin o cavan oğlan- mənim heyranım da içəri girdi. Aralıdan əlini uzadıb məni nişan verərək ”maestro” adlanana nəsə dedi. Dükanda hamı təəccüblə mənə baxırdı. Lap yaxına gəldilər, qarşımda dayanıb baxdılar, baxdılar, maestro məndən gözünü çəkmədən sahibimizlə sövdələşdi. ”Deyəsən bəxtim açılıb”- düşünürdüm ki, heyranım məni divardakı dayaqların üzərindən götürdü, bağrına basıb səsimi yoxladı və çevrilib qapıya sarı yeridi. Özü ilə aparırdı məni. Necə çaşmışdımsa, qalanlarla sağollaşa, nələrsə arzulaya bilmədim.

Beləcə, mənim bu yad məmləkətdə qızıl dövrüm başladı. Onun sayəsində tezliklə hamı tanıdı məni. Bütün toylarda, el şənliklərində, konsertlərdə yuxatrı başa keçirildim. Dükandakı qonşularımı da tez-tez görürdüm. Onların ən məşhurları belə, məndən sonra yer alırdılar mərasimlərdə. Televizorda tez-tez məni göstərirdilər. Böyük konsert zalları belə mənsiz başlamadılar öz proqramlarını. Üstümə ətək-ətək pullar tökülürdü el şənliklərində...

Mən çox xoşbəxt idim. Bilirdim ki, bu məşhurluğu mənə gətirən özüm yox, onun məharətidi. Və buna görə ona minnətdar idim. Düzdür, bəzən nəsə xoşuna gəlməyəndə alacağı puldan da keçib toyu, konserti yarımçıq qoyaraq getməyi, böyük-böyük adamlar arxasınca düşüb nə qədər xahiş etsələr belə, geri qayıtmamağı və bununla məni üzməyi də var idi. Amma o bunu dəlilikdən etmirdi. Yox, o dəli deyildi. Dükandan ayrıldığım ilk günlərdən anlamışdım bunu. O bir dərviş idi. Pulu, var-dövləti, maddi nemətləri, bütövlükdə bu dünyanı eyninə almayan, öz dünyasını yaradıb onun içində yaşayan dərviş...

Uzun illər bir yerdə olduq. Heç ayrılmadıq. Çətin, ağır günlərimiz də oldu. Amma heç nə birgə xoşbəxtliyimizə xələl gətirə bilmədi.

Hərəmiz öz könlümüzcə xoşbəxt idik birlikdə. Bir gün o daha olmadı. Ayrılıq bizi də ayırdı və mən onsuz qaldım. Amma bu ayrılıq məni bir vaxtlar musiqi alətləri dükanında divardan asılıb qaldığım qədər kimsəsiz etmir. Bütün bu illər ərzində ikimiz birlikdə o qədər bizlər yaratmışıq ki, bundan sonra mənim bu məmləkətdə doğmalığıma çətin ki, kimsə, nəsə yadlıq gətirə bilə. Amma əlbəttə ki, bu doğmalığa mənim yox, onun varlığının səbəb olduğunu da yaxşı bilirəm...

...Hə, az qala unudacaqdım: o vaxt dükanda içimdən keçən naməlum, sehirli səs doğrudan mənim səsim deyilmiş, onun ürəyinin səsi imiş. Bunu sonralar, hər dəfə onun sinəsinə sıxıldığımda anladım. İndi bütün gitaralarda o səsə oxşar səslər var. Adına da ”Rəmiş barmaqları” deyirlər...

**Bakı,**
**aprel 2021**

Əlizadə Əsgərli
Filologiya elmləri doktoru



# Yeni cığır, yeni üslub, yeni söz...

**Yazıçı, memuarist Dilarə Adilgil AMEA Ədəbiyyat İnstitutu, XX əsr (sovet dövrü) şöbəsinin əməkdaşıdır. Adilgillərin nəsil şəcərələrinin davamçısı və təbliğatçısıdır. O, oxucular arasında xatirə-memuar yazarlardan biri kimi tanınıb. Dilarə xanım bu sahədə "Şərqdə 36 gün və ya üç dəniz arxasına səyahətim", "Həyat fraqmentləri. Düşüncələrin monoloqu", "366 gün və ya uzun ilin inancı", "Bədii-publisistik məqalələr" adlı kitabların müəllifidir.**

Dilarə xanımın yaradıcılığı ilə tanışlığım belə başladı... O, jurnalımıza "Şuşa ili" üçün "Hər baxımdan zirvə - Şuşa" adlı məqalə göndərmişdi. "Akademiyanın Şuşanaməsi: ədəbi-tarixi ənənə və gələcəyə baxış" adında beynəlxalq konfransı üçün. Məqaləni oxudum. Marağıma səbəb oldu. Hər şey yerində: yazı üslubu, təhkiyə, fakt, emosiya, struktur və intonasiya... Məmnun qaldım. Məqaləni konfransın materialları sırasına daxil etdim. Aradan müəyyən vaxt keçdi...

Bir gün iş otağımın kitab rəflərini arayırdım. Birdən gözümə iki kitab dəydi. Biri "Şərqdə 36 gün və ya üç dəniz arxasına səyahətim", o biri "Həyat fraqmentləri. Düşüncələrin monoloqu". Müəllif hədiyyəsi idi. Maraqlandım. Dilarə xanımın "Hər baxımdan zirvə - Şuşa" adlı məqaləsi ilə tanışlığım vardı axı."Həyat fraqmentləri. Düşüncələrin monoloqu" kitabını əlimə götürdüm. Redaktoru və ön söz müəllifi filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı idi. Ön sözün adı marağımı çəkdi: "Altmışıncıların altmış illiyinə". Yadıma düşdü... Oxudum. Məqalə belə bu abzasla tamamlanırdı: "Əziz oxucu, uzun danışmaq istəmir, Səni maraqla oxuyacağın bu əsərlə baş-başa qoyur, yaddaşındakıları səxavət və səmimiyyətlə bölüşən müəlliflə ünsiyyətdən darıxmayacağına söz verirəm. "Keçmişə vizual vizan var". İokio baba kimi sehrli xalat geyinməsən də, həm 60-cı illərə, yeri gəldikcə daha yaxın və uzaq tarixə səyahət edəcək, Sənin də yanından keçdiyin, fərqinə varmadığın hadisələri xatırlayacaqsan.Təkcə addımlarınla daş küçələrin təmasından alınan mistik səsin aurasında İçəri şəhərdə deyil, qədim Şəki, Gəncə, Bərdəyə də gedəcək, yeri gələndə ölkə xaricinə də vizual səyahət edəcəksən. Yolunuz açıq olsun. Sözümü müəllifin xatunlara məxsus duasıyla bitirirəm. Hər zaman dövlətli olaq: dünyəvi, ruhani, mənəvi, maddi".

Kitab yazıçı-publisistin öz çağdaşlarına ithafnaməsidir. Publisistik mətndə belə bir epiqraf verilib: "Bizi bilməyən nə bilsin? Bilənlərə salam olsun!" Müdrik və pirani Yunus İmrədən... Doğrudan da, zamana, ömrümüzə, bizi bizdə bilənlərə salam olsun!

"Həyat fraqmentləri. Düşüncələrin monoloqu" kitabı hansı məziyyətlərdən alınıb? Ötüb keçən xatirələr talan olmasın deyə, müəllif vaxtı tutub saxlayıb, qələmə, yaddaşa israrla ilişdirib: "Memuar yazmaq spesifik yaddaş istəyir, bunu yazım əsnasında özüm kəşf etdim. Keçmiş tək xatirələri ilə çəkmir, reseptorların sayəsində rəngləri, ətirləri ilə də cəlb edir. Gözləri qapalı özünü xatirələrin sərəncamına vermək, ixtiyarına buraxmaq "oralarda" azmaq üçün gözəl vasitədir..."

Müəllif kifayət qədər məlumatlı, informasiyalıdır və onun ifadəsinin öz ahəngi, öz ritmi, öz intonasiyası var. Vətən sevgisinin duyğusallığı müəllif ruhunun, müəllif qəlbinin diqtəsidir həm də... Bakının müəllifdən gələn hüsn və vəcahəti əlvan qövsi-qüzehdən keçsə də: "Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim" deyə - Süleyman Rüstəm nidasından yuvalanıb.Və bu sevgidən, bu gözəllikdən müəllifin çeşidli bədii, faktoloji, obrazlı, mühakiməli, qavrayışlı, təsəvvür və təxəyyüllü, emosional-psixoloji yazı mətni getdikcə budaqlayıb, artıb çoxalıb... Çiçəkləyib... Bir yarpaqlıq yaşıllıq: "Sovet dönəmində biz türk filmlərini yalnız festivallarda görürdük, o da rus dilində sinxron tərcümə ilə. Diqqətlə qulaq asırdıq ki, bəlkə türk dilində nə isə eşidək. Türkiyə türkcəsinə həsrət idik, həsrət qoymuşdular. Osmanlı, Anadolu türkcəsi qulağımıza bulaq şırıltısı kimi gəlirdi".

Həyata, düşüncələrə köklənmə, daxili monoloqlar mətn boyu davam edir. Müəllifin spesifik, emosional ehtizazları, nəqletmə təhkiyəsinin istiliyi, leksikon zənginliyi də diqqəti cəlb edir. Kitablardan, kinolardan, teatrlardan, muzeylərdən, məbədlərdən, məscidlərdən, şeirlərdən, nəğmələrdən çox şey gəlir Dilarə Adilgilin bədii mətninə: ahəngdar ədəbi dil... Dialekt, ləhcə özəllikləri, şirinlikləri də öz yerində.

Müəllif tez-tez fraqmentləri dəyişib, gah Bakının, gah Şəkinin, Qaxın, Qubanın, gah da İstanbulun monoloquna başlayır; 60-cı, 70-ci, 80-ci, 90-cı illərin oxucu ilə həsbihalı, uğurları, qüsurları, fraqmentlərin tez-tez dəyişməsi, yaxınlara-uzaqlara, geriyə-önə qayıdışlar, həyat və romantika, xeyir-şər, toy-yas, adət-ənənə mərasimləri, anları, anımları, nostalji hisslər...

İçərişəhər...Vaqif Mustafazadənin mənzili... Tahir Salahovun mənzil muzeyi... "Üç mərtəbədə yerləşən mənzil-muzey həm quruluşu, həm də ekspozisiyası ilə fərqlənir və diqqət çəkir. Rəssamın foto-arxivi səni haralara aparır, nələri yadına salır, hansı naməlumları açıb tökür, - bir ayrı söhbətdir. Monoxrom - ağqara fotolar hərəsi bir obrazdır, foto sənətinin poeziyasıdır, tamaşaçı ilə səssiz dialoqudur, keçmişə agahlıq gətirməklə gələcəyə də şahidlik edir"... Uşaqlıq illərinin nağıl kitabı... "Kəlilə və Dimnə"dən, Şəmsi Təbrizidən, Mövlanadan, Yunus İmrədən, Mirzə Cəlildən, Sabirdən, Mehmet Akif Ərsoydan, Vurğundan, Baba Pünhandan, Vaqif Səmədoğludan, Qabildən, Ramthadan, Ramiz Rövşəndən qanad açan, qanad bağlayan fikirlər, düşüncələr...

Dilarə Adilgil xəyal, təxəyyül rənglərini, şirin, həzin yumor, şəkər çalarlarını, qiymətləndirmə, dəyərləndirmə momentlərini, paralellər və müqayisələr uyuşmasını təbii, yerində verib, adi olanları, ali olanlarla müqayisəyə gətirib, informasiyanı halbahal genişləndirib: "Nədənsə, bu kiçik pişiklər mənim yadıma Notr-Damın qarqulyalarını saldı. Yəqin ki, belə xatırlatmaya səbəb yapının qotika üslubunda işlənməsi, heyvanların dama yaxın yerləşməsi idi. Sehranə xanım bu heykəlciklərin gözlə görünməyən fəlsəfəsinə qərq olmuşdu, məna içində məna axtarırdı". Bu mənada kitab başdan-başa informasiya duracaqları, dayanacaqlarıdır. Bir etnoqrafik, arxitektonik, memorial informasiya: "Bakının əfsanəvi meri Əliş Ləmbəranski Bakını hündürlüyünə yox, eninə böyüdürdü. Binaların ucalığı şərt deyildi, tikinti işində əsas məsələ Bakının yelçəkənindən - xəzri-gilavarından təbii kondinsioner kimi əlverişli istifadə etmək idi. Bu şəhər bizim hamımızın evidir. Evə baxmaq onu ağzına qədər mebellə doldurmaq demək deyil. Əgər Əliş Ləmbəranskinin rəhbərliyi dövründə paytaxtımız öz renessansını yaşamışdısa, 15 il inqilaba qədərki Bakının burqomistri olmuş Stanislav Despot-Zenoviçin zamanında Bayır şəhər salınmış, Bakı qəza olmaqdan çıxıb, quberniya statustu qazanmışdı"... Zivərbəy Əhmədbəyov "Bakının tikinti tempinin Nyu-Yorku qabaqladığını "xüsusilə vurğulayırdı. Bu olub Cümhuriyyət dövründə. İndi o dövrdə tikilən hər bina fəxr yerimizdir". Müəllif retrospeksiyadan yerində, geniş və əhatəli istifadə edib.

Yazıçı tarixə yanaşmada, çağdaşlığa baxışı ifadə edəndə bəzi tarixi daşlaşmaları, etnoqrafik cizgiləri də unutmayıb, onlara toxunmayıb, onları olduğu kimi saxlayıb. Böyük messenat Hacı Zeynalabdin Tağıyevin adının əbədiləşdirildiyi küçədə, Hacının evi ilə üzbəüz Beynəlxalq Bankın filialı yerləşir. Üstündə köhnə slavyan kiril qrafikası ilə BANKC sözü həkk edilib. "Bu kiçik retro-epizod hər gördüyümdə məni keçmişə aparır... Dərhal gözümün önündə bankın qarşısında dayanan konkalar, "cavanların İngilistandan, Firəngistandan qollarına keçirib gətirdikləri" enli şlyapalı "havalı" ma-



tişgələr, çəlikli intelligentlər, beli tapançalı qoçular, qəzet satanlar, çadralı qadınlar canlanır, varmış kimi görünürlər. "Məşədi İbad" filmi, "Ordan-burdan" tamaşası yadıma düşür. Deyəsən, Hacını da gördüm, binaya girdi"...

Bu kitabı şəxsi-sosial memuar saxlancı da adlandırmaq olar. Burada müəllif özündən, valideynlərindən, nənə-babalarından, professor Musa Adilovdan, əlyazmaşünas Məmməd Adilovdan, onların qohum-əqrabasından, əhatələrindən, ailə-məişət işlərindən, işdəhlərindən yazıb. Xatirələr saxlancında 1980-ci illərin universitet həyatı, filoloji biliklər... Müəllifin 1979-cu ildən sonrakı Şəki həyatı, onun etnoqrafiyası haqqında düşüncələri özünə yer alıb: "Azərbaycan ərazisindən keçən Böyük İpək Yolu əlverişli məntəqədə yerləşən Şəkidə ipəkçiliyin, xüsusən, kəlağayıçılığın inkişafına böyük təsir göstərmişdir. Şəki ipəyindən istehsal edilən kəlağayı respublikamızın milli, mədəni vizit kartı, brendi kimi imicini dünya çapında çoxdan qazanmışdır. Daim pusquda dayanan oğru qonşularımız öz adlarına çıxmasınlar deyə, kəlağayı birinci xanım Mehriban Əliyevanın milli təəəsssübkeşliyi sayəsində Azərbaycan incəsənətinin nümunəsi kimi 2014-cü ildə UNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmişdir".

Şəkinin tarixi, etimologiyası, coğrafiyası, memarlığı, sənətləri, həyat tərzi, vərdişləri ilə bağlı obrazlı monoloqlar da munisdir. Dilarə xanım salnamələrə əsasən, bu şəhərin əsasının 2600 il bundan əvvəl olduğunu göstərib. Nuxanı Lev Tolstoy, Aleksandr Düma, rəssam Jan Pyer Muane, general Aleksandr Rayevskinin ziyarət etdiyini xatırladıb. Ədəbiyyat və incəsənət adamları da Şəki haqqında qiymətli fikirlər söyləyib. Müəllif bu fikirlərdən bir neçə çeşni də verib. Düma yazıb: "Nuxa şirin bir şəhərcik, bizim nəzər nöqtəmizdə məftunedici bir kənddir. Bura istirahət zonası olub, insanların bulaqlar başında sərinlik tapdıqları yerdir". Muane yazıb: "Nuxa mənim həyatım boyu gördüyüm gözəllər gözəli bir kənddir... Nuxa yer üzünün elə guşələrindəndir ki, insan ömrünün qalan hissəsini də burada keçirmək istəyir". Müəllif Şəkinin populyarlığının artdığını, ölkənin aparıcı turizm məkanlarından birinə çevrildiyini, hətta dünya prezidentlərinin Şəkini ziyarətini də yada gətirib. Müəllif Şəki Xan sarayı və şəhərin tarixi hissəsinin UNESKO-nun qeyri-maddi irsi siyahısına daxil edilməsi müjdəsini elə Şəkidəykən alıb, xalqın sevincinin şahidi olub.

Yazıçı-publisist memuarında tolerantlıqdan, multikulturallıqdan da danışıb: "Bu bölgədə Qafqaz Albaniyasına məxsus məbədlər çoxdur. Kişdəki Müqəddəs Yelisey məbədi isə onların anası sayılır". Norveç arxeoloqu və səyyahı Tur Heyerdalın Kiş məbədinin aşkara çıxarılmasında xidmətləri böyük olub...

Memuar müəllifi Qax, Quba-Qusar bölgələrindən, Xınalıqdan monoloqlar da verib. Hətta bizi 1990-cı illərin də fraqmentlərindən keçirib.

Doğma ana dili, qütsal din münasibətlərinə də toxunulub, Qurani-Kərimdən, Peyğəmbərdən (s.a.s.), Həzrəti Əli əleyhissəlamdan sitatlar gətirilib. Ramazan bayramı yada salınıb... Hamısı təbii, hamısı öz yerində...

Əsərin sonunda müəllif - "Sözardı"da ad günlərinin dadını, oxucusuna rəğbətini, insana xitabını, onların hikmətlərini gözaltına toplayıb, bütün olayları, fraqmentləri, monoloqları, düşüncələri daraldıb, sonuclayıb... I və II şəxsin təkinə aid olan lirik-emosional, psixoloji-mənəvi təsvir-təhkiyə axarlarının əlini-ətəyini düyünləyib... Bir sözlə, bir əsrlik epoxanın yaşamı...

Bir qədər də, Dilarə xanımın digər əsərləri barədə... Memuarist "Şərqdə 36 gün və ya üç dəniz arxasına səyahətim" adlı kitabında İordaniyaya səyahət edib, poetik, lirik-emosional mətndə mənəvi-psixoloji və ruhani ehtizazlarını dillləndirib.

Ölkənin mifologiyası, arxeologiyası, etnoqrafiyası, tarixi, coğrafiyası və mədəniyyətinin yaddaş məqamlarını vərəqləyib, onun çağdaşlıq və romantikasını qələmindən ötürüb.

Paulo Koelyonun sözləri ilə desək, mənə və mahiyyət üçün proloq verib: "Doğulduğumuz andan ölənə qədər həyatımız davamlı bir səfərdir. Mənzərə dəyişir, insanlar dəyişir, ehtiyaclar dəyişir, amma qatar həmişə hərəkətdə olur. Həyat bir qatardır. Qatar stansiyası deyil".

Memuarda - şəxsi-ictimai xatirələr fonunda yazıçının şahid olduğu çəhrayı nağıla, tarixin itirdiyi şəhərə doğru gedirik, "qırmızı qızılgül rəngli şəhər"lə, "qırmızı səhra" ilə, möhtəşəm Petra ilə üzləşirik, "Aylı Vadi"dən - Vadi-Ramdan, ellinizmin Filadelfiyası Ammandan duyğulanırıq, Məşriqin Pompeyi - Caraşı, İordaniyanın ikinci böyük şəhəri Zərqanı, Dauntaunu qavramağa səy edirik, Misiri - Aralıq dənizinin su pərisi İskəndəriyyəni, Qahirəni, Madini keçirik, sağ və sol sahili birləşdirən "Qəsr əl-Nil"i, Ehramlar möcüzəsini, Böyük Sfinksi, turist şəhəri Madabanı anlayışla qarşılamağa çalışırıq, Türkiyənin Zəfər bayramını duyğusallıqla ciyərlərimizə, nəfəsimizə çəkirik, Qırmızı dənizə yeganə çıxış, yeganə dəniz limanı Akabada dayanırıq... Çünki Dilarə Adilgilin "qatarı" burda dayanır, nəfəs alır, yeni nəfəs götürmək üçün vaxta ehtiyaclı qalır: "Bu da sentyabrın 5-i... Mən burada başlayıb, burada bitirdiyim rəngbərəng avqust ayını Jordanda qoyub al-əlvan sentyabrı özümlə Bakıya aparıram. Yay da yola hazırlaşır, mən də..."

Dilarə xanım bu səyahətində arzu və romantikasını, duyğu və düşüncələrini, mənəvi-psixoloji və ruhani hallarını riqqətə gətirib. Bədii mətnin strukturuna proloq, epiloq, epiqraf əlavə edib, Quran ayələri, hədislərdən faydalanıb, hətta Heredotdan, habelə Fateh Sultan Mehmetdən, Heydər Əliyevdən, Mahatma Qandidən, Cübran Xəlildən, Lev Tolstoydan, Q.Q.Markesdən, Mehmet Akif Ersoydan, Bernard Şoudan, Pablo Pikassodan, Nazim Hikmətdən, şeir mətnlərindən, film dialoqları, monoloqlarından, hətta internet saytlarından sitatlar verib, əlvan təsvir və ifadə vasitələrindən istifadə edib. Nəsr təhkiyəsinə əlvan rənglər, çalarlar, çeşnilər gətirib... Bir sözlə, bədii mətnin mükəmməl şəbəkəsi, sənət şəbəkəsi...

Professor Bədirxan Əhmədov "366 gün və ya uzun ilin inancı" əsərinin "Qorxunc və möhtəşəm bir ilin bədii xronikası" adlı ön sözündə Dilarə Adilgilin yazılarında yeni bir janrın əlamətlərini gördüyünü nəzərə alaraq yazıb: "Dilarə Adilgilin bu əsərində yeni bir üslub var; bu üslub ədəbiyyatımızda heç alışmadığımız bir üslubdur. Yəni yazıçı özünün baş qəhrəman olduğu əsərdə bədiiliklə memuar ədəbiyyatını, publisistikasını bir araya gətirir. Qəhrəmanın düşüncə axarı dinamikdi, bir yerdə ilişib qalmır, daim hərəkət edir, həyatın romantikası ilə realizmini özündə birləşdirir"...

Bu roman 2020-ci ili - karantin və müharibə, qorxunc pandemiya və 44 günlük İkinci Qarabağ savaşı, "2020-nin bədii-publisistik xronikası" ilə əks etdirib. Olayların mərkəzində isə müəllif "Mən"i, müəllif "Öz"ü dayanıb.

Professor B.Əhmədli yazıb: "Yazıçı torpaqlar azad olunduqca xalqın əyilmiş belinin necə qalxdığını, bükülmüş dizinin necə düzəldiyini, qısalmış dilinin necə uzandığını döyüş uğurları ilə bildirir... Azərbaycanın müharibədən qalib çıxmasını, ermənilərin düşdüyü eyforik vəziyyəti bəzən ironik, bəzən sarkazmla ifadə edir".

Dilarə Adilgilin bir kitabı da "Bədii-publisistik məqalələr " adlanır. Nəşrin redaktoru professor Şirindil Alışanlı, ön sözün müəllifi filologiya elmləri doktoru Günay Qarayevadır. Kitab ön söz, məqalələr və esselərdən ibarətdir. Günay Qarayeva kitabın "Bədiiliklə gerçəkliyin publisistik axarı" adlı ön sözündə yazıb: "Janr məsələsi Dilarə xanımın yalnız nəsr əsərləri üçün xarakterik deyil, qarışıq janr tiplərinin differensiasiyası onun bədii-publisistik məqalələrində də müşahidə olunandır. Bədii yaradıcılığında müxtəlif terminlərin vəhdəti və nəsr texnologiyasının ənənəvi prinsip və sərhədlərinin dağılması, dili müəyyən norma və çərçivələrdən azad etməklə ona sərbəstlik hüququnun verilməsi Dilarə xanımın bu vaxta qədər çap olunan bədii əsərlərində əsas nəzərə çarpan cəhətlərdəndir".

**Beləliklə, şərh vermədən ümumiləşdiririk ki, Dilarə Adilgil yazıçı, publisist və memuarist kimi ədəbi mühitdə tanınmış söz sahibidir. Onun əsərlərinin özəl üslub dəyərləri vardır ki, bu da bədii nəsrimiz üçün əhəmiyyətlidir. Gənc yazarlar Dilarə Adilgilin poetikasından sənətin gizlinlərini bədii həssaslıqla öyrənmək imkanı əldə edə bilərlər. Müəllifə daha böyük yaradıcılıq uğurları arzulayırıq.**

## Günay Əfəndiyeva: "Nizami və Nəvainin "Xəmsə"lərini bir araya gətirməklə müxtəlif layihələr həyata keçirmək mümkündür"



**"İllər keçir, əsrlər keçir, insanlar dəyişir, nəsillər dəyişir, amma mədəniyyət qalır, söz qalır. Nəvainin sözləri ilə desək, "Söz bir incidir ki, onun dənizi bir könüldür".**

Bu sözləri Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva böyük özbək şairi Əlişir Nəvainin doğum günü və 585 illiyinin tamamlanması ilə bağlı açıqlamasında deyib.

Günay Əfəndiyeva Azərbaycan və Özbəkistan arasındakı tarixi bağlardan, keçmişdən bu günə strateji tərəfdaşlığa çevrilmiş əlaqələrindən, iki ölkənin dövlət başçılarının ən yüksək səviyyədə formalaşmış qardaşlıq və dostluq münasibətlərindən bəhs edərək, vurğulayıb: "Biz Nəvaidən danışırıqsa, Türk Dünyasından danışırıq. Təsadüfi deyil ki, I Türkoloji Qurultayın mövzularından biri də Nəvainin 485 illiyi ilə bağlı olub, çünki onun türk dilinin və ümumilikdə türkçülüyün inkişafında müstəsna rolu vardı".

Deputat bildirib ki, beş il əvvəl çalışdığı Türk Mədəniyyəti və İrsi Fondunda Əlişir Nəvainin 580 illik yubileyi keçirilib, şairə həsr olunmuş kitab nəşr edilib, dövlət rəsmilərinin, Özbəkistandan gələn qonaqların, türk ölkələrinin alimlərinin iştirakı ilə təqdimatı təşkil olunub, daha sonra isə böyük mütəfəkkirin irsinin təbliği məqsədilə müxtəlif tədbirlər həyata keçirilib.

Günay Əfəndiyeva Nəvai irsini türk xalqlarını bir-birinə yaxınlaşdıran mənəvi körpü kimi dəyərləndirərək, vurğulayıb: "Bu gün Əlişir Nəvaidən danışırıqsa, şübhəsiz, Nizami Gəncəvidən də danışırıq.

Eyni zamanda həmin dövrdə xalqlarımız arasında mövcud olan əlaqələrdən danışırıq".

Deputat ötən ilin sonunda Azərbaycanda Özbəkistanın Mədəniyyət Günlərinin silsilə tədbirlərlə keçirildiyini xatırladıb. Qeyd edib ki, tədbirlər çərçivəsində özbək rəqs ansamblının ifasında "Xəmsə" baletinin nümayişi olub. Günay Əfəndiyeva bildirib ki, bu, yeni təşəbbüslərin başlanğıcı ola bilər və Nizami "Xəmsə"si ilə Nəvai "Xəmsə"sini bir araya gətirməklə müxtəlif layihələr həyata keçirmək mümkündür.

**O, bildirib ki, Nəvai haqqında görkəmli şair kimi və eyni zamanda görkəmli dövlət xadimi kimi də danışmaq olar. Bildirib ki, şairin Sultan Hüseyn Bayqara ilə birgə fəaliyyəti dövründə Herat Orta əsr müsəlman Şərqinin ən mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Çıxışının sonunda Günay Əfəndiyeva türk xalqlarının ortaq sərvəti olan Nəvai kimi dahilərin irsinin Türk Dünyasının yolunu hər zaman işıqlandıracağını vurğulayıb.**

---

## Kitabı yazarkən oxucu ilə üzbəüz dayanmağa çalışdım




**Söz insanlar arasında körpü rolunu oynamalıdır. Mən də çalışmışam ki, kitabımda bu körpünü yaradım. "Öz qəbrini qazan" kitabında hekayə, povest və pyeslərim toplanıb. Onları birləşdirən bir xətt var, o da insan taleyidir.**

Yenises.az AZƏRTAC -a istinadla xəbər verir ki, bunu Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist Kəmalə Mirzəyeva "Öz qəbrini qazan" kitabının təqdimat mərasimindən öncə jurnalistlərə açıqlamasında bildirib.

"Kitabdakı hekayələrin çoxu yaşanmış hadisələrdir, gündəlik müşahidələrimiz, düşüncələrimiz, qarşımıza çıxanlar və arzu etdiklərimizdir.

Kitabın ən böyük gözəlliyi və özəlliyi odur ki, bu nəşr geniş oxucu auditoriyasına yetişə, oxucuların qəlbində yer tapa bilir. Mən də çalışmışam ki, bu kitab oxucuların qəlbində yer tapa bilsin.

Bəlkə də, kitabdakı obrazlar oxucuların özləridirlər. Ədəbiyyat bizim aramızda olan məsafələri aradan qaldırır. Mən bu kitabı yazarkən çalışdım ki, oxucu ilə üzbəüz dayanım", - deyə o qeyd edib.

# KÖVRƏK QƏLBLƏRİ OVSUNLAYAN ŞEİRLƏR

**Hər bir ailəyə xobəxtlik bəxş edər körpə gəlişi!..**
**Ürəklərdə nur, dodaqlarda təbəssümə dönər körpə gülüşü!..**
**Bir mahnı kimi qəlbləri ovsunlayır körpə qığıltısı!..**

Günlərin bir günündə biz körpələrin dilindən nəğmələr eşidəndə, şeirlər dinləyəndə, nağıllara qulaq asanda fərəhimizdən yerə-göyə sığmırıq.

Doğrusu, körpə balalarımızın dilində səslənən şeirlər isə onları bizə daha çox sevdirir, daha çox mehribanlaşdırır.

Gül üzlü övladlarımızın şirin dillərinə yatan, qəlblərinə yol tapan şeirlər yazmaq çox çətin və məsuliyyətli işdir. Bu məsuliyyətin böyüklüyünü həmişə hiss edən xalq şairimiz Səməd Vurğun uşaqlar üçün şeir yazmaqdan söz düşəndə Abdulla Şaiqin adını çəkir, ondan uşaqlar üçün yeni şeir, nağıl, hekayə, pyes yazmağı xahiş etmələrini söyləyərmiş. Abdulla Şairin yaradıcılığında ana Vətənə, elobaya bağlılıq, təbiətə vurğunluq, babanənələrə məhəbbət, hazırcavablıq, qurubyaradan insanlara sevgi duyğuları aşılanırdı ki, bu da uşaqların belə şeirlərə həvəslə yanaşmasına səbəb olurdu. Səməd Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqaləsində yazırdı: "...mənə gözəlliyininin əsas ruhu insana və təbiətə qarşı məhəbbətdir. Uşaq özü canlı olduğundan, insan və təbiət aşiqidir. Şeir və nəğmələrimiz, hər şeydən əvvəl, təbiət və insan gözəlliyini tərənnüm edərsə, uşağın onlara qarşı meyl və həvəsi çiçəklənər, o, özü də insan olmağı ilə fəxr edər."



Məncə, uşaqlar üçün yazıb-yaradan hər kəs çalışmalıdır ki, əsərləri həm kiçik yaşlı uşaqların həyata baxışının formalaşmasına, ənənəvi-əxlaqi və fərdi-fiziki davranışlarına təsir göstərsin, həm də öz təravətini və aktuallığını qoruyub saxlasın. Bu yaxınlarda bədii yaradıcılığın şərəfli və əzablı yollarında inamla irəliləyən Gülşən Aydınqızının uşaqlar üçün qələmə aldığı şeirləriylə tanış oldum. Bu şeirlərin körpə qəlbləri ovsunlayacağına əmin olduğumdan, onlar haqqında bəzi fikirlərimi bildirməyi məsləhət gördüm. Kiçik yaşlı oxuculara ünvanlanmış həmin şeirlərlə tanış olduqda görürük ki, onların əksəriyyətinin məzmunu yığcam, konkret və aydın, dili sadə və rəvan, fikir bitginliyi və həmvətni olan şeirlərdir. Müəllif mətləbi uzatmadan fikirlərini oxucuya çatdırır, bu da şeirlərin uşaqlar tərəfindən asan qavranılmasına səbəb olur. Mövzuca rəngarəng və quruluşca müxtəlif şeirlərdən ibarət olan "Göyqurşağı" adlı bu kitab "Vətən" şeiri ilə başlanır. Başdan-başa Vətən ətirli misralarla süslənmiş kiçik həcmli bu şeir az yaşlı uşaqlarda doğma Vətənə məhəbbət hissləri aşılayır:

*Həm çiçəyim, həm gülüm,*
*Həm də gülüstan Vətən!*
*Zəfərin zəfər olsun,*
*Dərdinə qurban Vətən!*

Şeirlərlə ilk tanışlıqdan Gülşən xanımın uşaq psixologiyasını dərindən bildiyi müşahidə olunur. O, sanki uşaqların hər birinin hərəkətini müşahidə edir, izləyir, onlara məxsus olan dünyanın sirrini-sehrini poetik misraların gücü ilə açmağa çalışır. Balacaların qavrama, anlama səviyyəsini nəzərə alan şairin qələmində sözlər şirinləşir, şəkərlənir, ürək oxşayan, dilə asan yatan misralara çevrilir: "Əkiz bacımdır Günəş" şeirində olduğu kimi:

*İki əkiz bacıyıq,*
*Sarıdır tellərimiz.*
*Mən yerdə, o səmada,*
*Hey şəfəq saçırıq biz.*

*Göydən mənə baxanda*
*Gözləri gülümsəyir.*
*Yolu birgə getsək də,*
*Hey susur, heç nə demir.*

*Atam alnımdan öpüb*
*Deyir: ömrümdür Günəş.*
*Qaynar qara gözləri*
*Od-atəşdir, od-atəş.*

Kitabdakı "Dəcəl sərçələr", "Tənbəl Məstan" "Eskalator", "Mehin və arı" "Kosa", "Təzə balıqlar", "Yaz" "Gizlənqaç", "Dəcəl Toplan", "Dovşanım", "Kəpənək", "Bahar", "Akvarium", "Tutuquşu" kimi şeirlərdə Vətənimizin gözəlliyi, torpaqlarımızın barı-bərəkəti, flora və faunamızın zənginliyi bədii formada əks olunmuşdur.

*Çiçək taxıb döşünə,*
*Yamaclar yallı gedir.*
*Bulaqlar şirin-şirin*
*Nəsə zümzümə edir.*

*Bəzəkli gəlin kimi*
*Ağacların budağı.*
*Yavaş-yavaş partlayır*
*Lilparların dodağı.*

*("Yaz")*

"Arzu", "Kamranın tut ağacı", "Əkiz qızlara", "Nənə sevgisi", "Əsma", "Balaca Mətin", "Göyqurşağı", "Polad", "Anamın hədiyyəsi" kimi şeirlərdə isə baba və nənələrin nəvə sevgisi boy göstərir. Bu sevgi təmiz və qarşılıqlıdır, dağ çayları kimi haylı-haraylı, bulaq suları kimi saf və durudur.

*O ulduzlu gözlərə*
*Necə olmuşam heyran.*
*Könlümü ovsunlayıb*
*Bir cüt qaragöz ceyran.*

*Durun, gəlin yanıma,*
*Sizi qoxlayıb, öpüm.*
*Yasəmən ətrinizi.*
*Alım, ruhuma səpim.*

*("Nənə sevgisi")*

Kitabdakı şeirlərin bir çoxunda müəllif uşaqları düşünməyə vadar edir, verilən suallara onların cavab tapmaq qabiliyyətini inkişaf etdirməyə çalışır. Fikrimizcə, "Tapmacalar", "Qrammatik tapmacalar", "Fikirləş adını tap..." bölmələrindəki kiçik həcmli şeir parçaları uşaqların təfəkkür tərzinin və məntiqi düşünmə qabliyyətlərinin inkişaf etdirilməsində mühüm rol oynayacaq, onların bu tipli əsərlərə marağını artıracaqdır.

Həmin tapmacalardan bəzi nümunələrə baxaq:

*Boynunda var yuyəni,*
*Belində var su çəni.*
*Uca dağlardan aşar,*
*Səhraları dolaşar.* (əvəd)

*Saçlarımı dağıdır,*
*Görünmür gözə.*
*Nə əli var, nə dili,*
*Toxunur üzə.*
*Həm çəməndə, həm düzdə*
*Çapır atını.*
*Mən demirəm, siz tapın*
*Onun adını.* (külək)

Kitabda uşaqların marağına səbəb olacaq biri-birindən maraqlı 8 (səkkiz) tapmaca yerilmişdir. Onların hamısı əlvan bədii forma və çevik üslubda yazılmış, uşaq ağlı üçün düşündürücü və dərin mənalıdır. Qrammatik tapmacaları isə ixtisasca dil-ədəbiyyat müəllimi olan Gülşən Aydınqızının körpə balalara özəl hədiyyəsi adlandıra bilərik. Demək olar ki, o, çox az şairin müraciət etdiyi mövzuda uşaqlara sadə dildə yazılmış, maraqlı qrammatik tapmacalar təqdim edir:

*Mən, sən, o, biz, siz, onlar;*
*İsmin yerində olar.*
*O, bu, həmin və həmən, -*
*İşarə edərəm mən.*
*Bütün, filan və eyni:*
*Adlanarlar təyini.*
*Çoxlu suallarım var,*
*Bəs adımı kim tapar?* (kilzəvə)

"Qramatik tapmacalar"da isim, sifət, say, əvəzlik, zərf, feil və s. nitq hissələri haqqında maraqlı şeir parçaları vardır.

Kitabın sonundakı "Fikirləş, adını tap..." bölməsindəki tapmacalar isə panda, zürafə, yenot, kirpi və başqa heyvanlar haqqındadır.

*Həm yumşaq, həm tikanlı,*
*Gözləri qara düymə.*
*Əlini yaralayar,*
*Çəkin, sən ona dəymə.*
*Bütün canlılar kimi,*
*Balasını oxşayar.*
*Göbələyi, almanı*
*Yuvasına daşıyar.*
*Yamanca iynəlidir,*
*Geydiyi qalın kürkü.*
*Təhlükəni tez duyar,*
*Göyçək, balaca* (iprik)

Gülşən xanım Gəncə şəhərində yaşayır, Tərəqqi medallı, Azərbaycan Respublikasının Əməkdar müəllimi, 30 ildən artıq pedaqoji təcrübəsi olan tanınmış dil-ədəbiyyat müəllimidir.

**Fikrimizcə, "Göyqurşağı" kitabındakı müxtəlif şeir nümunələri kiçik yaşlı uşaqların həyata baxışlarının formalaşmasına, mənəvi-əxlaqi və tərbiyəvi xüsusiyyətlərinə təsir göstərən əsərlər kimi öz oxucusunu tapacaq, körpə fidanların sevimli kitabına çevriləcək. Bu ağır, əzablı və müqəddəs yolun çətinlikləri altına öz çiyinlərini vermiş Gülşən Aydınqızına yeni yaradıcılıq uğurları arzulayırıq.**


**İbrahim Yusifoğlu**
**Azərbaycan YB və JB-nin üzvü, Prezident təqaüdçüsü, Azərbaycan Respublikasının Qabaqcıl Təhsil işçisi**



Vaqif Yusifli
Filologiya elmləri doktoru

# Fundamental tədqiqatçı

## (Görkəmli ədəbiyyatşünas Araz Dadaşzadənin 90 illiyi münasibətilə)

Araz Dadaşzadə ədəbiyyata 60-cı illərdə gəlmişdir. Azərbaycan ədəbiyyatında yeni bir yüksəliş dövrü kimi səciyyələnən bu illərdə şeirdə də, nəsrdə də, dramaturgiyada da yeni adlar və əsərlər ədəbi dövriyyəyə daxil oldu. "Yeni Azərbaycan nəsri", "Yeni poeziya" istilahları daha çox "altmışıncılar" ədəbi nəslinin yaradıcılığına şamil edilirdi. Ədəbi tənqiddə də yeni bir mərhələnin başlanğıcı qoyulur, tənqiddə estetik cəhətlərə, sənətkarlıq problemlərinə, forma xüsusiyyətlərinə, ədəbi qəhrəman axtarışlarına fərqli bir baxış bucağı müəyyənləşirdi, Yaçar Qarayev, Şamil Salmanov, Akif Hüseynov, Gülrux Əlibəyli, Arif Abdullazadə, Arif Hacıyev, Araz Dadaşzadə, Arif Səfiyev kimi tənqidçi və ədəbiyyatşünasları da mənim fikrimcə, "altmışıncılar" nəslinin tənqid - ədəbiyyatşünas qolu kimi qəbul etmək olar. Araz Dadaşzadə də istedadlı bir ədəbiyyatşünas kimi məhz altmışıncı illərdə parladı - 1966-cı ildə onun "Molla Pənah Vaqif" (həyat və yaradıcılığı) monoqrafiyası çap olundu. Onun bu monoqrafiyası vaqifşünaslıqda bir dönüş yaratdı, daha doğrusu, Vaqifi yeni elmi-nəzəri təfəkkür işığında dərk etməyə səsləndirdi. Araz Dadaşzadənin Vaqif dünyası - bu haqda bir qədər sonra söz açacağam. Amma bundan öncə, Araz Dadaşzadəni bir ədəbiyyat adamı kimi səciyyələndirmək istəyirəm.

1. Araz Dadaşzadə böyük Azərbaycan tənqidçisi akademik Məmməd Arifin ailəsində dünyaya gəlib. Səməd Vurğunun "Tənqidimizin vicdanı" adlandırdığı Məmməd Arif həm də bir şəxsiyyət kimi qibtəediləsi insan idi. Yaşar Qarayev "Tənqidçinin müdrikliyi" məqaləsində yazırdı: "Adətən, ədəbi tənqidi müxtəlif obrazlarla müqayisə edirlər. Arif müəllimin adı ilə bağlı tənqiddən söz düşəndə mənim xatirimə yalnız bir müqayisə gəlir: Ədəbi tənqid də, ədəbi kompasa bənzəyir, burada da əqrəb həmişə eyni qütbü - həqiqət qütbünü nişan verir! Arif müəllimin əlində tənqidçi qələmi həmişə məhz "həqiqət qütbünü nişan verən kompas əqrəbi olmuşdur və bu əqrəb, bu qələm Arif müəllimin əllərində heç zaman titrəməmişdir". Oğul Dadaşzadə Ata Dadaşzadədən nəhz "həqiqət qütbünü" əxz edir. Və Məmməd Arif ədəbi məktəbi təkcə böyük mənada ədəbiyyat aləmində deyil, həm də ailədə davam etdi. Araz Dadaşzadə, Aqşin Dadsaşzadə, Zümrüd Dadaşzadə və Kəmalə Dadaşzadə.

2. Araz Dadaşzadə əsl ədəbiyyat adamı idi, ədəbi prosesdə fəallığı ilə seçilirdi. Onu həm klassik ədəbiyyatla, həm də müasir ədəbi proseslə bağlı məqalələri, namizədlik və doktorluq dissertasiyalarına verdiyi rəylər, onlarla elmi əsərlərdə redaktor kimi çalışmaları, ayrı-ayrı tamaşalara həsr etdiyi resenziyalar, Yazıçılar İttifaqında keçirilən mötəbər müşavirələrdə çıxışları buna sübut ola bilər. Xalq yazıçısı Elçinin tərtibi və redaktorluğu ilə nəşr olunan "Fikrin karvanı" toplusunda Salman Mümtaz və Həmid Araslı haqqında qələmə aldığı elmi oçerklər göstərir ki, Araz Dadaşzadə ustadlara qarşı həmişə ehtiramla yanaşmışdır. 1981-ci ildə "Azərbaycan" jurnalının 10-cu sayında "Tənqid və ədəbi proses" silsiləsindən "Tənqidin vəziyyəti: imkan və perspektivlər" adlı bir dialoq təşkil etdiyimi xatırlayıram: bu dialoqda Yaşar Qarayevlə Araz Dadaşzadə iştirak edirdilər. İndi də o dialoqda səslənən fikirlər öz aktuallığını itirməyib.

Qayıdıram Araz Dadaşzadənin Molla Pənah Vaqif dünyasına. XX əsrdə Vaqifin həyat və yaradıcılığı ilə bağlı xeyli sayda məqalələr diqqəti cəlb edir. Firudin bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz, Məmməd Səid Odubadi, Abdulla Şaiq, Mehdi Hüseyn, Səməd Vurğun Vaqif haqqında (onun poeziyası və dövlət xadimi kimi fəaliyyəti) maraqlı fikirlər söyləmişlər. Araz Dadaşzadənin monoqrafiyası isə mənim fikrimcə, Vaqif haqqında ilk sistemli tədqiqat işidir. O, Vaqif dövründən ta XX əsrin ortalarına qədər bütün mənbələrə, yazılanlara doğru-dürüst qiymət verir, şairin həyatı, yaradıcılığı ilə bağlı mübahisəli, hətta yanlış fikirlərə aydınlıq gətirir.

Vaqifin əsərlərinin toplanması, nəşri və tərcüməsi ilə bağlı görülən işlər barədə müfəssəl məlumat verir. Həyatı və dövlət fəaliyyəti ilə bağlı aydın təsəvvür yaradır. Fikrimcə, monoqrafiyanın iki fəsli Vaqif haqqında yazılan sonrakı elmi əsərlər üçün çox qiymətli bir mənbədir.

Araz Dadaşzadənin Vaqif yaradıcılığı ilə bağlı fikir və mülahizələri onun mükəmməl bir ədəbiyyat tarixçisi olduğunu, bu sahədə ustadları olan Həmid Araslı, Məmməd Arif, Məmməd Cəfər yolunu davam etdirdiyini göstərir. O, XVIII əsr Azərbaycan ədəbiyyatının ümumi mənzərəsini təhlil edəndən sonra Vaqif lirikasının özünəməxsus səciyyəsi haqqında söz açır. "Vaqif təpədən dırnağa lirikdir, onun poeziyasında əsl lirik sənətkara xas xüsusiyyətlər: sadəlik, təbiilik, səmimilik, emosionallıq vardır. Əgər əruz vəznində şeirin, qəzəlin ustadı Füzulidirsə, heca vəzni şeirin, qoşmanın ustadı Vaqifdir" - deyir. Və sonra yazır: "Vaqifin poeziyası özündən əvvəlki şeirə bir yekun vurmuş, sonrakı şeirə qapı olmuşdur. Vaqif klassik şeir ənənələrindən bacarıqla istifadə etmiş, forma, dil və sənətkarlıq nöqteyi-nəzərindən ciddi əhəmiyyət kəsb edən poeziya yaratmışdır. Vaqifi Vaqif edən əsas amil də budur".

Vaqif yaradıcılığından söz açan müəlliflər mütləq Füzulini də yad edirlər və bu iki şairin məhəbbət lirikasını müqayisəyə çıxarırlar. Araz Dadaşzadə yazır: "Füzulinin lirik qəhrəmanı gözələ tabedir, onun quludur, gözəlin hər bir əmri onun üçün müqəddəs qanundur. O, gözəldən şikayət etməsə də, ondan nəvaziş də gözləmir.

*Mənim tək hiç kim zarü pərişan olmasın, yarəb!*
*Əsiri-dərdi-eşqü dağı-hicran olmasın, yarəb!*

Vaqifin lirik qəhrəmanı daha həyati bir adamdır, o, həyatdan nəşə almağa can atan və buna müvəffəq olan bir aşiqdir. Onun kədərlənib, qüssələnməyə vaxtı yoxdur". Burada Nizami Cəfərovun bir fikrini xatırlatmağa dəyər: "Füzuli heyrətə salır, Vaqif isə inandırır".

Araz Dadaşzadə yazır: "Vaqif, Füzuli və başqa klassik şairlərin səmanın yeddi qatına qaldırıb həsrətlə baxdıqları, ülvilik, fəlsəfi məna axtardıqları məhəbbət məhfumunu yerə endirmiş, onu həyatiləşdirmişdir. Vaqif eşqdə nə fəlsəfi məna axtarır, nə də ülvilikdən kömək gözləyir. O, hər gün dəfələrlə gördüyü "tər cıqqalı, siyəh telli, zülfü gərdəndə sallanan" gözəllərdən yazır. Vaqif xəyal aləmində uçmur. Onun ayağı möhkəmcə yerdədir. O, gündəlik həyati məhəbbəti ümüd bəslənən məhəbbətə dəyişmir. Bu nöqteyi-nəzərdən Vaqif realistdir. Daha doğrusu, həyat təcrübəsinə sadiqdir". Bu "realistdir" ifadəsinə dəqiq yanaşaq. Akademik İsa Həbibbəyli XVII-XVIII əsrlər ədəbiyyatından söz açarkən haqlı olaraq erkən realizm ifadəsini işlətmşdir. Tamamilə haqlıdır...

Araz Dadaşzadə Vaqifi nikbin bir şair kimi təqim edir və dünya ədəbiyyatında - fəlsəfə tarixində gedunizm anlayışına üz tutur (yunanca bu sözün mənası "nəşələnən" deməkdir).

Vaqif Azərbaycan poeziyasında dilimizin ən birinci sərrafıdır - desək, yanılmarıq. Araz Dadaşzadə adını çəkdiyim monoqrafiyada ilk dəfə olaraq Vaqif şeirinin "Vəzn, dil və sənətkarlıq xüsusiyyətlərindən söz açır. Vaqifin şeirlərində xalq danışıq dilinin ədəbi dillə necə qovuşduğunu misallarla təsdiq edir:

*Xumar-xumar baxan ala gözlərin,*
*Qaldı canda gizli-gizli dərdimiz;*
*Vara-vara artdı zülmü sitəmin,*
*Həsrətindən öldüm-öldüm dirildim.*

*Gözəl sən tək belə şuxu şən gərək,*
*Həmdəmi də həm özünə tən gərək,*
*Sənə Vaqif kimi dərd bilən gərək,*
*Layiq görməm hər nadanı mən sənə.*

Araz Dadaşzadə Vaqifin Azərbaycan ədəbiyyatındakı mövqeyini də düzgün təyin edir və ilk olaraq Mirzə Fətəli Axundova müraciət edir: "Mən əyyami-səyahətimdə səfheyi - Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatımı gördüm ki, zikr etdiyim şərti bir növ ilə onda gördüm" Və sonra digər müəlliflərin fikirləri ilə bizi tanış edir.

Araz Dadaşzadənin "XVIII əsr Azərbaycan lirikası" monoqrafiyası da (1980) onun necə mükəmməl bir ədəbiyyat tarixçisi olduğunu sübut edir. Bu monoqafiyada Araz Dadaşzadə bizə o dövrün məlum olan şairlərin yaradıcılığından söz açır, eyni zamanda, ədəbiyyat tariximizdə adları az çəkilən bəzən unudulan şairlərə də müraciət edir.

Araz Dadaşzadənin bir vaqifşünas kimi elmi fəaliyyəti haqqında çox şey deyə bilmədim. Amma XXI əsrdə də vaqifşünaslıq elmi ədəbiyyatşünaslığın bir qolu kimi inkişaf edir. Akademik Nizami Cəfərovun "Molla Pənah Vaqif", akademik İsa Həbibbəylinin "Molla Pənah olan Vaqif" monoqrafiyaları vaqifşünaslığa yeni töhfələrdir.

Və Molla Pənah Vaqifin poeziyası bu gün də öz təsir dairəsini itirməyib, əksinə, əksər qoşma yazan şairlərimizin şeirlərində Vaqif nəfəsi duyulmaqdadır.

Araz Dadaşzadə uzun müddət Azərbaycan Sovet Ensiklopediyasında çalışdı. Son iş yeri həmin ensiklopediyada baş redaktor vəzifəsi idi. Amma təssüf ki, səhhətində yaranan problemlər nəzərdə tutulan böyük işləri görməyə ona imkan vermədi. Ən yaxın dostlarından biri Xalq yazıçısı Anar onun vəfatı münasibətilə "Arazsız qaldıq" vida yazısını qələmə aldı. Doğrudan da, ədəbiyyat elmimiz ensiklopediyamız Arazsız qaldı. Onun qəhrəmanı - Molla Pənah Vaqif unudulmadığı və əsrlər boyu mənən yaşadığı kimi, Araz Dadaşzadə də yaddaşlarda, xatirələrdə, ədəbiyyat tariximizdə heç vaxt unudulmayacaq.

*Əntiqə KƏRİMZADƏ*

# Nağıl kimi tənha ömür



***Şair Nüsrət Kəsəmənli deyir ki, "İnsan taleyilə gəlir dünyaya". Bəs bu tale yolunun enişi- yoxuşu, dağı- daşı, çiçəyi insanla birgə doğulurmu? Doğrudanmı insanın xarakteri, xasiyyəti, peşəsi, mövqeyi onun taleyinə təsir etmir? Düşünürəm ki, təsirsiz ötüşmür. Taleyindən qara buludların yan keçmədiyi insanlardan biri də aktrisa, xalq artisti Zərnigar Ağakişiyevadır.***

***O, 1945-ci ildə Quba rayonunun Rustov kəndində doğulub. Ömür yolunu incəsənətə bağlayan bu gənc qız 1968-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Dram və kino aktyoru" fakültəsinə daxil olur. 1972-ci ildə təhsilini başan vuran aktrisa Tədris teatrında işləməyə başlayır.***

***Aktirsanın sənətə gəlməsi ilə ailə həyatı qurması eyni ilə təsadüf edir. Lakin həmin evliliyin ömrü 11 il olur. Aktrisa 11il evli olsa da bu nigahdan övladı olmayıb.***



***O, 1973-cü ilə rejissor Əşrəf Quliyevin dəvəti ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında A.Ostrovskinin "Müdriklər" dramında Mamayeva rolunu oynayır. Məhz həmin roldan sonra 1974-cü ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə aktrisa kimi qəbul olunur..***

***Aktrisa ömründə məhədə çevirdiyi teatrdan bir müddət küsür və uzaqlaşır. Buna səbəb isə 1989-1992-ci illərdə səhnədə cəmi 2 rol verilməsi olur. Lakin 7 ildən sonra Ədalət Vəliyevin dəvətilə yenidən teatra qayıdır. Bu qayıdışdan sonra ardıcıl olaraq teatrda səhnələşdirilən tamaşalarda baş rollarda yer alır.***

***Bununla yanaşı, Zərnigar Ağakişiyeva Azərbaycan Dövlət televiziyasının hazırladığı teletamaşalarda və "Azərbaycanfilm" in istehsal etdiyi bir çox filmlərdə çəkilmişdir. Filmlərdə əsas, ikinci dərəcəli, epizodik rollarda yer alıb.***

***Zərnigar Ağakişiyeva yaradıcılığının xarakterik xüsusiyyətlərinə görə realist aktyor məktəbinin poetika göstəricilərinə daha uyğundur. Yaratdığı obrazlar tamaşaçılar tərəfindən həmişə maraqla qarşılanmışdır. Aktrisa kimi həmişə diqqət cəlb etmiş və xarakterik obrazlarına görə xanım həmkarlarından fərqlənmişdir.***

***Zərnigar Ağakişiyeva 1982-ci ildə Əməkdar Artist, 2000-ci ildə isə Xalq Artisti fəxri adlarına layiq görülmüşdür. 2014-cü ildə Şöhrət ordeni, 2015-ci ildə Cəfər Cabbarlı mükafatına layiq görülmüşdür.***

***O, müsahibələrinin birində oynadığı obrazlarla insanların diqqətini çəkdiyini və fəxri adlara yanaşı, ən böyük qazancının tamaşaçı alqışı və sevgisi olduğunu etiraf edib.***

***Uğurlu obrazları ilə yadda qalsa da, taleyi heç də uğurlu olmayan xalaq artisti Zərnigar Ağakişiyeva 8 fevral 2018-ci ildə ürək çatışmazlığından Bakıda evində vəfat etmişdir. 9 fevral 2018-ci ildə Quba şəhər qəbiristanlığında, valideynlərinin yanında torpağa tapşırılmışdır.***

***Həyat yoldaşı və övladı olmadığı üçün aktrisann dəfn mərasimini əmisi qızı təşkil edib.***

## "Google" da Rusiyada bloklana bilər



**"Facebook", "Instagram", "Youtube" "WhatsApp" və "Telegram" şəbəkələrinin ardından "Google" da Rusiyada bloklana bilər.**

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Dumasının deputatı Andrey Svintsov bildirib. Onun sözlərinə görə, bu, texniki cəhətdən mümkündür, lakin Roskomnadzor "Google"dan borcu yığmaq üçün onun ölkəyə qayıtmasını gözləyə bilər.

"Google"un Rusiyanın televiziya kanallarına borcunun 91,5 kvintilyon rubl təşkil etdiyi açıqlanıb.



# BAYAT



№ 72 (932)




*Həsən Kür*

## Bağışla İlahi

Xoşbəxtlik payladın bütün dünyaya
Üstündə ot bitən daş xoşbəxt oldu.
Ovçunun əlləri əsdi bir anlıq
Göydə qanad çalan quş xoşbəxt oldu.

Hərə bir ağızdan rəhmət oxudu
Bir anlıq ölülər xoşbəxt oldular.
Hər günəş doğuşun bayram etdilər
Hər səhər dəlilər xoşbəxt oldular.

Xoşbəxtlik payladın bütün dünyaya
Hamı öz vaxtından tez xoşbəxt oldu,
Yağış yerə düşdü toz xoşbəxt oldu.
Özgə bir insanın bəy masasında,
İlahi sevdiyim qız xoşbəxt oldu.

Mən, bizi qovuşdur deyə yalvarıb
Sənə əl açmışdım aşiq olanda.
Hamı xoşbəxt oldu bu yer üzündə,
Layiq olmayan da, layiq olan da.
Mən niyə yadından çıxdım görəsən.

Hamı xoşbəxt oldu bu yer üzündə,
Kəpənək bağçada, arı pətəkdə
Hətta xoşbəxt oldu bir vaxt kəsilmiş
Yenidən canlanan kiçik kötük də.
Mən niyə yadından çıxdım, görəsən
Nə günah etmişəm bu böyüklükdə?

Yox, nəsə etmişəm dinc durmamışam
Bəlkə duz tökmüşəm yara üstünə.
Bəlkə bilməmişəm bir qaranquşun
Yuvasın yıxmışam bala üstündə.

Bəlkə göz dikmişəm mən canı yanmış
Dünya sərvətinə dünya malına.
Bəlkə amin demək yadımdan çıxıb
Yaşlı nənələrin dualarına.

Qurbanın olaram, keç günahımdan.
Bağışla İlahi, bilim ki varam.
Bağışlasan elə sən bağışlarsan
Mən olsam özümü bağışlamaram.

## Yaxşı xatırlayın uşaqlar məni

Harda azdıracaq bu yol görəsən
Hara aparır bu ayaqlar məni.
Anacan dua et, əgər etməsən
Qovar Allahacan günahlar məni

Mən ölsəm bəxtimin bəxti açılar
Dilimin altında neçə söz ölər
Birdən mən qalaram, anam tez ölər
Tanımaz güzgülər, daraqlar məni

Yox ana, sən ölmə, sən əbədi qal
Ver öz kəfənini sərim yerimə
Arada nəfəs al mənim yerimə
Bilməsin ölmüşəm budaqlar məni

Ay Allahsız fələk, əlin qırılsın
Çəkmə o kədərin yaxşı yerindən
Payın artıq olsun, yemirəm toxam.
Mən bu gün varamsa, sabah da yoxam
Yaxşı xatırlayın uşaqlar məni.

## Xəzan səsi

Gözümün işığı, burda payızdı
Hər kəs yığışıb öz gödəkcəsinə.
Bircə sevincini görəydin onun,
Günəş gülə-gülə sovuşub getdi
Bahar tətilinə gedərcəsinə.

Gözümün işığı burda payızdı
Burdakı yarpaqlar payıza kölə
Zavallı ağaclar payıza əsir.
Bağçanın sonuncu bənövşələri
Bir saxsı dibçəkçün evə tələsir.

Mən indi payızın çiyinlərində,
Yazın gəlişini gözləyən bağam.
Mən indi səngərdən boylanan əsgər,
Ayaq səslərindən qorxan torpağam.

Dişimi, dişimə sıxıb dözürəm
Olur belə şeylər, olur qadası.
Tək qalan adamlar özündən küsür,
Getməyə bir qucaq yer tapmayanda,
Yıxılır bir küncdə qalır qadası.

Bəs ora necədi? Havası, suyu
Quşlar çöldə ölür, yoxsa qəfəsdə?
Adamlar necədi? Hər darıxanda
neçəsi söz qoyur sözünün üstə?
Sən necə, nə qədər dəyişilmisən?
Yenə yerə düşən çörək qırığın
Öpüb qoyursanmı gözünün üstə?

Yox, sən dəyişilmə, özünü qoru,
Aldanma küçənin xəzan səsinə.
Kaş ki illər sonra bir yaz səhəri,
Birgə oyanaydıq azan səsinə.

## Daşdan adamlar

Ağac qocalanda başını əyir
Torpağa təşəkkür etməkdən ötrü.
Neçə budağını qurban verərdi,
Neçə meyvəsini yerə salardı,
Haçansa yenidən bitməkdən ötrü.

Qocaldı yanında olan adamlar,
Birinin gözünün ağı qocaldı,
Birinin ağzında dili qocaldı,
Birinin getdiyi qatar dönmədi
Birinin əlində gülü qocaldı.

Dünya qarasına, ağına baxmır,
Qocaldı, əzizim hamı qocaldı.
Biri yağış üçün dua edəndə,
Birinin evinin damı qocaldı.

Sən də qocalmısan vaxtsız, vədəsiz,
Hardan gəlib keçdi bu ömür bu gün.
Yəqin ki, bir xeyli peşman olmusan,
Bu qoca dünyaya gəldiyin üçün.

Səni qocaldıbdır, bu daş binalar,
Əyibdi qəddini dikəltdiklərin.
Ovcunda içində qəbər yaratdı,
Alnından süzülüb düşəndə tərin.

Bəlkə heç bu sənin bəxtin deyilmiş,
Bəlkə qismətini özgəsi yedi.
Hətta asılqandan təzə adıyla,
Asdığın köynək də toz içindədi.

Utanma ey qoca, daşdan utanma!
Utansın suyu şor olan dənizlər,
Utansın günəşi gizlədən dağlar.
Öləndə hamını daşa tapşırıb,
Hamının başına daş salacaqlar.

## Sarı tikan

Atdığım addım da soyudu məndən,
Etdiyim dualar üzümə durdu.
Sən çıxıb gedəndən, gecə yatmaq da,
Səhər oyanmaq da gözümə durdu.

Tutdu zalımlığı çərxifələyin
İnsan təravəti qalmadı məndə.
Gül də itirərmiş gözəlliyini
Yanında sarı bir tikan bitəndə.

Özünə yaxşı bax, məni düşünmə,
Qayıtma, çürüsəm, ölsəm qayıtma.
Qayıtma, uzaqdan səni səsləsəm,
Durub ayağına gəlsəm qayıtma.

Düşünmə əzizim, düşünmə məni,
Bilmə ki, kimləyəm, nəyəm, nəçiyəm.
Sən indi yağışsan, göyün üzündə,
Mən sənə susamış bir gölməçəyəm.

Hələ ölməmişəm, ayaq üstəyəm
Unut nə qədər ki, gec deyil unut.
Şəklimi cıranda gözünü bağla,
Adımı çəkəndə qulağını tut.

Qoru özünü bu, ac camaatdan,
İkisi mərddirsə, biri namərddir.
Mənisə qınama, qurbanın olum.
Səni sevməməyin, günahı çoxdur,
Səni sevməməyin özü bir dərddir.

## Cəbhədən məktub

Sən mənə şərfini göndərmə daha,
Səngər beşik kimi istidir, qızım.
Vətən sənin kimi suyuşirindi,
Hamını özünə istədir, qızım.

Görsən darıxırsan, şəkillərə bax,
Körpə əllərini boynuma dola.
Boylan pəncərədən getdiyim yola,
Bu məni görməyə bəs edir, qızım.

Mən burda yaxşıyam, sən də yaxşı ol,
Bilim ki, sənin də günün şən keçir.
İnan, göndərdiyin bütün dualar
Gəlir başımızın üstündən keçir,
Allah başımızın üstədir, qızım.

Allah üstümüzdən çəkməsə əlin,
Birgə yandırarıq zəfər məşəlin.
Hamının qorxduğu zalım əcəlin
Boyu boyumuzdan bəstədir, qızım.

Əgər günün biri, geri dönməsəm,
Eşidə bilməsən atanın səsin,
Qorxma, ürəyinə qorxu düşməsin,
Atan ölməyibdi, xəstədi, qızım.

## Gedib qayıtmayanlara ithaf

- Qızım, sənin adın nə?
- Mənim adım Qərənfil.
- Gözünə qurban olum,
darıxırsan elə bil.

- Atamı gözləyirəm.
- Atan hardadır məgər?
- Müharibəyə gedib;
o döyüşür gecələr.

- Nə vaxt gedibdir atan;
gecikdiyi çoxdurmu?
- Çoxdur, əmi can, çoxdur.
- Ananın da atandan
bir xəbəri yoxdurmu?

- Anam indi işdədir.
- Qızım, harda işləyir?
- Anam çox mehribandır,
yarpaqları çox sevir,
səhərdən-axşamacan
onları təmizləyir.

-Yaxşı, mehriban anan
atandan bir söz demir?
- Demir, əmi can, demir,
daha yollara baxmır,
daha onu gözləmir.

Mən dünən çox ağladım
gecə yatmazdan öncə.
Anamın nə etdiyin
izləyirdim gizlicə.

Atamın divardakı
şəklini qucaqlayıb,
belə deyirdi, əmi:
"Mən necə böyüdəcəm
Atasız bu yetimi".

## Sonra evə qayıtdım

İki gitarist oğlan
Bildiyi mahnıları
Hey ucadan oxuyur.
Onların gözlərində
İndi hamı xəsisdi.
Gitara sandığına
Mən də heç nə atmıram
Birinin səsi pisdi...

Balıqçı gəmisi də
Tək qoydu ləpələri
Gün qaralar-qaralmaz
Yanımdakı tabloda
Bu sözlər yazılmışdı:
"İntihar etmək üçün
dənizə girmək olmaz"

Orda uşaq var idi
Hörüklü qız uşağı
Yaşı doqquz-on olar.
Dənizə yalvarırdı:
"Atama de qayıtsın
ona ehtiyacım var"

Ondan utandım Allah
O balaca uşaqdan.
Gözündəki həsrətdən
Ürəyindəki dağdan.

O uşağın dilindən
Elə sözlər eşitdim.
Hamımızın yerinə
Dənizə nifrət etdim.

Sonra evə qayıtdım
Keçdiyim məhəllədə
Bir mənzərə var idi
Yadımdadır hələ də.

Dörd mərtəbəli bina
"Antena"lı köhnə dam
Üstünə bir quş qonub
Birdə yarımcan adam.

Özünü tullamağa
Biraz gücü çatmırdı
Bir az də cəsarəti.
Bir yığın bekar adam
Doldurmuşdu həyəti.

Mən elə qorxurdum ki,
Birdən cəsarət tapıb
Özünü atar indi.
Bir neçə gənc jurnalist
Yeni xəbər var deyə
Gizlicə sevinirdi.

Sonra bir qadın gəldi
Əllərini qaldırıb
Xeyli göz yaşı tökdü.
Dedi: "gəl gedək evə,
Allah özü böyükdü!"

Allah onu bağışla
Yoldaşının gözündən
Axan yaşa bağışla.
Al onun dərdin, qəmin
Dağa, daşa bağışla.

Bağışla sahildəki
Səndən acığı gələn
Saçı hörgülü qızı.
Nə qədər ölməmişik
Bağışla hamımızı...

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 6 (2478) 13 fevral 2026-cı il



# BİR DƏ GERİ DÖNMƏYƏCƏK...

**Gənclik illəri insanın elə bir dövrüdür ki, o heç vaxt yaddan çıxmır. Yəni gəncliyi çoxları bahar fəslinə bənzədirlər və düz də edirlər. Çünki bahar təbiətin ən gözəl anı olduğu kimi, gənclik də insan ömrünün ən yaddaqalan anlarıdır. Çünki bu illərdə insan çox şeyi öyrənir, bərkə-boşa düşür və ən nəhayət, müəyyən həyat təcrübəsi toplayır. Təbii ki, həm elmi, həm savadı, həm də əxlaqı bu illərdə qazanmaq mümkündür. Elə xətirhörməti, insanların məhəbbətini də gənclik illərində əldə etmək olur. Ən azından ona görə ki, gənclərə insanların çox böyük ümidi, çox böyük istəyi formalaşır. Və gələcəkdə də gözləyirlər ki, bu gənclər yaşlı nəslin edə bilmədiyi işləri həyata keçirəcək və onları sevindirəcək.**



Azərbaycan gəncliyi də həmişə, daha doğrusu, bütün tarix boyu digər ölkələrin cavanlarından fərqlənib. Çünki bizim gənclər aldıqları tərbiyə sayəsində daha düz yol, işıqlı yol seçirlər. Təbii ki, bir çox Avropa dövlətləri və qonşu Rusiya ilə müqayisədə bizim gənclər sağlam həyat tərzinə, normal yaşamağa daha çox meyllidirlər. Başqa sözlə demiş olsaq, onlar rus gəncləri kimi içki düşgünü, pis vərdişlərə aludə deyillər. Amma bu o demək deyil ki, bizim gənclərin də arasında pis vərdişləri olan insanlar yoxdur. Var, ancaq onlar adını çəkdiyimiz ölkələrlə müqayisədə çox azdır. Azərbaycan gəncliyinin tərbiyəsi, elmi, savadı və kamil insan kimi formalaşması bütün dövrlərdə dövlətin diqqət mərkəzində olub. Heç yadımızdan çıxmır, ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə ən istedadlı yüzlərlə azərbaycanlı gənc SSRİ-nin paytaxtı Moskvaya, Leninqrada (indiki Sankt-Peterburq), Kiyevə və digər şəhərlərə oxumağa göndərilirdi. Onlar həmin mühitdə müxtəlif ixtisaslar üzrə mükəmməl təhsil alır, təcrübə toplayır, böyük bir hissəsi ölkəmizə qayıdaraq çox möhtəşəm işlərdə millətimizə və xalqımıza bir mütəxəssis kimi əvəzsiz işlər görürdülər. Bir çox istedadlı gənclər isə Moskva mühitində formalaşır, daha zəngin elmi biliklərə yiyələnir və həmin mühitdə yüksək mövqe tuturdular.

Müstəqillik dövründə də gənclərimizə, onların istedadına və təcrübəsinə həmişə böyük önəm verilib. Müxtəlif ali məktəblərə yüksək balla qəbul olan tələbələr Prezident Təqaüdünə layiq görülüb. Onların lap istedadlıları Avropa ölkələrinə, eləcə də qardaş Türkiyəyə dövlətin maliyyə dəstəyi ilə oxumağa göndərilib. Həmin gənclər istər Avropa ölkələrində, istərsə də Türkiyədə həkimlik, hüquqşünaslıq, iqtisadçılıq ixtisaslarına yiyələnərək çox böyük uğurlar əldə ediblər. Təkcə bir faktı qeyd etmək lazımdır ki, 40-50 il bundan əvvəl Azərbaycanda açıq ürək əməliyyatı, eləcə də böyrək və qara ciyər köçürmələri mümkün deyildi. Və heç kim də təsəvvür etməzdi ki, 20-30 ildən sonra Azərbaycanın istedadlı gəncləri gedib Avropa və Türkiyədə kardiocərrah və orqan köçürməsi mütəxəssisi olacaq, buna heç kim inanmazdı.

Bu mənada kardiocərrah Rəşad Mahmudov, Kamran Ağayev, Firdovsi İbrahimov və digər dünya şöhrətli həkimlərimiz yeni bir tarix yazdılar və sübut etdilər ki, Azərbaycan gəncliyi hər şeyə qadirdir. Onlar həm elm sahəsində, həm də digər sahələrdə çox böyük istedada və təcrübəyə malikdir.

Tək məsələ bununla bitmədi. Azərbaycan gəncliyi arasında vətənpərvərlik hissinin təbliği və digər ideyalar daha bariz surətdə həyata keçirildi. Çünki heç kimə sirr deyildi ki, 30 ildən çox idi ki, ərazimizin 20 faizi erməni işğalı altındaydı. Bu barədə möhtərəm prezidentimiz İlham Əliyev də dəfələrlə bir fikri vurğulayıb ki, mənim hakimiyyətim dövründə olan gənclər Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində əvəzsiz rol oynadı, onlar 44 günlük İkinci Qarabağ savaşında çox böyük qəhrəmanlıq göstərdi. Cənab Prezidentin dediyi kimi, bütün bunlar tarixdir. O tarix ki 44 günlük İkinci Qarabağ savaşında bunu Azərbaycan ordusu, Azərbaycan gəncliyi yazdı.

O da heç kimə sirr deyil ki, bu gün gəncliyimiz çox böyük və möhtəşəm işlər görür. Onlar həm elm, həm də istehsalat sahələrində uğurlara imza atmağı bacarır. Təkcə bir faktı qeyd edə bilərik ki, bu gün ölkəmizi dünyaya tanıtdıran və sevdirən idmançılarımız var.

O idmançılar hər dəfə birinci yerə çıxanda, qızıl medal qazananda öncə Azərbaycan himni çalınır və Azərbaycan bayrağı qaldırılır. Doğrudan da bu anları, bu məqamları görmək və yaşamaq çox gözəldir.

Əlbəttə, bu gün ölkə prezidenti Cənab İlham Əliyev də gənclərə güvənir, onlara ümid bəsləyir və etimad göstərir. Bu gün Azərbaycanda neçə-neçə gənc nazir vəzifəsinə təyin olunub, neçə-neçə gənc icra başçısı vəzifəsinə qoyulub. Bütün bunlar onu göstərir ki, həqiqətən də Azərbaycan gəncliyinə söykənmək, güvənmək mümkündür.

Heç şübhəsiz, gəncliyimizin bu qədər vətənpərvər yetişməsində, Vətəni sevməsində ailənin, məktəbin və universitetlərin çox müsbət əhəmiyyəti var.

Çünki gənclik düzgün tərbiyə ediləndə, düzgün istiqamətləndiriləndə onların tutduğu yol da işıqlı və nurlu olur. Xoşbəxt o millətdir ki, onun gəncliyi sağlam, Vətənpərvər, mübariz, xalqını və dövlətini sevənlərdir. Əgər gənclik xalqını və dövlətini sevirsə, heç şübhəsiz, həmin millətin gələcəyi də işıqlı və nurlu olur. Deməli, bizim xalq nə qədər müdrik, nə qədər böyükdürsə, onun gəncliyi də bir o qədər işıqlı, bir o qədər möhtəşəm və bir o qədər də güclüdür.

**Heç şübhəsiz ki, insan ömrünün ən gözəl çağı olan gənclik illəri heç kimin yadından çıxmır. Hansı uğuru, hansı müvəffəqiyyəti qazanmaq istəyirsənsə bunu 40 yaşına qədər əldə etmək mümkündür. Yəni 40 yaşına qədər sən istədiyini əldə etməlisən. Həm savadlı, elmli olmalısan, həm də vətənpərvər insan kimi formalaşmalısan. Və sonradan bu dediyimiz dəyərləri qazanmaq və əldə etmək mümkün deyil. Çünki gənclik ömrü köçəri quş kimi bir şeydir. Allah-Təala onu sənə bəxş edir və bir müddətdən sonra o illər uçub gedir. Və o illəri elə yaşamalısan ki, sonradan təəssüf və peşmançılıq hissləri keçirməyəsən. Arxaya dönüb baxanda həmin illərlə fəxr edəsən və qürur duyasan!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Kappadokiyada yeni kulinariya dövrü

**MICHELIN Bələdçisinin Türkiyədəki fəaliyyəti 2022-ci ildə İstanbul 2023 seçiminin elan olunması ilə başlayıb.**

Adalet.az xəbər verir ki, sonrakı mərhələdə bələdçi İzmir və Muğlanı da əhatə edib. 2025-ci ildə isə Kappadokiyanın siyahıya daxil edilməsi Türkiyənin zəngin və çox şaxəli kulinariya irsinin beynəlxalq arenada tanıdılması baxımından mühüm addım kimi qiymətləndirilir. Pəri bacaları, qədim qaya evləri və simvolik isti hava şarları ilə dünyada məşhur olan Kappadokiya MICHELIN Bələdçisində 18 seçilmiş restoranla təmsil olunur.

Yeni MICHELIN ulduzu alan restoranlar, yerli məhsullara əsaslanan menyular, Anadolu mətbəxinin əsrlərə dayanan reseptlərinin müasir baxışla yenidən təqdim olunması, eləcə də davamlılığa verilən önəm sayəsində region qısa müddətdə Türkiyənin ən maraqlı və cəlbedici qastronomiya istiqamətlərindən birinə çevrilib.



## *Torpaqdan, ənənədən və sənətkarlıqdan yoğrulan qastronomiya*

Kappadokiya macəra dolu təcrübələri ilə yanaşı, yadda qalan dadlar təqdim edərək onu özünəməxsus qastronomiya istiqamətinə çevirir. Yerli yeməklər əsrlərdən bəri qorunub saxlanılan reseptlər, ənənəvi açıq od üzərində bişirmə üsulları, regionun vulkanik torpaqlarında yetişdirilən orqanik məhsullar və yaxın üzüm bağlarından əldə olunan ətirli üzümlər əsasında hazırlanır. Yerli yaddaşa xüsusi önəm verən MICHELIN Bələdçisinin seçimi də Kappadokiyanın güclü qastronomik potensialını aydın şəkildə ortaya qoyur.

Bu tanınma yalnız MICHELIN Ulduzu və Yaşıl Ulduz mükafatları ilə məhdudlaşmır. Kappadokiya eyni zamanda qadın kooperativləri, ailəvi idarə olunan məkanlar və nəsillər boyu ənənələrinə sadiq qalan köklü yerli restoranlar da daxil olmaqla, Bib Gourmand və MICHELIN tərəfindən tövsiyə olunan restoranların zəngin seçimi ilə diqqət çəkir. Bu məkanlar birlikdə ziyarətçiləri təbiət, yerli istehsalçılar və regionun orijinal dadları ilə birləşdirən xüsusi bir qastronomik səyahət yaradır.

Dəbdəbəli və müasir restoranlardan tutmuş ənənəvi yerli yeməkxanalara qədər hər biri bölgənin ruhunu öz hekayəsi ilə əks etdirir və qonaqlara unudulmaz dad təcrübələri bəxş edir.

Bəs Kappadokiyanın MICHELIN Bələdçisinə daxil olan restoranlarında qonaqları hansı dad macəraları gözləyir?

## *Torpağa bağlı dadlar: Kappadokiyanın kulinariya irsi*

Kappadokiya təkcə gözoxşayan mənzərələri ilə deyil, eyni zamanda zəngin və ləzzətli məhsullar bəxş edən torpaqları ilə seçilir. Regionun restoranlarında hər bir yeməkdə bu bolluq və müxtəlifliyi dadmaq mümkündür. Məsələn, ərik kimi meyvələrlə incə şəkildə şirinləşdirilən xörəklər, eləcə də balqabaq tumu ilə təqdim olunan ev üsulu əriştə torpaqdan süfrəyə uzanan əsl dad bayramı yaradır və bölgənin təbii ləzzətlərini birbaşa boşqaba gətirir.

Kappadokiyanın mətbəxi Türk və Anadolu ənənələrinə dərin köklərlə bağlıdır. Məhz bu səbəbdən, burada ənənəvi bişirmə üsulları ilə hazırlanan yeməklər qonaqları regionun tarixi boyunca unikal bir səyahətə aparır. Bu yeməklər arasında testi kababı Kappadokiya səfərinin ən yaddaqalan dad xatirəsinə çevrilir. Testi kababı Avanos qəsəbəsində istehsal olunan gil qablar içərisində hazırlanır və tandırda asta-asta bişirilir. Hissləri oxşayan bu mərasim zamanı gil qab qonaqların gözü önündə qırılır və içindən çıxan buxar içində isti yemək dərhal süfrəyə təqdim olunur.

Qonaqlar odun sobasında asta-asta bişirilən, qurudulmuş əriklə ətin vəhdətindən yaranan kayısı yahnisi, qiymə, qozfındıq və ədviyyatlarla doldurulan heyva dolması, eləcə də ağ lobya və yumşaq ətin gil qabda bişirilməsi ilə hazırlanan ağpakla kimi özünəməxsus yerli dadları sınaqdan keçirə bilərlər. Bu zəngin dad süfrəsi incir yağlaması (kərə yağında bişirilmiş əncir), balqabaq deserti, dolaz (kərə yağlı un halvası) və Ürgüp üslubunda Damat paxlavası kimi xüsusi şirniyyatlarla ideal şəkildə tamamlanır.

**Niğde Mavisi və mağaralarda yetişdirilən Divle Obruk pendiri kimi məşhur yerli ləzzətlər region şərabları ilə mükəmməl uyğunluq yaradır. Bərəkətli üzüm bağları ilə əhatə olunan Kappadokiya Boğazkere, Narince və bölgəyə xas, təravətli və mineral dad xüsusiyyətləri ilə seçilən Emir üzüm sortlarından hazırlanan şərabları ilə tanınır. Süfrədən kənarda isə ziyarətçilər yerli şərab evlərində təşkil olunan turlar və dequstasiyalar vasitəsilə bu zəngin şərab mədəniyyətini daha yaxından kəşf edə bilirlər.**

**Sübhan**

# Xarici prodüserlər Azərbaycanda film istehsalına cəlb ediləcək

**Kinematoqrafiyaya dövlət himayəsinin əsas formaları genişləndiriləcək.**

Adalet.az xəbər verir ki, bu məsələ Milli Məclisin bu gün keçirilən iclasında müzakirə olunan "Kinematoqrafiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Qanun layihəsinə əsasən, xarici prodüserləri Azərbaycan Respublikasının ərazisində film istehsalına cəlb etmək üçün təşviqedici tədbirlərin həyata keçirilməsi kinematoqrafiyaya dövlət himayəsinin əsas formaları siyahısına əlavə ediləcək.

Belə ki, dəyişikliklə xarici prodüserlərin Azərbaycan Respublikasının ərazisində film istehsalına cəlb edilməsi dövlət siyasətinin ayrıca istiqaməti kimi təsbit olunacaq.

Bu, ölkənin beynəlxalq kino bazarına inteqrasiyasına və mədəni diplomatiyanın inkişafına xidmət edəcək. Bununla




bağlı qanuna aşağıdakı yeni anlayışlar daxil ediləcək:

film istehsalı - film çəkilişinə hazırlıq, film çəkilişi və film çəkilişinin tamamlanması mərhələlərini özündə əhatə edən proses;

film çəkilişinə hazırlıq - filmin ideyasının yaranması, konsepsiyasının hazırlanması, ssenarisinin yazılması və film çəkilişi məqsədilə digər inzibati və texniki məsələlərin həlli ilə əlaqədar işləri əhatə edən proses;

film çəkilişi - filmin bilavasitə kinolentə və ya digər daşıyıcıya çəkilişini təmin edən fəaliyyətləri əhatə edən proses;

filmin çəkilişinin tamamlanması - çəkilmiş kadrların redaktəsini, filmin vizual, səs və rəng işləmələrini, effekt, titr və qrafik tərtibatını əhatə edən proses;

xarici prodüser - əcnəbi və ya vətəndaşlığı olmayan şəxs və ya xarici hüquqi şəxs olan prodüser.

**Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq I oxunuşda qəbul edilib.**

## *"Şıltaq idim, deyirdi, özünü yığışdır"*



**"Mahnı Teatrında çalışdım. Rəşid Behbudovun teatrında işə girmək asan deyildi. O, rəhmətə gedəndən sonra teatrdan çıxdım. Ailə qurdum. O, rəhmətə getməsəydi teatrda qalardım. Boşluq hiss etdim".**

Adalet.az xəbər verir ki, bu sözləri Əməkdar artist Almaz Ələsgərova "Həftənin qonağı" verilişində deyib. Müğənni bildirib ki, keçmiş həyat yoldaşı özündən 20 yaş böyük olub: "Allahın qisməti. Peşman deyiləm. Ailəm onu istəmirdi. Anam deyirdi ki, qohumlarımız musiqiçi ailəsidir. Atam, qardaşım razı deyildi, anam arxamda dayandı və musiqiyə gəldim. Ticarətci idi, vəzifədə çalışırdı. İndi də qızlarım onun kimidir. Mənə oxşayanı olmadı. Qızımı güclə teatra gətizdirirəm ki, məni izləsin. Mən ona bir könüldən min könülə aşiq oldum. Qızlarım sevgidən doğulub. Sonra o istəyəni mən, mən istəyəni o etmirdi. Şıltaq idim, deyirdi, özünü yığışdır. Yığdım veşlərimi getdim. 2008-ci ildə rəhmətə gedib. Qızlarım tez-tez qəbrini ziyarət edirlər".

## *Şəbnəm Tovuzlu: "Bunu ancaq psixoloji problemi olan adam edər"*



**Şəbnəm Tovuzlu bir neçə gün əvvəl "Rəngarəng" proqramında aparıcı Zaur Nəbioğlu ilə qalmaqal yaşayıb.**

Bu barədə Adalet.az-a açıqlama verən müğənni Şəbnəm Tovuzlu haqsızlıqla üzləşdiyi üçün səhnəni tərk etdiyini söyləyib: "Bilirsiniz, müğənni efirə dəvət alanda ilk orda hansı mahnını ifa etməyi düşünür. Ancaq efir zamanın görürsən ki, heç nə sən düşündüyün kimi deyil. Sənət qalır bir kənarda başlayırlar ya həmkarları müqayisə etməyə, ya da şəxsi suallar verməyə. Sonra da deyirlər ki, qalmaqallı müğənniyəm. Kim özözünə dalaşar?! Bunu ancaq psixoloji problemi olan adam edər. Efirdə yersiz suallar, mənasız fikirlər əlbəttə adamı özündən çıxarır. Məcbursan aqressiv cavab verəsən. Zaur dostumuzdur, amma mənimlə belə davranması heç xoş hal deyil".

## *Nüşabə Musayeva: "O, ailə dəyərlərindən danışıb, əxlaq dərsi keçə bilməz"*



**Nüşabə Musayeva Ofelya Şabanova haqqında sərt fikirlər səsləndirib.**

Adalet.az bildirir ki, N.Musayeva onun ailə haqında çıxışlarıba irad bildirib: "Ofelya tez- tez ərindən danışır. Bu düzgün deyil. Hər kəsə nəsihət verir, amma özü həyat yoldaşının ikinci xanımıdır. Həyat yoldaşı bundan əvvəl evli olub və iki uşağı var. O, ailə dəyərlərindən danışıb camaata əxlaq dərsi verə bilməz. Çünki özünün səhvləri çoxdur. O, heç kəs üçün qeyrət simvolu deyil. Onun qeyrəti evində ərinə lazımdır. Ən pis hal da odur ki, Ofelya səslə- sənətlə deyil, corabla tanınıb. Gözəl səsi ola bilər, kiminsə təqlid edə bilər, amma yenə də maraqsızdır. Mənimlə yanaşı dayansın. Mən ifa etməyim, o oxusun. Yenə də mənim kölgəmdə sönük qalacaq".

**Əntiqə**

**İmişli rayonu ərazisində yerləşən „ Halallıq„ kənd təsərrüfatı kooperativinə məxsus möhür naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.**

**Əsas : Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi İmişli rayon Polis Şöbəsinin 09. 02. 2026- cı il tarixli 3-13-83/ 211-2L -73 nömrəli arayışı**

Bəhrəm Fərmanzadə tanınmış ictimai-siyasi xadim, sabiq millət vəkili

**Fəzail Ağamalının**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 266**
Çapa imzalanmışdır: 12.02.2026